# AZƏRBAYCANDA QADINLARA QARŞI ZORAKILIĞIN İQTİSADİ YÜKÜ

BAKI - 2020

**Müəllif:**

## Qanna Gerasimenko
beynəlxalq mütəxəssis

## Minnətdarlıq

Bu hesabat iqtisadiyyat üzrə fəlsəfə doktoru Qanna Qerasimenko tərəfindən hazırlanıb. Tədqiqatın strukturu və metodologiyası Avropa Gender Bərabərliyi İnstitutunun (EİGE) Birləşmiş Krallıq (2014) və Ukraynada (2016-2017) vəziyyətin təhlili çərçivəsində uğurla sınaqdan keçirilmiş yanaşmaları əsasında hazırlanıb. Gender məsələləri üzrə ekspert Xalisə Şahverdi bu hesabatın hazırlanmasına texniki və informasiya dəstəyi göstərib. Bu hesabatın ərsəyə gəlməsi üçün məlumatların toplanması və metodoloji məsələlərin müzakirəsində bir çox yerli ekspertlər də töhfə vermişdir. Biz Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Dövlət Statistika Komitəsinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Daxili İşlər Nazirliyinin, polis orqanlarının, Ədliyyə Nazirliyinin rəsmiləri, Bakı şəhərinin rayon icra hakimiyyətlərinin nümayəndələri, Bakı Apellyasiya Məhkəməsinin hakimləri, yerli hüquqşünaslar, sosial işçilər, səhiyyə işçiləri, polis əməkdaşları və vətəndaş cəmiyyəti təşkilatlarına öz bilik və bacarıqlarını bölüşdüyünə və apardıqları ekspert qiymətləndirmələrinə görə minnətdarlığımızı bildiririk.

**Hesabata istinad aşağıdakı qaydada olmalıdır:**

BMTƏF/AQUPDK (2020) *Azərbaycanda qadınlara qarşı zorakılığın iqtisadi yükü.* Bakı, Azərbaycan

**Bu hesabatda əks olunan fikir və mülahizələr müəlliflərə aiddir və BMT-nin Əhali Fondunun və ya Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəsmi mövqeyini əks etdirməyə bilər.**

# “İxtisarların siyahısı

| | |
|---|---|
| **AZN** | AZN Azərbaycan manatı |
| **AQUPDK** | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| **BMTİP** | BMT-nin İnkişaf Proqramı |
| **CEDAW** | Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiya |
| **CYÖİ** | Cinsi yolla ötürülən infeksiyalar |
| **DİN** | Daxili İşlər Nazirliyi |
| **EIGE** | Avropa Gender Bərabərliyi İnstitutu |
| **ƏN** | Ədliyyə Nazirliyi |
| **ƏƏSMN** | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| **GƏZ** | Gender əsaslı zorakılıq |
| **İPZ** | İntim partnyor zorakılığı |
| **İPAZ** | İntim partnyor və ailə üzvü tərəfindən törədilən zorakılıq |
| **İİV** | İnsanın İmmun Çatışmazlığı Virusu |
| **QSK** | Qadınların Statusu üzrə Komissiya |
| **QHT** | Qeyri-hökumət təşkilatı |
| **QQZ** | Qadınlara qarşı zorakılıq |
| **PFP** | Pekin Fəaliyyət Platforması |
| **PTSD** | Post-travmatik stress pozuntusu |
| **SN** | Səhiyyə Nazirliyi |
| **TN** | Təhsil Nazirliyi |
| **UNECE** | BMT-nin Avropa İqtisadi Komissiyası |
| **UNİCEF** | BMT-nin Uşaq Fondu |
| **UNFPA** | BMT-nin Əhali Fondu |
| **UNODC** | BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə Ofisi |
| **USD** | ABŞ dolları |
| **ÜST** | Ümumdünya Səhiyyə Təşkilatı |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

# Mündəricat


Qısa xülasə 4

Giriş 8

1. Qadınlara qarşı zorakılığın iqtisadi yükünün qiymətləndirilməsinin konseptual çərçivəsi və metodları 12

2. Azərbaycanda qadınlara qarşı zorakılığın iqtisadi yükünün qiymətləndirilməsi üçün məlumat mənbələri 18

3. Azərbaycanda qadınlara qarşı zorakılıq nəticəsində itirilmiş iqtisadi məhsuldarlıq 28

4. Qadınlara qarşı zorakılığın aradan qaldırılması üzrə göstərilən xidmətlərə sərf olunan maliyyə 38

4.1 Səhiyyə sektoru 41

4.2 Hüquq-mühafizə və ədliyyə sistemi 47

4.3 Məişət zorakılığından zərərçəkənlər üçün ixtisaslaşmış yardım 50

5. Qadınlara qarşı zorakılıq nəticəsində zərərçəkənlər və onların ailələrinin üzərinə düşən iqtisadi yük 54

6. Azərbaycanda qadınlara qarşı zorakılığın doğurduğu məcmu iqtisadi xərclər 64

Nəticələr 72

ƏLAVƏLƏR 76

# “Qısa xülasə

Qadına qarşı zorakılıq bütün dünyada insan hüquqlarının ən geniş yayılmış pozuntularından biri kimi qəbul edilir. Qadınlar həyatlarının istənilən mərhələsində gender əsaslı zorakılığın müxtəlif formaları ilə üzləşə bilər. Bu zorakılıq qadınlar və kişilər arasında resursların və səlahiyyətlərin qeyri-bərabər bölgüsü ilə birbaşa əlaqəli olaraq, qadınların ailə və cəmiyyətdəki asılı mövqeyindən qaynaqlanır. Qadına qarşı zorakılıq qadının həyatının istənilən mərhələsində baş verə bilər və erkən evlilik, cinsi zorakılıq, məişət zorakılığı, ayrı-seçkilik və istismar kimi bir neçə formada təzahür edə bilər. Qadınlar və qızlar həm zorakılığın müxtəlif formalarından əziyyət məkir, həm də zorakılıqla mübarizə və ədaləti bərqərar edə bilmək üçün daha az resurs və imkanlara malikdirlər. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) verdiyi məlumata əsasən fiziki və cinsi zorakılıq dünyada yaşayan bütün qadınların üçdə birinə təsir edən ictimai səhiyyə problemidir [1]. 2008-ci ildə Azərbaycanda qadınlara qarşı zorakılıqla bağlı aparılmış milli tədqiqatın nəticələrinə əsasən[2], 15-59 yaşlı bütün qadınların 24 faizi 15 yaşdan sonra, intim partnyoru olan və ya olmayan şəxslər tərəfindən zorakılığa məruz qaldığına dair məlumat verib. Qadınlar və qızlar daha çox zorakılıq riski ilə üzləşməklə yanaşı, onların zorakılıqdan qurtulmaq və ədaləti bərqərar etmək üçün istifadə edə biləcəkləri vasitələr və resurslar da məhduddur.

Qadınlara qarşı zorakılığın mənfi təsirləri çoxdur və bu hallar zərərçəkənlərin fiziki və psixoloji rifahına təsir göstərməklə yanaşı, reproduktiv sağlamlığa da əhəmiyyətli dərəcədə zərər vurur. Bundan başqa, qadınlara qarşı zorakılıq çoxsaylı iqtisadi xərclərə səbəb olur və bu xərcləri maliyyə resursları və əmək məhsuldarlığının itkisi baxımından ölçmək mümkündür. Qadınlara qarşı zorakılığın iqtisadi nəticələri zorakılıq qurbanları və zorakılığı törədən şəxslər, onların uşaqları, qohumları, işəgötürənlər və yerli icmalar, qadınlara qarşı zorakılıqla bağlı cavab tədbirləri həyata keçirən müxtəlif dövlət qurumları və QHT-lər, dövlət vəsaitləri və xeyriyyə fondları, bütün vergi ödəyiciləri və bütövlükdə iqtisadiyyata təsir edir. Qadınlara qarşı zorakılığın həmçinin iqtisadi baxımdan ölçülə bilməyən mühüm dolayı nəticələri (məsələn, zorakılığa şahid olan uşaqların məruz qaldığı mənfi psixoloji təsirlər, gec üzə çıxan stres pozuntuları, zərərçəkənin itirilmiş imkanları və həyat keyfiyyətinin aşağı düşməsi) mövcuddur.

Qadınlara qarşı zorakılıq probleminə yönələn normativ cavab tədbirlərini gücləndirmək məqsədilə, BMT-nin Əhali Fondunun Azərbaycandakı Ölkə Nümayəndəliyi 2018-ci ildə qadınlara qarşı zorakılığın iqtisadi nəticələri ilə bağlı yenilikçi bir tədqiqat başlamışdır. Bu tədqiqatın əsas məqsədi yeni iqtisadi dəlillərdən istifadə edərək qadınlara qarşı zorakılıqla bağlı “sıfır tolerantlıq” siyasətinin təşviqinə yönələn səylər və maarifləndirmə kampaniyalarına dəstək göstərməkdən ibarət idi. Sözügedən qiymətləndirmə milli kontekst və məlumat mənbələrinə uyğunlaşdırılmış beynəlxalq metodologiyalar əsasında aparılmışdır. İqtisadi hesablamalar qadınlara qarşı zorakılığın doğurduğu potensial xərclərin bir neçə kateqoriyası üzrə aparılıb: 1) bərpaolunmaz əhali itkisi (ölüm halları) səbəbindən itirilmiş məhsuldarlıq, zərərçəkənin əmək qabiliyyətini müvəqqəti və daimi itirməsi və əmək məhsuldarlığının azalması; 2) zorakılığın nəticələrinin aradan qaldırılması üçün göstərilən xidmətlərə sərf olunan xərclər (səhiyyə sektoru, hüquq-mühafizə və məhkəmə sistemi, penitensiar müəssisələr, sosial və ixtisaslaşmış xidmətlər); 3) zərərçəkənlərin şəxsi maddi itkiləri və maliyyə məsarifi.

Bütün dünyada qadınlara qarşı zorakılıq hallarına dair məlumatın aidiyyəti qurumlara çatdırılması və müvafiq şəkildə qeydiyyatının

[1] ÜST(2013). Qadına qarşı zorakılığın qlobal və regional ayılma miqyası: Cinsi partnor zorakılığı və partnyor olma-yan şəxs tərəfindən törədilmiş zorakılığın yayılma miqyası və sağlamlığa təsiri, Ümumdünya Səhiyyə Təşkilatı, Cenevrə.
[2] UNFPA (2011). Azərbaycanda qadınlara qarşı zorakılıq üzrə milli sorğu hesabatı - 2008, Bakı: 237.

aparılması kifayət qədər məhduddur. Bunu nəzərə alaraq, ümumi əhali arasında fiziki və/ yaxud cinsi zorakılığa məruz qalma ehtimalı olan qadınların təqribi sayını hesablamaq üçün qadınlara qarşı zorakılıqla əlaqəli cinayət əməlləri və zərərçəkənlərə göstərilən sosial xidmətlərlə bağlı inzibati məlumatlarla yanaşı ev təsərrüfatlarına əsaslanan sorğulardan istifadə edilmişdir. Yetkinlik yaşına çatmış qadınlara qarşı zorakılığın qeydə alınan yayılma səviyyələrini əhalinin sayına tətbiq etdikdə, 2017-ci ildə zorakılığa məruz qalan qadınların sayının təqribən 211.8 min nəfər ola biləcəyini söyləmək mümkündür. Onların təxminən 60 min nəfərdən çoxu zorakılıqla əlaqədar olaraq müəyyən xəsarətlər almış, ən azı 70 min nəfər isə qadınlara qarşı zorakılıqla bağlı psixoloji stressdən əziyyət çəkmiş ola bilər. Əlavə məlumatlar toplamaq üçün yerli səhiyyə işçiləri və sosial işçilər, polis əməkdaşları və hakimlər, yerli hakimiyyət orqanları və QHT-lərin nümayəndələri ilə fokus qrupu müzakirələri və geniş müsahibələr aparıldı. Nəhayət, zorakılığa məruz qalmış qadınların istifadə etdikləri mübarizə strategiyaları ilə bağlı məlumat əldə etmək üçün “Təmiz Dünya” İctimai Birliyinin dəstəyi ilə zorakılığa məruz qalmış 197 qadın arasında ünvanlı sorğu keçirilmişdir.

Qadınlara qarşı zorakılığın latentlik səviyyəsini nəzərə almaqla aparılmış ekonometrik simulyasiyaların nəticələrinə əsasən, 2017-ci ildə Azərbaycanda qadınlara qarşı zorakılığın məcmu iqtisadi yükü 764 milyon ABŞ dollarına (ölkənin ÜDM-nin 1.8 faizi) bərabər ola bilər. Diqqətəlayiqdir ki, bu xərclərin böyük hissəsi məhz zərərçəkənlərin özləri tərəfindən qarşılanıb (ümumi məbləğin təxminən 90 faizi i). Xidmətlərin və sığınacaqların davamlı şəkildə çatışmazlığına görə, zərərçəkənlər zorakılığın nəticələrini aradan qaldırmaq üçün (o cümlədən, tibbi analizlər və müayinələrin ödənişi, tibbi preparatların alınması, hüquqi yardım, inzibati xidmətlər və rüsumlar, böyüklər və zorakılığa şahid olmuş uşaqlar üçün psixoloqla konsultasiyalar) öz şəxsi vəsaitlərini istifadə etməli olublar. Zərərçəkənlərin əksəriyyəti həmçinin itirilmiş əmlak və şəxsi əşyalar, sındırılmış məişət cihazları və s. ilə əlaqədar önəmli maddi itkilərə məruz qaldığına dair məlumat verib. Beləliklə, onlar zorakılığın təsirlərini aradan qaldırmaq və zorakılığı törədən şəxslərdən ayrıldıqdan sonra yeni həyata başlamaq üçün orta hesabla təxminən 1324 ABŞ dolları məbləğində maliyyə vəsaiti xərcləməli olub. Sorğunun nəticələrinə əsasən aztəminatlı və iqtisadi baxımdan qeyri-fəal olan qadınlar zorakılığın daha ağır fəsadları ilə üzləşir, çünki zorakılıq halları baş verdiyi təqdirdə onlar maliyyə vəsaitinin çatışmazlığına görə müvafiq yardım xidmətlərinə müraciət edə bilmir.

2017-ci ildə qadınlara qarşı zorakılığa cavab olaraq göstərilmiş xidmətlərin ümumi dəyəri 11.8 milyon ABŞ dollarına bərabər ola bilərdi. Xidmətlərin təqribi xərclərini hesablamaq məqsədilə, zərərçəkənlərin müraciət etdiyi xidmət qurumlarının səciyyəvi siyahısı və istifadə olunmuş xidmət paketlərini müəyyən etmək üçün “vahidin qiyməti” yanaşmasından istifadə olunub. Hər xidmət növünə sərf olunan təqribi xərclər cari qiymətlər əsasında, həmçinin, cəlb olunan ekspertlərin orta gündəlik xidmət haqqını nəzərə almaqla hesablanıb. Cinsi zorakılıq baş verdiyi təqdirdə göstərilə biləcək xidmətlərin dəyərini hesablamaq məqsədilə, zorakılığa məruz qalmadan sonra həyata keçirilən tədbirlər və istifadə olunan tibbi preparatların minimum dəsti müəyyən olunub və onların


211.8 min

2017-ci ildə zorakılığa məruz qalan qadınların sayının təqribən 211.8 min nəfər ola biləcəyini söyləmək mümkündür.


70 min

Ən azı 70 min nəfər isə qadınlara qarşı zorakılıqla bağlı psixoloji stressdən əziyyət çəkmiş ola bilər.


60 min

Onların təxminən 60 min nəfərdən çoxu zorakılıqla əlaqədar olaraq müəyyən xəsarətlər almışdır.

maliyyə dəyəri hesablanıb (məs. təxirəsalınmaz kontrasepsiya, İİV və cinsi yolla ötürülən infeksiyaların qarşısının alınması, təhlükəsiz abort barədə maarifləndirmə, tibbi müalicə və s.). İxtisaslaşmış dəstək xidmətlərinin (məsələn, QHT-lər tərəfindən idarə olunan sığınacaqlar və ya beynəlxalq inkişaf təşkilatlarının xüsusi dəstək proqramları) xərclərini hesablamaq məqsədilə, bütün müvafiq maliyyə vəsaitlərini əhatə edən ümumi əməliyyat xərcləri yanaşmasından istifadə olunub.

2017-ci ildə qadınlara qarşı zorakılıq nəticəsində olan tibbi və demoqrafik itkilər səbəbilə itirilmiş məhsuldarlığın dəyəri 13.9 milyon ABŞ dolları həcmində ola bilər. Bu təqribi hesablamalar iqtisadi fəal olan və əmək bazarında məşğul olan zərərçəkənlərin ölüm halları, xəsarətlər nəticəsində əmək qabiliyyətini müvəqqəti və daimi itirməsi və əmək məhsuldarlığının azalmasının iqtisadi ekvivalentinə dair məlumatı təqdim etmək məqsədilə aparılıb. Lakin kölgə iqtisadiyyatının həcmi itirilmiş məhsul buraxılışının real miqyasının daha böyük olmasıi və müvafiq olaraq ölkə iqtisadiyyatına daha



böyük təsir edə bilməsi ilə bağlı mülahizələr irəli sürməyə imkan verir.

Azərbaycanda həmçinin, qadınlara qarşı zorakılıqdan zərərçəkənlər üçün sığınacaqların və ixtisaslaşmış yardım xidmətlərinin müntəzəm şəkildə çatışmazlığı müşahidə olunur. Bu tədqiqatın aparıldığı zaman kəsiyində ölkədə zorakılığa məruz qalmış qadınlar üçün nə dövlət tərəfindən maliyyələşdirilən sığınacaqlar, nə də xüsusi qaynar xətlər mövcud idi. Yerli QHT-lərin səyləri ndə əlaqələndirmə müşahidə edilməyib və onlar əsasən beynəlxalq donorların verdiyi maliyyə vəsaitlərindən asılı olub. Ünvanlı tədbirlər vasitəsilə qadınlara qarşı zorakılıq problemini aradan qaldırmaq üçün xüsusi dövlət proqramları və fəaliyyət planları qəbul edilməyib. Halbuki beynəlxalq tədqiqatlarə əsaslanaraq irəli sürülən ciddi dəlillər göstərir ki, qadınlara qarşı zorakılığın qarşısının alınması üçün  edilən yatırımlar sayəsində əhəmiyyətli sosial və iqtisadi nəticələr əldə etmık mümkündür.

Azərbaycanda qadınlara qarşı zorakılıqla bağlı etibarlı məlumatların olmaması hələ də bu zorakılığın iqtisadi yükünün hərtərəfli təhlilinin qarşısını alan mühüm maneələrdən biri olaraq qalır. Bunu nəzərə alaraq qeyd edilməlidir ki,, bu sahədə aparılan istənilən hesablamalar təqribi xarakter daşıyır və psixoloji təsirlər, reproduktiv sağlamlığa vurulan zərər və məcburi nikahların nəticələri də daxil olmaqla, qadınlara qarşı zorakılığın bütün sosial və iqtisadi nəticələrini müfəssəl şəkildə əhatə etdiyi iddia edilə bilməz. Qadınlara qarşı zorakılığın əhaliyə bilvasitə təsirləri və onun demoqrafik tendensiyalar və nəsillərarası münasibətlər baxımından gec üzə çıxan təsirlərini qiymətləndirmək üçün əlavə tədqiqatlara ehtiyac var.

# Giriş

Qadınlara qarşı zorakılıq insan hüquqlarının ən geniş yayılmış pozuntularından biri və cəmiyyətdə gender münasibətlərindəki bərabərsizliyin ən kəskin təzahürlərindəndir. Bu prinsip “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiya (CEDAW), həmçinin, “Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında Bəyannamə” kimi beynəlxalq sənədlərdə öz əksini tapmış və 1995-ci ildə BMT-nin Pekində keçirilmiş Dördüncü Ümumdünya Qadın Konfransında bir daha vurğulanmışdır. Pekin Fəaliyyət Platforması (PFP) da hökumətləri ciddi narahatlıq doğuran bir sıra problemlər, o cümlədən qadınlara qarşı zorakılıqla bağlı hərəkətə keçməyə çağırır. PFP-də bəyan edilir ki, “qadınlara qarşı zorakılıq bərabərlik, inkişaf və sülh kimi hədəflərə nail olmağa mane olan amillərdən biridir. Qadınlara qarşı zorakılıq qadınların insan hüquqlarını və əsas azadlıqlarını pozur və ya zəiflədir, həmçinin qadınların bu hüquq və azadlıqlardan istifadə etməsinə imkan vermir. Qadınlara qarşı zorakılığa münasibətdə bu hüquq və azadlıqların uzun müddət ərzində təmin və təşviq edilməməsi bütün Dövlətlər üçün narahatlıq doğuran və həllini tələb edən məsələdir... Əksər cəmiyyətlərdə qızlar və qadınlar bu və ya digər dərəcədə fiziki, cinsi və psixoloji zorakılığa məruz qalırlar və bu onların gəliri, mənsub olduğu sinif və ya mədəni kontekstdlə bağlı deyil. Qadınların sosial-iqtisadi statusunun aşağı olması onların məruz qaldığı zorakılığın həm səbəbi, həm də nəticəsi ola bilər”[3].

1993-cü ildə BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş “Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında Bəyannamə”də qadınlara qarşı zorakılığın tərifi öz əksini tapıb. Bəyannamə qadınlara qarşı zorakılığı “ictimai və yaxud da şəxsi həyatda baş verməsindən asılı olmayaraq, fiziki, cinsi və psixoloji zərər və ya əzabla, o cümlədən təhdidlər, müəyyən hərəkətlərə vadar etmə və ya özbaşına azadlıqdan məhrum etmə ilə nəticələnən və ya nəticələnə bilən istənilən zorakılıq hərəkətləri” kimi təsvir edir.”[4]

“Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında Bəyannamə”yə əsasən, qadınlara qarşı zorakılıq aşağıdakıları öxündə ehtiva edir: “ailədə baş verən fiziki, cinsi və psixoloji zorakılıq, o cümlədən döyülmə, ailədə qızlara qarşı seksual xarakterli hərəkətlər, cehizlə əlaqədar olan zorakılıq, qadınların ərləri tərəfindən zorlanması, qadınların cinsi orqanlarının zədələnməsi və qadınlara zərər gətirən digər ənənəvi üsullar, nikahdan kənar zorakılıq, istismarla bağlı zorakılıq; ümumilikdə cəmiyyətdə baş verən fiziki, cinsi və psixoloji zorakılıq, o cümlədən işdə, təhsil müəssisələrində və digər yerlərdə zorlama, seksual xarakterli hərəkətlər, cinsi əlaqəyə təhrik; həmçinin qadın alveri və fahişəliyə məcburetmə; dövlət tərəfindən törədilən və ya bağışlanan fiziki, cinsi və psixoloji zorakılıq halları.”

Bununla yanaşı, Bəyannamə qadınlara qarşı zorakılıq və qadınların itaətkar statusu arasındakı əlaqələri vurğulamaq məqsədilə qadınlara qarşı zorakılığı aşağıdakı kimi təsvir edir: “…kişilərin qadınlar üzərində hökmranlığı ilə nəticələnən və, qadınlara qarşı ayrı-seçkiliyə səbəb olan, eyni zamanda qadınların irəliləməsinin qarşısını alan tarixən mövcud olmuş qeyri-bərabər güc münasibətlərinin təzahürüdür „ həmçinin qadınlara qarşı zorakılıq onları daha itaətkar vəziyyətə düçar edən əsas sosial mexanizmlərdən birini təşkil edir...”

Avropa Şurasının “Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə haqqında” Konvensiyasında (İstanbul Konvensiyası)[5] da qadınlara qarşı

[3] https://beijing20.unwomen.org/en/about.
[4] “Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında” Bəyannamə Nyu-York, BMT, 23 fevral 1994.
[5] Konvensiya 11 may 2011-ci ildə İstanbul şəhərində imzalanmaq üçün açıq elan edilib.

zorakılığı qadınlara qarşı məhz onların qadın olduğuna görə törədilən gender əsaslı zorakılığın bir forması kimi qeyd olunur. İstanbul Konvensiyasında ayrı-seçkiliyin, zərərli təcrübələrin və gender stereotiplərinin çoxsaylı formaları zorakılıq xarakterli davranışlarına təkan verən amillər kimi vurğulanır. Bunu nəzərə alaraq, Konvensiya maarifləndirmə, təhsil, media və mütəxəssislərin hazırlığı sahələrində gender stereotiplərini xüsusilə hədəfə alır. Konvensiya, həmçinin, qadınlara qarşı zorakılığın bütün formalarının tam aradan qaldırılması və onun qarşısını almaq, zərərçəkənləri qorumaq və zorakılığı törətmiş şəxsləri məsuliyyətə cəlb etmək üçün dövlətin üzərinə müvafiq tədbirlərin görülməsi öhdəliyini qoyur.

Nəhayət, qadınlara qarşı zorakılıq yaxın zamanlarda qəbul olunmuş Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi çərçivəsində bütün dünyada dayanıqlı inkişafa maneə təşkil edən amil kimi qeyd edilib[6]. Qadınlara qarşı zorakılığın aradan qaldırılması ilk dəfə qlobal inkişaf məqsədlərinin (Məqsəd 5.2) prioritetlərindən biri kimi təyin olunub və əldə olunan irəliləyişin monitorinq və qiymətləndirməsini təmin etmək üçün konkret indikatorları olan hədəflər təyin olunub. 2003-cü ildə BMT-nin Baş Assambleyası "Qadınlara qarşı zorakılığın bütün formalarının hərtərəfli tədqiqi" adlı qətnaməni (A/RES/58/185) konsensus əsasında qəbul etdi. Qətnamədə aşağıdakı sahələri əhatə etməklə qadınlara qarşı zorakılığın bütün formaları və təzahürlərinin hərtərəfli tədqiq edilməsi ilə bağlı Baş Katibə müraciət edilmişdir[7]:

1) qadınlara qarşı zorakılığın miqyasını daha yaxşı qiymətləndirmək, eyni zamanda problemin miqyasının qiymətləndirilməsi üçün məlumatların toplanmasındakı boşluqları müəyyən etmək və təkliflər hazırlamaq məqsədilə qadınlara qarşı zorakılığın bütün formalarının statistik icmalının keçirilməsi
2) qadınlara qarşı zorakılığın səbəbləri, o cümlədən zorakılığa səbəb olan amillər və töhfə verən digər faktorların araşdırılması;
3) qadınlara qarşı zorakılığın orta və uzunmüddətli perspektivdə göstərdiyi təsirlərin müəyyən edilməsi;
4) qadınlara qarşı zorakılığın tibbi, sosial və iqtisadi nəticələrinin öyrənilməsi;
5) qadınlara qarşı zorakılıqla mübarizə və onun aradan qaldırılmasına yönələn qanunvericilik, siyasət, proqramlar və effektiv müdafiə vasitələri sahəsində qabaqcıl nümunələrin və mexanizmlərin müəyyən edilməsi;

Dünyanın müxtəlif yerlərində qadınlara qarşı zorakılıq probleminin aradan qaldırılması və onun nəticələrinin əhatə dairəsinin və miqyasının öyrənilməsinə yönələn çoxsaylı tədqiqatlar aparılıb. Azərbaycanda qadınlara qarşı zorakılıqla səmərəli mübarizə aparmaq üçün meta-analizlər, əhali arasında tədqiqatlar, qabaqlayıcı siyasətlər və ünvanlı təşəbbüslər formasında çoxsaylı səylər göstərilsə də, ölkədə qadınlara qarşı zorakılığın doğurduğu iqtisadi xərclər demək olar ki, hələ də öyrənilməmişdir. Eyni zamanda, belə bir tədqiqatın aparılması zərurəti dövlət siyasətinin formalaşdırılmasına məsul şəxslər və digər maraqlı tərəflər tərəfindən təsdiqlənmişdir. Çünki qadınlara qarşı zorakılığın cəmiyyətə vurduğu iqtisadi zərərlərlə bağlı aparılan hər hansı etibarlı hesablamalar qadınlara qarşı zorakılığın qarşısının alınması və cavab tədbirlərinin görülməsi ilə bağlı dövlət siyasətinin gücləndirilməsi, ünvanlı proqramların və milli fəaliyyət planlarının hazırlanması və bu tədbirlərə adekvat səviyyədə maliyyə vəsaitinin ayrılması üçün tələb olunan, lakin hazırda mövcud olmayan iqtisadi dəlilləri təmin edə bilər. Nəhayət, qadınlara qarşı zorakılıqla bağlı mövcud ictimai yanaşmanı dəyişmək, gender stereotiplərini dağıtmaqvə cəmiyyətdə zorakılığı aradan qaldırmaq üçün əhalinin qadınlara qarşı zorakılığın iqtisadi və sosial fəsadları barədə təxirəsalınmaz şəkildə maarifləndirilməsi zəruridir.

Aşağıda təqdim olunan məqsədlərə nail olmaq üçün keçirilmiş tədqiqatın əsas nəticələri bu hesabatda təqdim olunub:
• Azərbaycanda qadınlara qarşı zorakılıqla mübarizə sahəsində qabaqlayıcı və cavab tədbirləri ilə bağlı mövcud normativ çərçivəyə uyğun olaraq zorakılığın iqtisadi yükünün

[6] https://sustainabledevelopment.un.org/.
[7] Qadınlara qarşı zorakılığın bütün formalarına dair tədqiqat, Baş Katibin hesabatı, 6 iyul 2006: https://undocs.org/en/A/RES/58/185.

qiymətləndirilməsi üçün konseptual əsasların təhlili;

• Azərbaycanda qadınlara qarşı zorakılığın iqtisadi yükünün elmi əsaslarla hesablanması üçün mövcud məlumat mənbələrinin müəyyən edilməsi, məlumatlardakı mövcud boşluqların təsvir olunması və bu boşluqları aradan qaldırmaq üçün mümkün təkliflərin verilməsi;

• Zorakılığın doğurduğu iqtisadi xərclərin hesablanması üçün iki müxtəlif ssenarinin (qeydə alınmış hadisələrə əsaslanan "standart" ssenari və cinayətlərin latentlik səviyyələri və qadınlara qarşı zorakılıq hallarının qeydə alınmamasını nəzərə alaraq korrektə edilmiş "ən müvafiq" ssenari) hazırlanmasına imkan verən və müvafiq göstəricilər, müvafiq məlumat mənbələri və məlumat toplama metodları, analitik tədqiqat metodları və müxtəlif ekonometrik modelləri özündə ehtiva edən Azərbaycan üçün tətbiqi mümkün olan və elmi dəlillərə əsaslanan tədqiqat metodologiyasının hazırlanması ;

• Zorakılığa məruz qalmış qadınlar arasında onların şəxsi təcrübəsi, zorakılığın sağlamlığa təsiri və vurduğu maddi zərər barədə xüsusi sorğunun aparılması;

• Azərbaycanda qadınlara qarşı zorakılığın doğurduğu iqtisadi xərclərin ümumi məbləği barədə simulyasiya modeli əsasında təqribi göstəricilərin əldə edilməsi.

Bu tədqiqatın vəzifələrinə uyğun olaraq, cari hesabatın birinci bölməsi Azərbaycanın yerli kontekstində qadınlara qarşı zorakılığın doğurduğu iqtisadi xərclərin hesablanmasının konseptual əsasları və metodologiyalarının təhlilinə həsr olunub.

**İkinci bölmədə** inzibati məlumatlar, əhali arasında aparılan sorğular və keyfiyyət əsaslı tədqiqatlar daxil olmaqla mövcud məlumat mənbələrinin təhlili təqdim olunub. Hesabatın bu hissəsində cari tədqiqat çərçivəsində zorakılığa məruz qalmış qadınlar arasında aparılmış xüsusi sorğu, habelə respondentlərin sosial-demoqrafik vəziyyətinin bəzi əsas aspektlərinə dair məlumat qısa şəkildə şərh olunub.

**Üçüncü bölmədə** qadınlara qarşı zorakılıq nəticəsində itirilmiş (gerçəkləşməyən) məhsuldarlıq, o cümlədən əhalinin bərpaolunmaz itkilər, zərərçəkənlərin əmək qabiliyyətini müvəqqəti itirməsi və ya əlil olması, əmək məhsuldarlığının aşağı düşməsi nəticəsində dəymiş zərər qiymətləndirilib.

**Dördüncü bölmədə** qadınlara qarşı zorakılıqla mübarizə məqsədilə təqdim olunan xidmətlərin, o cümlədən səhiyyə, hüquq-mühafizə və ədliyyə sistemlərinin, zərərçəkənlərə göstərilən sosial xidmətlərin və ixtisaslaşmış xidmətlərin təxmini xərcləri təqdim olunub.

**Beşinci bölmədə** qadınlara qarşı zorakılığın nəticələrini aradan qaldırmaq üçün qadınların şəxsən ödədiyi xərclərin bəzi mümkün komponentləri təhlil olunur, həmçinin qadınlara



qarşı zorakılıqla əlaqəli olan dolayı xərclərin potensial kateqoriyalarından bəhs olunur. Bu bölmədə zərərçəkənlərin şəxsən ödədiyi xərclərin və onlara dəymiş maddi zərərin strukturu və məbləğlərini müəyyən etmək üçün zorakılığa məruz qalmış qadınlar arasında aparılmış xüsusi sorğunun nəticələri təqdim olunub.

Cari hesabatın altıncı bölməsində simulyasiya modelindən istifadə edilərək Azərbaycanda qadınlara qarşı zorakılığın doğurduğu məcmu iqtisadi xərclərin ümumi məbləği təqdim edilib. Qadınlara qarşı zorakılığın cəmiyyətə potensial təsirini qiymətləndirmək üçün əhali arasında aparılmış əvvəlki tədqiqatların nəticələri ölkənin bütün əhalisinə tətbiq edilmişdir. Ünvanlı təşviqat kampaniyalarının aparılması, qadınlara qarşı zorakılığın qarşısının alınması və cavab tədbirlərinin görülməsi ilə bağlı normativ çərçivənin hazırlanması və maarifləndirmə işlərinin aparılması üçün bu cür hesablamaların əhəmiyyəti böyükdür.



# 1

"Qadınlara qarşı zorakılığın iqtisadi yükünün qiymətləndirilməsinin konseptual çərçivəsi və metodları"



Qadınlara qarşı zorakılığın qadınların fiziki, psixi və reproduktiv sağlamlığına çoxsaylı mənfi təsirlər göstərən qlobal sağlamlıq problemi olması artıq demək olar ki, hamı tərəfindən qəbul edilib. Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) əsasən, fiziki və ya cinsi zorakılıq ictimai səhiyyə problemi olaraq dünyada bütün qadınların üçdə birindən çoxuna təsir edir[8]. Qadınlara qarşı zorakılığın sağlamlığa mənfi təsirləri yalnız ölüm və xəsarətlərlə məhdudlaşmayaraq, arzuolunmaz hamiləlik və abortlar, hamiləliyin ağırlaşması, yeni doğulmuşların aşağı çəkisi, cinsi yolla ötürülən infeksiyalar (məs. İİV), psixoloji problemlər və intihar meylləri, narahatlıq və depressiya, sosial fəaliyyətin zəifləməsi və spirtli içkilərdən istifadə kimi problemlərə səbəb olur. Qadınlara qarşı zorakılığın mühüm nəsillərarası fəsadları da var ki, buraya uşaqların (məs. körpə ölümü səviyyəsinin yüksək olması, təhsil göstəricilərinin aşağı olması, zorakılığa məruz qalma və ya yetkinlik dövründə zorakılıq törətmə), ailələrin (boşanma səviyyəsinin artması və ailələrin dağılması, qeyri-stabil yaşayış yeri və nəsillərarası münasibətlər) məruz qaldığı hallar daxildir.

Bundan başqa, qadınlara qarşı zorakılıq qadınlar və onların ailələri, habelə icmalar və cəmiyyətlər üçün əhəmiyyətli iqtisadi nəticələrə səbəb olur. Zorakılığın qlobal səviyyədə iqtisadi yükü çox böyükdür. Belə ki, beynəlxalq tədqiqatlara əsasən, qadınlara qarşı zorakılığın iqtisadi yükü qlobal ÜDM-in təxminən 2 faizini təşkil edir. Bu isə, 1.5 trilyon ABŞ dolları deməkdir ki, bu da, Kanadanın iqtisadiyyatına bərabər bir rəqəmdir[9]. Bir çox ölkələrdə intim partnyor zorakılığının doğurduğu xərclər ölkənin ibtidai təhsilə sərf etdiyi maliyyə vəsaitinə bərabər olur və ya hətta ondan da çox olur[10]. Qadınlara qarşı zorakılıq fərdlər, icmalar, ailələr və dövlət üçün doğurduğu xərclərlə yanaşı, bütün səviyyələrdə böyük iqtisadi məsarifə səbəb olur. Zorakılığın qadınların təhsil, məşğulluq və ictimai həyatda iştirakına mənfi təsiri yoxsulluğun azaldılmasına mane olur. Bu, öz növbəsində, məşğulluğun və məhsuldarlığın aşağı düşməsi ilə nəticələnir, həmçinin, sosial xidmət, ədliyyə sistemləri, tibb müəssisələri və işəgötürənlərin resurslarının tükənməsinə səbəb olur[11].

Qadınların Statusu üzrə Komissiyanın 2013-cü ildə keçirilmiş 57-ci sessiyası bu zorakılığın vurduğu iqtisadi və sosial zərəri qeyd etmiş[12] və qanunların hazırlanması,təkmilləşdirilməsi, icrası, normativ sənədlər və strategiyaların hazırlanması üçün etibarlı məlumatları təmin etmək məqsədilə, bütün hökumətləri qadınlara qarşı zorakılığın struktural xarakteri və təməl səbəbləri, doğurduğu xərclər və risk faktorları, növləri və yayılma səviyyəsi barədə davamlı çoxsahəli tədqiqat və təhlillər aparmağa və əldə edilən məlumatları maarifləndirmə və təbliğat üçün ictimaiyyətlə paylaşmağa çağırmışdır.



Zorakılığın qlobal səviyyədə iqtisadi yükü çox böyükdür. Belə ki, beynəlxalq tədqiqatlara əsasən, qadınlara qarşı zorakılığın iqtisadi yükü qlobal 1.5 trilyon ABŞ dolları deməkdir ki, bu da Kanadanın iqtisadiyyatına bərabər bir rəqəmdir.

Komissiya həmçinin hökumətləri ayrı-seçkilik və qadınlara qarşı zorakılığın müxtəlif formaları, səbəbləri və nəticələri, o cümlədən bu cür ayrı-seçkilik və qadınlara qarşı zorakılığın sağlamlığa təsirləri və iqtisadi nəticələri barədə milli və yerli səviyyələrdə cins və yaş qrupu üzrə təsnifləndirilmiş, etibarlı, müqayisə edilə biləcək və anonim məlumatlarları mütəmadi şəkildə toplamaq, təhlil etmək və yaymağaetməyə çağırmışdır. Həmçinin, qanunlar, normativ çərçivə və proqramların tərtib edilməsi, monitorinqi və qiymətləndirilməsi məqsədilə sözügedən məlumatların əlçatanlığı kimi bütün müvafiq faktorları nəzərdən keçirmək üçün də çağırış edilmişdir. Qadınlara qarşı zorakılığın doğurduğu həqiqi xərclərdən bir qismi milli tədqiqatlar və digər araşdırmalar nəticələrində müəyyən edilmişdir[13].

[8] ÜST (2013). Qadınlara qarşı zorakılığın yayılma səviyyəsi ilə bağlı təxmini qlobal və regional göstəricilər: Intim partnyor və digər şəxslər tərəfindən törədilən cinsi zorakılığın yayılma səviyyəsi və sağlamlığa təsirləri, Ümumdünya Səhiyyə Təşkilatı, Cenevrə.
[9] Qadınlara qarşı zorakılığın iqtisadi nəticələri. BMT-nin Baş Katibinin Köməkçisi və BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətləndirilməsi Qurumunun Direktor Müavini Lakşmi Purinin "Qadınlara qarşı zorakılığın iqtisadi nəticələri" üzrə yüksək səviyyəli müzakirələr zamanı çıxışı, 21 sentyabr 2016-cı il.
[10] Sida (2015). Gender əsaslı zorakılığın qarşısının alınması və cavab tədbirlərinin görülməsi: İfadələr və strategiyalar, Gender alətləri dəsti [Tematik icmal]: 24.
[11] Qadınlara qarşı zorakılığın iqtisadi nəticələri. BMT-nin Baş Katibinin Köməkçisi və BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətləndirilməsi Qurumunun İcraçı Direktor Müavini Lakşmi Purinin "Qadınlara qarşı zorakılığın iqti-sadi nəticələri" üzrə yüksək səviyyəli müzakirələrdə çıxışı, 21 sentyabr 2016-cı il.
[12] https://www.unwomen.org/-/media/headquarters/attachments/sections/csw/57/csw57-agreedconclusions-a4-en.pdf?la=en&vs=700 (para 11).
[13] Eyni mənbə.

Bir çox ölkələr qadınlara qarşı zorakılığın iqtisadi yükünü hesablamaq üçün qiymətləndirmə və meta-analizlər aparıb. Bu hesabatlar və tədqiqatların əksəriyyəti birbaşa maliyyə xərcləri barədə dəqiq rəqəmləri təqdim etməsə də, təhsil, təşviqat və gender əsaslı zorakılıq barədə maarifləndirmə xərcləri ilə bağlı təqribi rəqəmləri təqdim edir. Bəzi müəlliflər tərəfindən zorakılığın milli səviyyədə doğurduğu xərclər və ya konkret məsarifin qismən hesablanması vasitəsilə müəyyən xərclər üçün faktiki hesablamalar aparılıb. Beynəlxalq tədqiqatlarda qadınlara qarşı zorakılığın xərclərinin hesablanması ilə bağlı yanaşmaların təkamülü barədə ətraflı təhlil "Baş Katibin qadınlara qarşı zorakılığın bütün formalarına dair kompleks tədqiqatına hazırlıq üçün tərtib olunmuş ekspert arayışı"nda (2005) təqdim olunur. Son dövrlərdə Fransa[14], Danimarka[15], Kanada[16], və İsveçrə[17] üzrə aparılmış hesablamaların nəticələri məlumdur. Bu ölkələrin əksəriyyəti məlumatların toplanması üzrə təkmil sistemlərə və dövlət qurumları tərəfindən qeydə alınan yüksək keyfiyyətli inzibati məlumatlara malikdir. Bu, qadınlara qarşı zorakılığın doğurduğu xərclərin hesablanması və etibarlı və aktual göstəricilər əldə etmək üçün əsaslı tədqiqat metodologiyalarının hazırlanması baxımından önəmlidir.

2014-cü ildə EİGE tərəfindən inkişaf etmiş ölkələrdə gender əsaslı zorakılığın doğurduğu xərclərin müəyyən edilməsi ilə bağlı qabaqcıl təcrübələrin ümumi icmalı hazırlanmışdır[18]. Tədqiqatın nəticələrini özündə ehtiva edən hesabatda müxtəlif ədəbiyyata istinad əsasında, gender əsaslı zorakılığın və intim partnyor zorakılığının iqtisadi yükünün müəyyən olunmasının metodoloji variantları əhatəli şəkildə təhlil edilir və tmüvafiq övsiyələr təqdim olunur. Hesabatda 2012-ci ildə Birləşmiş Krallıqda intim partnyor zorakılığının iqtisadi yükünə dair aparılmış qiymətləndirmə öz əksini tapır və təqribi hesablanmış xərclər Aİ ölkələrinə tətbiq edilməklə təqdim edilir. Təxmini hesablamalara əsasən, Birləşmiş Krallıqda qadınlara qarşı zorakılığın doğurduğu xərclərin illik məbləği 28 milyard avroya çatmış, bütün Aİ üzrə isə bu rəqəm təxminən 226 milyard avroya təşkil etmişdir.

Azərbaycanda qadınlara qarşı zorakılığın doğurduğu iqtisadi xərclərlə bağlı aparılmış cari tədqiqat EİGE tərəfindən hazırlanmış metodologiyaya əsaslanır. Bu metodologiyanın üstünlükləri qadınlara qarşı zorakılığın potensial xərclərinin aydın şəkildə təsnifləndirilməsi, konkret qabaqlayıcı və cavab xidmətlərinin xərclərinin hesablanması ilə bağlı şəffaf və elmi əsaslı metodların tətbiqi və hesablamaların yekun nəticələrinin simulyasiya modeli çərçivəsində cəmlənməsi ilə bağlı asan yanaşmanın tətbiqindən ibarətdir.

Tədqiqatın metodologiyası BMT-nin Əhali Fondunun 2016-2017-ci illərdə Ukraynada apardığı tədqiqatı çərçivəsində uğurla sınaqdan keçirilmişdir[19]. Tədqiqat çərçivəsində aparılmış hesablamalara görə, qadınlara qarşı zorakılığın iqtisadi yükü 2015-ci ildə Ukrayna ÜDM-nin 0.23 faizininə bərabər olub. Ölkədə sığınacaqların və ixtisaslaşmış cavab xidmətlərinin sistematik çatışmazlığına görə, qadınlara qarşı zorakılığın doğurduğu iqtisadi xərclərin ən böyük hissəsi zərərçəkənlərin özləri tərəfindən ödənilib. Müqayisə üçün qeyd etmək lazımdır ki, zərərçəkənlərin özlərinin ödədikləri xərclər Birləşmiş Krallıqda gender əsaslı zorakılığın ümumi xərclərinin cəmi 3 faizini təşkil edib[20], çünki burada yaxşı inkişaf etmiş xidmət müəssisələri, sığınacaq sistemləri, gəlirə yaradan mexanizmlər, zərərçəkənlərin təhlükəsizliyi və mənzil şəraiti ilə bağlı proqramlar mövcuddur.

Qadınlara qarşı zorakılığın fəsadlarının səbəb olduğu xərclərin müəyyənləşdirilməsi ilə bağlı ən geniş yayılmış tədqiqat yanaşmalarına əsasən, zorakılığın doğurduğu xərclər dolayı və birbaşa ola bilər və bu xərclər qadınlar və onların ailələri, zorakılığı törətmiş şəxslər və onların ailələri və

[14] Nectoux M., Mugnier C. et al. (2010). Fransada intim partnyor zorakılığının iqtisadi qiymətləndirilməsi, Sante Pu-blique, 22(4): 405-416.
[15] Helweg-Larson et al (2010). Zorakılığın doğurduğu xərclər: Danimarkada qadınlara qarşı zorakılığın iqtisadi və şəxsi aspektləri, Milli İctimai Səhiyyə İnstitutu, Cənubi Danimarka Universiteti.
[16] Zhang T. et al (2012). Kanadada nikahdaxili zorakılığın iqtisadi təsirlərinin qiymətləndirilməsi 2009, Kanadanın Ədliyyə Departamenti.
[17] Stern, Fleidner et al (2013). İntim partnyor zorakılığının doğurduğu xərclər: İcmal, Federal Gender Bərabərliyi Ofisi, Bern.
[18] EİGE (2014). Avropa İttifaqında gender əsaslı zorakılığın doğurduğu xərclərin qiymətləndirilməsi, Lüksemburq: Avropa İttifaqının Nəşrlər Ofisi.
[19] UNFPA & UCSR (2017). Ukraynada qadınlara qarşı zorakılığın iqtisadi nəticələri, BMT-nin Əhali Fondu, Ukrayna Sosial İslahatlar Mərkəzi, Kiyev.
[20] EİGE (2014). Avropa İttifaqında gender əsaslı zorakılığın doğurduğu xərclərin qiymətləndirilməsi, Lüksemburq: Avropa İttifaqının Nəşrlər Ofisi.



dövlət və qeyri-dövlət qurumlarının üzərinə düşür[21]. Birbaşa xərclər qadınlara qarşı zorakılıq baş verdikdə zərərçəkənlər və zorakılığı törəmiş şəxslər tərəfindən istifadə edilmiş vasitələr və xidmətlərin (məsələn, səhiyyə sistemi, konsultasiya və digər aidiyyəti xidmətlər, ədliyyə sistemi, dəstək proqramları, uşaqlara dəstək və rifahın təmin edilməsi ilə bağlı yardım və s.) maliyyə ekvivalenti dəyərində ölçülə bilər. Dolayı xərclər dedikdə, qadınlara qarşı zorakılığın maliyyə vəsaiti ekvivalentində təsvir oluna bilməyəcək fısadları ilə bağlı xərclər, məsələn, zərərçəkənlərin gəlirləri və məhsuldarlığını itirməsi, xəsarətlərlə bağlı əmək qabiliyyətini itirməsi, itirilmiş imkanlar, özünəhörmət hissinin aşağı düşməsi və s. daxildir.

Qadınlara qarşı zorakılığın aradan qaldırılmasına yönələn ünvanlı proqramları və məişət zorakılığı ilə bağlı xüsusi qanunları olmayan ölkələrdə zorakılığın birbaşa xərclərini hesablamaq kifayət qədər problemli ola bilər, çünki monitorinq üçün mütəmadi olaraq toplanılan təsnifləndirilmiş məlumatlar mövcud deyil. Qadınlara qarşı zorakılıqla bağlı cavab xidmətlərinin çatışmazlığı adətən maliyyə vəsaitlərinin az olması ilə bağlıdır; nəticə etibarilə isə cəmiyyətdə qadınlara qarşı zorakılığın doğurduğu xərclərin aşağı səviyyədə olduğu barədə yanlış təəssürat yarana bilər. Bu cür hallarda, bir çox tədqiqatlar zərərçəkənlərin aldığı xəsarətlər və məhsuldarlığın aşağı düşməsi, məşğulluğun və/yaxud əmlakın itirilməsi və s. ilə əlaqədar olaraq itirilmiş ümumi məhsuldarlıqla bağlı dolayı hesablamalarından istifadə etməyi təklif edir. Bu xərclərin əksəriyyəti xərcləri qarşılayan konkret maraqlı tərəflərlə uzlaşdırıla bilər: bütün cəmiyyət (məs. itirilmiş ümumi məhsuldarlıq, ictimai səhiyyənin tənəzzülü, nəsilvermə və nikaha daxil olma tendensiyalarında dəyişikliklər), dövlət müəssisələri (məs. tibb müəssisələri, hüquq-mühafizə orqanları, sosial xidmət müəssisələri), qeyri-dövlət qurumları (məs. dəstək verən QHT-lər, beynəlxalq inkişaf təşkilatları) və fərdlər və onların ev təsərrüfatları (məs. qadınlara qarşı zorakılıq nəticəsində meydana çıxan nağd xərclər).

Bundan başqa, qadınlara qarşı zorakılığın doğurduğu təxmini xərclər istifadə olunmuş xidmətlərin (məs. tibbi müayinənin dəyəri və ya zorakılığı törətmiş şəxslər tərəfindən ödənilmiş cərimələr və hüquqi rüsumların məbləği) maliyyə dəyəri qismində hesablanmış maddi xərcləri və pul ekvivalenti ilə ölçülə bilməyən (zorakılığın psixoloji təsiri, özünəhörmət hissinin aşağı düşməsi, itirilmiş imkanlar, depressiya və s.) qeyri-maddi xərcləri əhatə edə bilər. Dolayı xərclər həm də ailədə zorakılığa şahid olan uşaqlara da aiddir; üstəlik, bu cür xərclər uzunmüddətli perspektiv üzrə qiymətləndirilməlidir, çünki uşağın zorakılığa şahid olmasından qaynaqlanan psixoloji pozuntular sonradan, yetkinlik yaşına çatdıqdan sonra özünü büruzə verə bilər.

[21] Walby S., Olive P. (2013). Qadınlara qarşı zorakılıqla mübarizə tədbirlərinin yaratdığı əlavə dəyərin iqtisadi aspek-tləri, Brüssel: Avropa Parlamentinə hesabat; Chan K. L., Cho E. Y-N. (2010). Məişət zorakılığının iqtisadi təsirlərinin maliyyə aspektlərinə baxış, Travma, zorakılıq və istismar, 11(3): 129-143.

**Seçilmiş yanaşmalara uyğun olaraq, bu tədqiqat çərçivəsində qadınlara qarşı zorakılığın doğurduğu potensial iqtisadi xərclər müəyyən edilmişdir:**

**1**

Bütün iqtisadi sistemə təsir edən demoqrafik itkilərin səbəb olduğu itirilmiş (gerçəkləşməyən) məhsuldarlıq:

- əhalinin bərpa olunmaz itkiləri (ölüm halları) və onların iqtisadi ekvivalenti (ÜDM-ə münasibətdə);
- qadınlara qarşı zorakılıqdan zərərçəkənlərin əmək qabiliyyətini müvəqqəti itirməsi və bunun əmək məhsuldarlığına təsiri;
- qadınlara qarşı zorakılığın səbəb olduğu əlillik;
- post-travmatik stress pozuntuları və sağlamlığa vurulan digər xəsarət nəticəsində qadınlara qarşı zorakılıqdan zərərçəkənlərin əmək məhsuldarlığının aşağı düşməsi.

**2**

Qadınlara qarşı zorakılığın qarşısının alınması və cavab tədbirləri ilə bağlı xidmətlərin dəyəri. Buraya müxtəlif qurumlar tərəfindən zərərçəkənlərə göstərilən bütün yardım xidmətləri daxildir:

- səhiyyə sektoru,
- hüquq-mühafizə və məhkəmə sistemi,
- penitensiar sistem;
- sosial xidmətlər sektoru;
- zərərçəkənlər üçün ixtisaslaşmış xidmətlər (məs. qaynar xətlər, böhran mərkəzləri, sığınacaqlar);

**3**

Qadınlara qarşı zorakılıqdan zərərçəkənlərin və onların ev təsərrüfatlarının qarşıladıqları şəxsi xərclər. Buraya aşağıdakılar daxildir:

- maddi xərclər, məsələn, əmlak və gəlir itkisi, zərərçəkənin yerdəyişmə və yerləşdirilməsi ilə bağlı xərcləri, zorakılığın nəticələrini aradan qaldırmaq üçün şəxsən qarşıladıqları nağd xərclər (tibbi, hüquqi, psixoloji yardım) və s.;
- qadınlara qarşı zorakılığın dolayı təsirlərinin doğurduğu qeyri-maddi xərclər, məsələn, həyat keyfiyyətinin pisləşməsi, itirilmiş imkanlar, vurulan psixoloji zərər və sonradan üzə çıxan psixoloji pozuntular, övlad sahibi olmaq istəyinin təxirə salınması, nəsillərarası münasibətlərə mənfi təsirlər və s.



Qadınlara qarşı zorakılığın iqtisadi nəticələrinin təqribi ölçülməsi üzrə yanaşmalara gəldikdə, beynəlxalq tədqiqatlarda bu məqsədlə hazırlanmış iki əsas yanaşma mövcuddur. Bu xərclər “aşağıdan-yuxarı” və ya “yuxarıdan-aşağı” yanaşması ilə ölçülə bilər[22].

[22] EİGE (2014). Avropa İttifaqında gender əsaslı zorakılığın doğurduğu xərclərin qiymətləndirilməsi, Lüksemburq: Avropa İttifaqının Nəşrlər Ofisi.

“Aşağıdan-yuxarı” yanaşmasına əsaslanan tədqiqatlar adətən konkret bir keysin təhlilinə yönəlir və baş vermiş zorakılıq halının fəsadlarının aradan qaldırılması məqsədilə atılmış hər bir addımın doğurduğu xərclərin ardıcıllıqla hesablanması alqoritmi ilə keçirilir(“vahidin qiyməti” yanaşması).

Digər tərəfdən isə, “yuxarıdan-aşağı” yanaşma əsasında keçirilən tədqiqatlar bütün institusional sistemi əks etdirən ümumi məlumatlarla başlayır, sonra müvafiq hadisələrin xidmətlərdən istifadə edənlərin ümumi sayı arasında mütənasib payını (və ya müvafiq maliyyə məsarifinin ayrılmış ümumi maliyyə resursları çərçivəsindəki xüsusi çəkisini) müəyyən etməyə çalışır.

Bu yanaşmaların müqayisəli təhlili onların hər ikisinin müəyyən üstünlüklərinin olmasını nümayiş etdirir. Belə ki, “vahidin qiyməti” yanaşması zorakılığın qadınların həyatına təsirləri ilə bağlı çox əhatəli məlumatlar təmin edə bilər; bu təxmini hesablamalar yerli mühitə tətbiq edilə bilər və bunun üçün böyük həcmdə resurslar tələb olunmur. Bununla belə, bu yanaşmanın əsas məhdudiyyəti ondan ibarətdir ki, qadınlara qarşı zorakılıqla bağlı nümunəvi vəziyyətlərin təhlili bütün əhali üzrə reprezentativ (təmsilli) deyil və bunun əsasında qadınlara qarşı zorakılığın ölkə səviyyəsində doğurduğu xərclərlə bağlı hipotez irəli sürmək kifayət qədər çətin ola bilər. Digər tərəfdən, “yuxarıdan-aşağı” istiqamətlənən tədqiqatlar reprezentativ milli statistik məlumatlardan istifadədə və dövlət qurumları tərəfindən mütəmadi olaraq toplanılan inzibati məlumatlara əsaslanması ilə səciyyələnir. Bu yanaşmada verilənlərin uyğunlaşdırılması deyil və bunun əsasında qadınlara qarşı zorakılığın ölkə səviyyəsində doğurduğu xərclərlə bağlı hipotez irəli sürmək kifayət qədər çətin ola bilər. Digər tərəfdən, “yuxarıdan-aşağı” istiqamətlənən tədqiqatlar reprezentativ milli statistik məlumatlardan istifadədə və dövlət qurumları tərəfindən mütəmadi olaraq toplanılan inzibati məlumatlara əsaslanması ilə səciyyələnir. Bu yanaşmada verilənlərin uyğunlaşdırılması və kalibrasiyasına ehtiyac olmur. Lakin zorakılıqla bağlı halların latentliyini nəzərə alaraq, sözügedən yanaşma bir çox zorakılıq qurbanlarının üzləşdiyi xərcləri əhatə etmir və yalnız “görünən” verilənlərin təhlilinə əsaslanır.

“Aşağıdan-yuxarı” istiqamətlənən yanaşmada, vahidin qiyməti hər bir hadisə üzrə hesablanır, zərərçəkənlərin və/yaxud hadisələrin sayına vurulur (məs. yayılma və/yaxud rastgəlmə səviyyələri). “Yuxarıdan-aşağı” istiqamətlənən yanaşmada isə istifadə olunmuş xidmətlərin ümumi həcmi və ya ümumi büdcə xərcləri təqribi hesablanır, daha sonra qadınlara qarşı zorakılıqla bağlı sərf olunan resursların xüsusi çəkisi inzibati məlumatlar əsasında müəyyən olunur.

Hər iki yanaşma vasitəsilə əlavə iqtisadi hesablama və simulyasiyalara imkan verən etibarlı məlumatları aşkar etmək və toplamaq kifayət qədər çətindir. Sözügedən metodların hər ikisi üçün (həm “yuxarıdan-aşağı”, həm də “aşağıdan-yuxarı”) bəzi ilkin məlumatlar tələb olunu: maliyyə vəsaiti ekvivalentində vahidin qiyməti və təsirin miqyasını qiymətləndirmək üçün onun misli onun misli, həmçinin qadınlara qarşı zorakılıqla bağlı xərclərin xüsusi çəkisi. Hər iki yanaşma Azərbaycanda qadınlara qarşı zorakılığın doğurduğu iqtisadi xərclərin təqribi hesablanmasına imkan versə də, onların üstün və zəif cəhətləri məsarifin növün, qadınlara qarşı zorakılığın təsirləri və təhlil üçün müvafiq məlumatların mövcudluğundan asılıdır. Növbəti bölmədə, Azərbaycanda bu cür tədqiqatların aparılması üçün mövcud məlumat mənbələri, eləcə də məlumatların keyfiyyəti ilə bağlı tələblər və potensial məlumat toplama metodlarının müfəssəl təhlilini təqdim edilib.

# 2

## “Azərbaycanda qadınlara qarşı zorakılığın iqtisadi nəticələrinin qiymətləndirilməsi üçün məlumat mənbələri”

Qadınlara qarşı zorakılıqla bağlı məlumatlar müxtəlif mənbələrdən toplanıla bilər. Lakin qadınlara qarşı zorakılığın müxtəlif formalarının xarakteri, yayılma səviyyəsi və nəticələri ilə bağlı kifayət qədər məlumatların olmaması narahatlıq doğurur və cavab tədbirlərinin görülməsi ilə bağlı səmərəli normativ çərçivənin hazırlanmasına əngəl olan bir maneə kimi təsvir olunur[23]. Məlumatların keyfiyyəti və etibarlılığı ilə bağlı ən mühüm çətinliklər məlumatların toplanılması sahəsində olan metodoloji çatışmazlıqlar və qadınlara qarşı zorakılıq halları ilə bağlı şikayətlərin edilməməsi tendensiyası ilə əlaqəlidir. Beləliklə də cəmiyyətdə qadınlara qarşı zorakılığın həqiqi miqyasına dair yetərli məlumatların olmaması nəticəsində problemlə səmərəli şəkildə mübarizəyə yönəlmiş normativ çərçivənin hazırlanması ləngiyir. Bununla yanaşı, qadınlara qarşı zorakılıqla bağlı hasil edilən statistik məlumatlar müvafiq normativ çərçivənin hazırlanması üzrə məsuliyyət daşıyan şəxslərin tələbatlarına uyğun olmur.

Qadınlara qarşı zorakılığın miqyası barədə təsəvvürə malik olmaq,tibbi və sosial xidmətlər, hüquq-mühafizə və ədliyyə sisteminin cavab tədbirləri, zərərçəkənlərin təhlükəsiz mənzil şəraiti və hüquqi yardımla bağlı ehtiyacları qiymətləndirmək üçün zorakılıq halları ilə bağlı ilkin məlumatların olması zəruridir. Dövlətin bu sahədə həyata keçirdiyi tədbirlərə sərf olunan maliyyə xərclərini hesablamaq üçün qadınlara qarşı zorakılığa cavab olaraq göstərilən müxtəlif xidmətlərin təqribi dəyərini bilmək lazımdır. Öz növbəsində, bu xidmətlərə sərf olunan təqribi vəsaiti zorakılığa məruz qalan bütün qadın əhaliyə tətbiq etmək üçün qadınlara qarşı zorakılığın yayılma səviyyəsi barədə məlumatlar tələb olunur. Nəticə etibarilə statistika orqanları və digər orqanlar tərəfindən məlumatların çoxluğu qadınlara qarşı zorakılığın məcmu iqtisadi xərclərinin daha dəqiqliklə qiymətləndirililməsinə töhfə verə bilər.

Qadınlara qarşı zorakılıq, xüsusilə də məişət zorakılığı və cinsi zorakılıq kimi məsələlər barədə məlumatların toplanması kifayət qədər çətindir. Əksər cəmiyyətlərdə qadınlara qarşı zorakılığa məruz qalmış şəxslərin çoxu yetərli dəlillərin olmaması, dövlət qurumlarına etibarın olmaması və ya zərərçəkənin günahlandırılması kimi müxtəlif səbəblərə görə cinsi zorakılıq halları barədə cinayət mühakimə sisteminə müraciət etmirlər. Bununla yanaşı, məişət zorakılığı ilə bağlı xüsusi qanunvericiliyi olmayan ölkələrdə cinayətkarlıq və inzibati hüquqpozmalarla bağlı məlumatlarda məişət zorakılığı üzrə təsnifləndirilmiş məlumat çatışmazlığı mövcuddur.

**Bu çətinlikləri aradan qaldırmaq məqsədilə, qadınlara qarşı zorakılıq barədə məlumatları toplamaq üçün müxtəlif yanaşmalardan istifadə olunur:**

- Əhali arasında qadınlara qarşı zorakılığın yayılması, onun formaları və nəticələrini və zərərçəkənlərin yardım üçün müraciət təcrübələrini ölçmək üçün əhali arasında aparılan ev təsərrüfatlarına əsaslanan tədqiqatlar,
- Dövlət orqanları tərəfindən (hüquq-mühafizə orqanları, ədliyyə sistemi, tibb və sosial xidmət müəssisələri və qadınlara qarşı zorakılıq halları ilə mübarizə aparan digər qurumlar) qeydə alınan və sənədləşdirilən zorakılıq hallarına dair inzibati məlumatlar,
- Hədəf əhali qrupları (qadınlara qarşı zorakılığın qurbanları, zorakılığı törətmiş şəxslər, xidmət müəssisələrinin nümayəndələri və s.) arasında keçirilən keyfiyyət əsaslı məlumat toplama üsulları (dərinləşdirilmiş müsahibələr, fokus qrupu müzakirələri, ekspert qiymətləndirmələri, konkret vəziyyətlərin təhlili).

Əhali arasında aparılan ev təsərrüfatlarına əsaslanan tədqiqatlar ümumi əhali arasında qadınlara qarşı zorakılığın yayılma səviyyəsi barədə məlumatların toplanmasının ən etibarlı üsulunu təşkil edir. İnzibati məlumatlardan fərqli olaraq, sorğu məlumatları rəsmi qurumlara şikayət edilən zorakılıq hallarını deyil, qadınların üzləşdiyi zorakılıq hallarının faktiki yayılma səviyyəsini əks etdirir.Strukturlu sorğu anketləri əsasında, müvafiq hazırlıq keçmiş müsahibəçilər təsadüfi seçmə üsulu ilə seçilmiş qadınlara onların üzləşdiyi zorakılıq halları, aldıqları xəsarətlərin xarakteri, şəxsi

[23] UNECE və ÜST (2005). Qadınlara qarşı zorakılıq: Statistik icmal - Məlumatların toplanması ilə bağlı çətinliklər və boşluqlar, onların aradan qaldırılması üzrə metodologiya və yanaşmalar. Ekspert Qrupunun İclası, Aprel 2005. Cenevrə: 38.

mübarizə strategiyaları (yardım üçün rəsmi xidmətlərə müraciət), məişət zorakılığı və intim partnyor zorakılığına ictimai münasibətlər barədə suallar verir.

Əhali arasında qadınlara qarşı zorakılığın yayılma səviyyəsini ölçmək üçün ən çox istifadə edilən zaman kəsiyi yetkinlik yaşına çatdıqdan sonrakı müddət (adətən 15-49 yaş arası) və müsahibən öncə olanson 12 aydır. Məsələn, Azərbaycanda 2008-ci ildə qadınlara qarşı zorakılıq üzrə aparılmış milli sorğu zamanı qadın respondentlərin təxminən dörddə birinin(24 faiz) 15 yaşından sonra həm intim partnyor, həm də intim partnyor olmayan şəxslər tərəfindən törədilən zorakılığın müxtəlif formalarına məruz qaldığı müəyyən edilmişdir. Seçmədə olan, nə vaxtsa rəsmi və ya qeyri-rəsmi nikahda olmuş hər dördümcü qadın intim partnyor tərəfindən törədilən emosional zorakılığa məruz qalmış, ölkə üzrə nə vaxtsa rəsmi və ya qeyri-rəsmi nikahda olmuş bütün qadınların 15 faizi həyatı boyu nə vaxtsaöz intim partnyoru tərəfindən fiziki zorakılığa məruz qoyulmuşdur. Bundan əlavə, nə vaxtsa rəsmi və ya qeyri-rəsmi nikahda olmuş bütün qadınların 7 faizi həyatı boyu nə vaxtsacinsi zorakılığa məruz qalıb[24].

Qadınlara qarşı zorakılığın yayılma səviyyələrindən əlavə, sözügedən tədqiqatlar zorakılığa məruz qalma baxımındanrisk faktorları və zorakılığa səbəb olan amillər, onun nəticələri (xəsarətlər və post-travmatik stress pozuntusu) və zərərçəkənlərin mübarizə strategiyaları barədə xeyli məlumat verə bilər. Belə ki, Azərbaycanda həyatı boyu nə vaxtsa intim partnyor zorakılığının ən azı bir formasına məruz qalmış qadınların 29 faizi bu zorakılıq nəticəsində xəsarətlər aldığını (kəsiklər, yarıqlar, sıyrıqlar və qançırlar) bildirib[25].

Daha mühüm bir məqam ondan ibarətdir ki, ev təsərrüfatlarına əsaslanan tədqiqatlar qadınlara qarşı zorakılıq hallarının qeydə alınmamasının (şikayət edilməməsi) əmsalı və zərərçəkənlərin yardım üçün müraciət etməməsinin səbəblərini ölçmək, təqdim olunan xidmətlərin və profilaktik tədbirlərin keyfiyyətini qiymətləndirmək üçün də istifadə edilə bilər. Azərbaycanda 2008-ci ildə qadınlara qarşı zorakılıqla bağlı aparılan milli araşdırmada iştirak etmiş respondentlər zorakılığı törədənlərin qisas alması və daha çox zorakılığa məruz qalma qorxusu (25 faiz), ailələrinin adına ləkə gələcəyi (15 faiz), onlara heç kəsin inanmayacağı və ya özəlrinin günahlandırılacağı qorxusu (6 faiz) və digər səbəbləri şikayət etməmələrinin səbəbi kimi göstərib. Eyni zamanda, qadınların 14 faizi intim partnyor tərəfindən törədilən zorakılığın ümumiyyətlə şikayət ediləcək məsələ olmadığını hesab etdiyinə dair məlumat verib.




Buna görə də, əhali arasında aparılan sorğular qadınlara qarşı zorakılığın miqyasını ölçmək, onun zaman keçdikcə necə dəyişdiyinin monitorinqini aparmaq və cavab tədbirlərini əks etdirən normativ çərçivəni hazırlamaq üçün çox önəmlidir. Lakin toplanmış məlumatların keyfiyyəti respondentin səmimiliyi, hafizəsi, hər hansı həssas məlumatları müsahibəçilərlə paylaşmağa hazır olub-olmamasından asılıdır. Qadınların öz travmatik təcrübəsi barədə danışmaq istəməməsi və ya məxfiliyin qorunmayacağını düşünməsi qadınlara qarşı zorakılıq hallarının gizlədilməsi ilə nəticələnə bilər. Sahə işləri üçün tələb olunan maliyyə vəsaitinin çoxluğu və metodoloji çatışmazlıqların sorğu prosesinə təsiri, müsahibəçilərin peşəkar bacarıqları, təhlükəsizlik və etik problemlər ev təsərrüfatlarına əsaslanan sorğuların səmərəli şəkildə keçirilməsinə mane olan digər məhdudiyyətlər sırasındadır . Bu məsələləri həll etmək məqsədilə, ÜST məişət zorakılığı ilə bağlı tədqiqatların aparılması üçün təhlükəsizlik məsələləri və etik məsələlərlə bağlı rəhbər qaydalar hazırlayıb. Məxfiliyin təmin olunması zərurəti, müsahibəçilərin gender məsələləri və qadınlara qarşı zorakılıqla

[24] UNFPA (2011). Azərbaycanda qadınlara qarşı zorakılıq üzrə milli sorğu hesabatı - 2008, Bakı: 237.
[25] Eyni mənbə.

bağlı xüsusi hazırlıqla təmin edilməsi, müsahibə zamanı və yaxud ondan sonra yardıma ehtiyacı ola biləcək respondentlərin tələb olunan minimum məlumatla təmin edilməsi və/yaxud onların yardım xidmətlərinə yönləndirilməsi, sahə işlərinə psixoloji və texniki dəstəyin göstərilməsi bu qaydalarda öz əksini tapır[26]. Sözügedən qaydalara əməl edilməməsi nəticəsində məlumatların keyfiyyəti baxımından problemlər yaranır, sorğu iştirakçıları isə fiziki və ya psixoloji xəsarət riski ilə üz-üzə qala bilər.

Qadınlara qarşı qeydə alınmış zorakılıq halları və zərərçəkənlərə göstərilən xidmətlərlə bağlı yenilənən məlumatları təmin etmək baxımından inzibati məlumatların xeyli üstünlükləri var. Qadınlara qarşı zorakılıqla bağlı rəsmi statistik məlumatlar adətən qadınlara qarşı zorakılıq halları ilə bağlı cavab tədbirləri həyata keçirən müxtəlif qurumların (tibb müəssisələri, polis idarələri və məhkəmələr, sosial xidmət müəssisələri və sığınacaqlar, hüquqi yardım göstərən qurumlar və ictimai təşviqat həyata keçirən qurumlar) məlumatları əsasında statistika orqanları tərəfindən tərtib olunur. Baş vermiş zorakılıq halları, müvafiq araşdırmaların sayı və zorakılıq törədənə qarşı cəza tədbirləri kimi nəticələrlə bağlı qadınlara qarşı zorakılıq üzrəən dəqiq inzibati məlumatlar adətən hüquq-mühafizə sistemi tərəfindən hazırlanır[27]. Bu məlumatlar cəmiyyətdə qadınlara qarşı zorakılığın yayılma səviyyəsini ölçmək üçün istifadə edilə bilməsə də, qeydə alınmış zorakılıq hallarının (və zərərçəkənlərin) sayının müəyyən edilməsi və cavab tədbirləri baxımından ehtiyacları qiymətləndirmək üçün faydalıdır. Bununla belə, qabaqlayıcı və cavab tədbirləri ilə bağlı mövcud normativ çərçivənin səmərəliliyi və istifadə olunan xidmətlərin keyfiyyətini qiymətləndirmək üçün bu məlumatlar yetərli deyil.

İnzibati məlumatlar ev təsərrüfatlarına əsaslanan sorğular vasitəsilə zorakılığın aşkar edilə bilməyən ağır formalarını ölçməyə imkan verir (adam öldürmə, ağır dərəcəli xəsarətlər və zərərçəkənlərin əlilliyinə səbəb olan zorakılıq). Əslində inzibati məlumatlar yüksək keyfiyyətli məlumat mənbəyi olsa da, məişət zorakılığı ilə mübarizə üzrə ünvanlı proqramları olmayan və məlumatların toplanması ilə bağlı standartlara malik olmayan ölkələrdə cinayət əməlləri və inzibati xətalarla bağlı ümumi statistik göstəricilər arasındaməişət zorakılığını müəyyən etmək mümkün olmaya bilər.

Başqa bir çətinlik isə qeydiyyatı aparılmayan qadınlara qarşı zorakılıq halları ilə bağlıdır, çünki rəsmi statistika əhali arasında bu problemin real miqyasını əks etdirmir. Heç də bütün zərərçəkənlər yardım üçün müraciət etmir, çünki onlar cəmiyyətdəki stiqmadan çəkinir və ya dövlət qurumlarına inanmırlar. 2008-ci ildə Azərbaycanda qadınlara qarşı zorakılıqla bağlı aparılmış milli sorğuya əsasən[28], intim partnyor zorakılığına məruz qalmış qadınların təxminən 61 faizi zorakılıq barədə heç kəsə məlumat verməyib. Yardım üçün müraciət edən respondentlər isə əksər hallarda valideynlər, qohumlar və dostlardan ibarət qeyri-formal şəbəkələrin dəstəyindən istifadə ediblər.

Qadınların sadəcə kiçik bir hissəsi dövlət qurumları, o cümlədən polis şöbələri, məhkəmələr və tibb müəssisələrinə müraciət edib (nə vaxtsa zorakılığa məruz qalmış qadınların təxminən 1 faizi). Nəticədə qadınlara qarşı zorakılıqla bağlı inzibati məlumatlar bu zorakılığın yayılma səviyyəsi




**2008-ci ildə Azərbaycanda qadınlara qarşı zorakılıqla bağlı aparılmış milli sorğuya əsasən[28], intim partnyor zorakılığına məruz qalmış qadınların təxminən 61 faizi zorakılıq barədə heç kəsə məlumat verməyib. Yardım üçün müraciət edən respondentlər isə əksər hallarda valideynlər, qohumlar və dostlardan ibarət qeyri-formal şəbəkələrin dəstəyindən istifadə ediblər. Qadınların sadəcə kiçik bir hissəsi dövlət qurumları, o cümlədən polis şöbələri, məhkəmələr və tibb müəssisələrinə müraciət edib (nə vaxtsa zorakılığa məruz qalmış qadınların təxminən 1 faizi). Nəticədə qadınlara qarşı zorakılıqla bağlı inzibati məlumatlar bu zorakılığın yayılma səviyyəsi baxımından yalnız “aysberqin görünən tərəfini” əks etdirir.**

[26] ÜST (2001). Qadınlar ilk növbədə: qadınlara qarşı zorakılıqla bağlı tədqiqatlarda etik məsələlər və təhlükəsizli-klə bağlı rəhbər qaydalar, Cenevrə: 33.
[27] EİGE (2016). Aİ-nin üzv dövlətlərində zorlama, feminisid və intim partnyor tərəfindən törədilən zorakılıqlabağlı inzibati məlumatların toplanması, Lüksemburq: Avropa İttifaqının Nəşrlər Ofisi: 12.
[28] UNFPA (2011). Azərbaycanda qadınlara qarşı zorakılıq üzrə milli sorğu hesabatı - 2008, Bakı: 237.

baxımından yalnız "aysberqin görünən tərəfini" əks etdirir. Ətraflı qiymətləndirmə aparmaq üçün bu növ məlumatlar sosioloji tədqiqatların nəticələri ilə tamamlanmalıdır.

Qadınlara qarşı zorakılıqla bağlı normativ çərçivədə olan boşluqları aşkar etmək və müdaxilə tədbirlərini qiymətləndirmək üçün fokus qrupları, ekspert qiymətləndirmələri və dərinləşdirilmiş müsahibələrdən istifadə edərək **keyfiyyət əsaslı metodlardan istifadə vasitəsilə toplanan məlumatlar** qadınlara qarşı zorakılığın səbəblərinin və zərərçəkənlərin mübarizə strategiyalarının araşdırılması üçün müvafiq yanaşma kimi istifadə edilə bilər. Məsələn, fokus qrupları yerli icmalarda məişət zorakılığına olan münasibətlər, həmçinin, xidmətlərlə bağlı mövcud ehtiyacları müəyyən etmək üçün səmərəli alətdlərdəndir. Ekspertlərlə aparılan müfəssəl müsahibələr gender əsaslı zorakılığın latentlik dərəcəsini və cavab xidmətlərinə sərf olunacaq xərcləri təxmini şəkildə qiymətləndirmək üçün istifadə edilə bilər. Bu səbəbdən, etibarlı inzibati məlumatlarla bağlı çatışmazlığı aradan qaldırmaq üçün keyfiyyət əsaslı metodlardan istifadə olunur. Bu yanaşmaların mühüm üstünlükləri onların sadəliyi, alətlərin çevikliyi və az resurs tələb etməsindən ibarətdir.

Beynəlxalq tədqiqatlar nəticəsində qadınlara qarşı zorakılığın doğurduğu maliyyə məsarifi barədə məlumatların toplanması üçün bəzi əlavə yanaşmalar da təklif edilir. Buraya zərərçəkənlərin xatırladıqları hallara əsaslanan araşdırmalar, əhalinin panel tədqiqatları, habelə qadınlara qarşı zorakılığa aid edilməyən, lakin sağlamlığa təsirləri (məs. yol-qəza hadisələrinə və ya zorakılıq cinayətlərinə aid edilən xəsarətlər) baxımından oxşar olan xəsarətlərin yaratdığı xərclərin tətbiqinə əsaslanan "oxşar zərərlərin ötürülməsi" yanaşması daxildir[29]. Bütün bu növ məlumatlar qadınlara qarşı zorakılığın cəmiyyətin üzərinə düşən iqtisadi xərclərini təqribi qiymətləndirmək üçün istifadə edilə bilər.

**Qeyd olunan təsnifata əsaslanaraq, Azərbaycanda qadınlara qarşı zorakılığın doğurduğu iqtisadi xərcləri hesablamaq baxımından əlçatan olan müxtəlif məlumat mənbələri qeyd oluna bilər:**

**1** *Azərbaycanda qadınlara qarşı zorakılığa dair 2008-ci ildə aparılmış milli sorğu.* UNFPA-nın[30] dəstəyilə aparılmış bu milli sorğu qadınlara qarşı zorakılığın iqtisadi təsirlərini qiymətləndirmək üçün tələb olunan mühüm baza göstəricilərini təmin edir: 15-49 yaşlı qadınlardan ibarət seçmə çərçivəsində fiziki, cinsi və emosional zorakılıqla bağlı fərdi təcrübələr, zorakılıq nəticəsində müxtəlif dərəcəli xəsarətlər almış zərərçəkənlərin xüsusi çəkisi, müxtəlif xidmət müəssisələrinə/ qurumlarına yardım üçün müraciət etmiş zərərçəkənlərin xüsusi çəkisi. Milli sorğu hesabatı həm də qadınların həyatı boyu nə vaxtsa zorakılığa məruzqalma təcrübələri və mübarizə strategiyaları, həmçinin cəmiyyətdə qadınlara qarşı zorakılığa olan münasibətlər və s. tədqiq etmək üçün müfəssəl məlumat mənbəyini təşkil edir.

**2** *Məişət zorakılığı və cinsi zorakılıqla (zorlama, seksual xarakterli zorakılıq) bağlı inzibati məlumatlar* müvafiq dövlət qurumları tərəfindən toplanılır və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən işlənilir. Qeydə alınmış məişət və cinsi zorakılıq halları ilə bağlı yekun məlumatlar mütəmadi olaraq "Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar" adlı illik statistik məcmuələrdə təqdim olunur; 2017-ci ildə nəşr olunmuş məcmuədə inzibati ərazi vahidlərinə görə təsnifləndirilmiş daha müfəssəl məlumatlar təqdim olunur[31].

[29] Walby S., Olive P. (2013). Qadınlara qarşı zorakılıqla mübarizə tədbirlərinin yaratdığı əlavə dəyərin iqtisadi aspek-tləri, Brüssel: Avropa Parlamentinə hesabat.
[30] UNFPA (2011). Azərbaycanda qadınlara qarşı zorakılıq üzrə milli sorğu hesabatı - 2008, Bakı: 237.
[31] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (2018) Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar. Statistik məcmuə: 110; mənbə: http://www.stat.gov.az/.

“Məişət zorakılığının qarşısının alınması haqqında”[32] Qanunun müddəalarına uyğun olaraq, 2017-ci ildə müxtəlif mənbələr əsasında məişət zorakılığına dair məlumatların toplanması üçün xüsusi məlumat bankı yaradıldı. Məlumat bankı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) tərəfindən idarə olunur. Məlumat bankında məişət zorakılığı halları, məişət zorakılığının qurbanları və zorakılığı törətmiş şəxslər, aparılmış araşdırmaların nəticələri və məhkəmə qərarları, verilmiş mühafizə orderləri, məişət zorakılığı ilə əlaqədar valideynlik hüquqlarından məhrum edilmiş şəxslər və s. barədə məlumatlar mövcuddur. İlkin məlumatlar hüquq-mühafizə və cinayət təqibi orqanları, yerli icra hakimiyyəti orqanları və yardım mərkəzləri tərəfindən təqdim olunur. 21 iyun 2018-ci il tarixinə olan məlumata görə, sözügedən məişət zorakılığı ilə bağlı məlumat bankına 575 məişət zorakılığı halı daxil edilmişdir.

**2018** -ci il
Məişət zorakılığı
ilə bağlı məlumat




**Bundan əlavə, müvafiq xidmətləri göstərən əksər dövlət orqanları xidmətlərdən faydalanan şəxslərin qeydiyyatını aparır, lakin onların məlumatların kəmiyyəti və keyfiyyətinin təmin edilməsi baxımından potensialı eyni deyil.**

Tibb müəssisələrinin qadınlara qarşı zorakılıq və onun nəticələri ilə bağlı məlumatları qeydə almaq, təhlil etmək və təqdim etmək potensialları olmadığına görə, Azərbaycanda qadınlara qarşı zorakılıq nəticəsində sağlamlığa vurulan zərərin tibbi statistikası mövcud deyil. Bu vəziyyət əksər ölkələr üçün xarakterikdir. Çünki tibb xidmətlərinə ehtiyacı olan şəxslərin məxfiliyi və konfidensiallığı tibb işçiləri üçün prioritet etik amillərdən biridir. Cinayət xarakteri baxımından şübhə doğuran xəsarətlər almış xəstələrlə bağlı tibb işçilərinin polis orqanlarına məlumat vermək öhdəliyi olsa da, məişət zorakılığına məruz qalan qadınlar hətta xəstəxanaya zorakılığın səbəb olduğu xəsarətlə bağlı müraciət etdikləri hallar da daxil olmaqala, əksər hallarda aldıqları xəsarətlərin əsl səbəblərini açıqlamırlar. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi əhalinin xəstələnmə və ölüm səviyyəsi ilə bağlı statistik göstəriciləri müntəzəm olaraq hasil etsə də, bu məlumatlar toplusunda qadınlara qarşı zorakılıqla bağlı xəsarətləri müəyyən etmək mümkün deyil. Bundan əlavə, tibbi və sosial reabilitasiya mərkəzləri Səhiyyə Nazirliyinə hesabat verərkən, müştərilərinin ümumi sayında məişət zəminində və cinsi zorakılığa məruz qalan zərərçəkənləri təsnifləndirmirlər.

Nəticədə, qadınlara qarşı zorakılığın sağlamlığa təsirləri yalnız ekspert mülahizələri və simulyasiya modelləri əsasında təxmini şəkildə qiymətləndirilə bilər; *Cinayətkarlıqla bağlı statistik məlumatlar* sistemli şəkildə hüquq-mühafizə orqanları tərəfindən toplanılır və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən işlənilir. Cinayət əməlləri qeydə alındıqda, məlumatlar Cinayət Məcəlləsində əksini tapan cinayət əməllərinin növləri üzrə strukturlaşdırılır (adam öldürmə, zorakılıq, sağlamlığa zərər vurma, zorlama və seksual xarakterli zorakılıq və digər cinayətlər). Məişət zorakılığı nəticəsində adam öldürmə halları və xəsarət almış şəxslər, habelə zorlama və zorlamaya cəhdlərin qeydə alınmış sayı ilə bağlı kifayət qədər etibarlı məlumatlar hazırlamaq üçün cinayət əməllərinin bu növlərindən bəziləri məişət zorakılıq əsasında da təsnifləndirilir. Məişət zorakılığı göstəricilərinin bəziləri zərərçəkənlərin cinsi üzrə təsnifləndirilmiş məlumatı təqdim etsə də, zərərçəkənin yaşı, zorakılığı törətmiş şəxslə əlaqəsi və məruz qaldığı zorakılıq formalarını müəyyən etmək mümkün olmur.

[32] “Məişət zorakılığının qarşısının alınması haqqında” 2010-cu il 22 iyun tarixli, 1058-IIIQ saylı Azərbaycan Respublikasının Qanunu.



Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi ilə tənzimlənən qeydə alınmış inzibati xətalar və müvafiq mülki cəzalarla (məs. cərimələr, inzibati həbs, ictimai işlər və s.) bağlı hallara dair əsas məlumat mənbəyini təşkil edir[33]. Bununla belə, mövcud qaydalara əsasən polis orqanlarından inzibati xətaların ümumi statistikasında məişət zorakılığı hallarını ayırd etmək tələb olunmadığı üçün, məişət zorakılığı ilə bağlı şikayətlərin təxmini sayını, habelə görülmüş qabaqlayıcı tədbirləri qiymətləndirmək mümkün deyil.



Ədliyyə sistemi məişət zorakılığına məruz qalan şəxslər və onu törədənlər, habelə məişət zorakılığına dəfələrlə məruzqalma və ya onu dəfələrlə törətmə halları barədə məlumatı təmin etmək potensialına malikdir. Qadınlara qarşı zorakılıqla bağlı məhkəməyə göndərilən cinayət işlərinin sayı qadınlara qarşı zorakılığın çox kiçik bir hissəsini təşkil etdiyi üçün reprezentativ xarakter daşımasa da, məhkəmə statistikası zorakılıq halları barədə görülən məhkəmə tədbirlərinin və qadınları qorumaq üçün hazırlanan qanunların səmərəliliyinin öyrənilməsinə töhfə verə bilər. Lakin Azərbaycanda bu növ məlumatlar məqsədyönlü şəkildə toplanmadığından, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin işlədiyi ümumi statistik məlumatlarda məişət zorakılığı hallarını müəyyən etmək mümkün deyil. Məişət zorakılığına məruz qalmış şəxslər barədə verilmiş qısamüddətli və uzunmüddətli mühafizə orderləri ədliyyə sistemi tərəfindən hasil edilən məlumatların yeganə səmərəli növünü təşkil edir.



Sosial xidmət müəssisələri məişət zorakılığından zərərçəkənlərə sosial dəstəyin göstərilməsi baxımından təkmil proqramları olan ölkələrdə qadınlara qarşı zorakılığa dair inzibati məlumatların mühüm mənbəyi ola bilər. Bu qurumlar informasiya dəstəyi, hüquqi məsləhət, psixoloji yardım, işədüzəltmə və peşə məsləhəti baxımından yardım üçün müraciət etmiş məişət zorakılığından zərərçəkənlər üçün göstərilən xidmətlərdən faydalanan bütün şəxslər barədə müfəssəl məlumatlar toplayırlar. Məişət zorakılığından zərərçəkənlər üçün ictimai sığınacaqlar adətən sosial xidmət müəssisələrinin idarəsi altında olurlar (bəzən QHT-lərlə əməkdaşlıq şəklində). Azərbaycanda sosial xidmət mərkəzləri Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tabedir. Nazirlik əlilliyi olan şəxslər, valideyn himayəsindən məhrum edilmiş uşaqlar, məişət zorakılığından əziyyət çəkən uşaqlar, insan alveri qrupları və xüsusi müdafiə tədbilrəinə ehtiyacı olan digər əhali qruplarına sosial dəstək və müdafiə xidmətləri göstərir. Lakin məişət zorakılığına məruz qalmış yetkin yaşlı zərərçəkənlər hökumət tərəfindən yardıma ehtiyacı olan xüsusi əhali qrupları kimi tanınmadığı üçün ixtisaslaşmış sosial yardım xidmətlərindən istifadə edə bilmirlər. Ölkədə məişət zorakılığından zərərçəkənlər üçün dövlət tərəfindən maliyyələşdirilən heç bir sığınacaq yoxdur. Mövcud qeydiyyat sistemləri vasitəsilə məişət zəminində uşaqlara qarşı törədilən zorakılığa dair müəyyən məlumatlar əldə etmək mümkün olsa da, insan alveri qurbanları bu baxımdan əhalinin daha bir potensial həssas qrupunu təşkil edir. İnsan alveri qurbanlarının məişət zorakılığına məruz qalma riski daha çox olsa da, onların məişət zorakılığı ilə bağlı təcrübəsini qiymətləndirmək hələ də çətindir.

Ümumilikdə, Azərbaycanda müxtəlif qurumlar tərəfindən qadınlara qarşı zorakılığa dair müxtəlif

[33] Azərbaycan Respublikasının Mülk-Prosessual Məcəlləsi (1990), № 780-IQ.

**3** *Qadınlara qarşı zorakılığa dair spesifik məlumatlar* müvafiq xidmət göstərən QHT-lər, sığınacaqlar, yardım mərkəzləri, böhran mərkəzləri və qaynar xətlərdən ibarət ixtisaslaşmış xidmət müəssisələri tərəfindən toplanılır. Bu qurumların əksəriyyəti qeyri-hökumət sektorunu təmsil edir və öz fəaliyyətlərinin nəticələri barədə mərkəzi icra hakimiyyəti orqanlarına hesabat vermirlər. Sözügedən QHT-lər adətən öz daxili məqsədləri üçün müəyyən növ statistika aparır, lakin bu statistika məlumatlar və onların keyfiyyəti baxımından nəzərəçarpan dərəcədə fərqlənir. ƏƏMSN-in məlumatına əsasən, Azərbaycanda məişət zorakılığından zərərçəkənlər üçün 21 qeyri-hökumət yardım mərkəzi akkreditə olunmuş, onların 10-u maliyyə dəstəyi ilə təmin olunmuşdur. Lakin müsahibə aparılan ekspertlər razılaşır ki, bu QHT-lər tam spektrli müdafiə və reabilitasiya xidmətləri göstərmək imkanına malik deyillər[34]. Buna baxmayaraq, bu mərkəzlər tərəfindən toplanan məlumatlar qadınlara qarşı zorakılığın təsiri və vurduğu zərərlərlə bağlı keyfiyyət əsaslı tədqiqat üçün məqsədəuyğun ola bilər.

növ məlumatlar toplanılır. Mövcud məlumat mənbələrinin əksəriyyəti bu tədqiqatda istifadə olunsa da, onların bəzilərinin nəzərəçarpan məhdudiyyətləri var. Məlumatların toplanması və hesabatvermə metodologiyalarının müxtəlifliyinə görə, məlumat mənbələrinin müqayisəli təhlili zamanla baş verən dinamikanı müşahidə etməyə imkan vermir . Bu problem beynəlxalq ekspertlər tərəfindən etiraf edilmiş və məişət zorakılığı və cinsi zorakılıqla bağlı şikayətlər, araşdırmalar, cinayət təqibi və məhkum etmələrlə bağlı əhatəli məlumatların hazırlanması ilə bağlı xeyli tövsiyələr verilmişdir[35]. Zərərçəkənlərin yaş qrupu, üzləşdiyi zorakılıq formaları, zorakılığı törətmiş şəxsin cinsi və zərər çəkmiş şəxslə zorakılığı törətmiş şəxs arasındakı əlaqənin növü üzrə təsnifləndirilmənin aparılmaması mövcud inzibati məlumatlardakı daha bir mühüm boşluğu təşkil edir . Qadınlara qarşı zorakılıqla bağlı daha etibarlı hesablamalar aparmaq və bununla bağlı tendensiyaların müntəzəm təhlilini həyata keçirmək üçün məlumatların toplanması ilə bağlı bu minimum tələblərin yerinə yetirilməsi zəruridir.

Məlumatlarla bağlı çoxsaylı boşluqları nəzərə alaraq, bu tədqiqat həm də keyfiyyət əsaslı yanaşmalara əsaslanmışdır.Azərbaycanda qadınlara qarşı zorakılıq sahəsində görülən cavab tədbirlərinə dair əlavə məlumat toplamaq üçün dövlət orqanları və QHT-ləri təmsil edən ekspertlərlə bir sıra geniş müsahibələr aparılıb. Zorakılığa məruz qalmış qadınlara gündəlik əsaslarda dəstək xidmətləri göstərən polis əməkdaşları, yerli icra hakimiyyəti orqanlarının nümayəndələri, tibb işçiləri və sosial işçilərlə fokus qrupu müzakirələri aparılıb. AQUPDK, Səhiyyə Nazirliyi, ƏƏSMN, Ədliyyə Nazirliyi, yerli hakimlər və QHT fəalları ilə geniş müsahibələr aparılıb. Ekspertlərlə müzakirələrin və müsahibələrin nəticələri zorakılığa məruz qalmış qadınlar üçün mövcud xidmətlərin əhatə dairəsini müəyyən etmək və bu xidmətlərə sərf olunan maliyyə vəsaitini hesablamaq üçün elmi əsaslı yanaşmaların tətbiqi vasitəsilə üçün istifadə edilmişdir.

Zorakılığa məruz qalmış qadınlar arasında aparılmış xüsusi sorğu bu tədqiqatın daha bir komponentini təşkil edib. Ümumilikdə, zorakılığa məruz qalmış 197 qadın sorğuya cəlb olunub. Məişət zorakılığından zərərçəkənlər üçün yardım xidmətləri, o cümlədən sığınacaq təmin edən "Təmiz Dünya" ictimai birliyinin xidmətlərindən istifadə edən qadınlar sorğuya cəlb olunmuşdur. Sözügedən respondentlər ölkənin əksər regionları, şəhər və kənd əraziləri və əhalinin müxtəlif sosial-demoqrafik qruplarını təmsil edib (Əlavə A). Əksər respondentlər (78 faiz) fəal reproduktiv yaş qrupundandır (20-39 yaş), müsahibə keçirilmiş ən gənc qadının 18, ən yaşlı qadının isə 71 yaşı var idi.

[34] Azərbaycanda zorakılığa məruz qalmış qadınlar üçün nə dövlət tərəfindən maliyyələşdirilən yardım mərkəzi, nə də xüsusi qaynar xətt fəaliyyət göstərmir.
[35] CEDAW Komitəsinin 1998, 2007, 2009 və 2015-ci il üzrə Yekun Qeydləri.

Respondentlərin təqribən yarısı Azərbaycanın iri şəhərləri və inzibati mərkəzlərini təmsil edirdi. Onların təxminən üçdə biri kiçik rayon və qəsəbələrdə yaşamış, 17 faizi isə kəndlərdən olmuşdur. Təhlil nəticəsində, zərərçəkənlərin yaşadığı ev təsərrüfatının gəlirləri ilə onların qadına qarşı zorakılığa məruz qalması arasında statistik baxımdan əhəmiyyətli korrelyasiya müəyyən edilməyib: sorğuya cəlb olunan və zorakılığa məruz qalan qadınların təqribən yarısı (44 faiz) orta gəlir səviyyəsinə malik olan ev təsərrüfatında yaşayırdı, qalanları isə demək olar ki, aztəminatlı (30 faiz) və yüksək gəlirli (26 faiz) ev təsərrüfatlarını təmsil edirdi. Əksər qadınların (86 faiz) uşaqları 18 yaşına çatmamışdır.

Əksər hallarda bütün uşaqlar (81 faiz) müsahibə zamanı anaları ilə birgə yaşayırdı. Eyni zamanda, sorğuya cəlb olunan qadınların 5 faizi bildirib ki, onların uşaqlarından heç biri müxtəlif səbəblərə görə onlarla yaşamır.

Tədqiqatın nəticələri qadınlara qarşı zorakılığa məruz qalan və zorakılığın nəticələrini aradan qaldırmağa çalışarkən yardım üçün müraciət etmiş qadınların sosial-demoqrafik vəziyyətində mühüm dəyişikliklərin olduğunu müəyyən edib. Zorakılığın törədildiyi zaman qadınların 72 faizi rəsmi və ya qeyri-rəsmi nikahda olub, hər beşinci qadın subay olub.

Müsahibə zamanı sorğuya cəlb olunan qadınların ailə vəziyyəti baxımından strukturu əhəmiyyətli dərəcədə dəyişib:

Onların 60 faizi boşandığını bildirib, 20 faizi isə hələ də nikahda olduğunu bildirmişdi (Əlavə A). Respondentin əmək vəziyyətində də mühüm dəyişikliklər müşahidə olunub: özünüməşğul işçilərin xüsusi çəkisi 22 faizdən 45 faizə qalxıb, muzdlu işçilərin xüsusi çəkisi isə 14 faizdən 35 faizə qalxıb. Eyni zamanda, işsiz qadınların xüsusi çəkisi demək olar ki, dörd dəfə aşağı düşüb  (42 faizdən 11 faizə) ki, bu da onların zorakılığa görə intim partnyorundan ayrıldıqdan sonra işə və gəlirə olan ehtiyacını əks etdirir.

## Zorakılığa məruz qalan qadınların



44%-i orta gəlir səviyyəsinə malik olan ev təsərrüfatında yaşayır

30%-i aztəminatlı ev təsərrüfatında yaşayır

26%-i yüksək gəlirli ev təsərrüfatında yaşayır




**Zorakılığın törədildiyi zaman qadınların 72%-i rəsmi və ya qeyri-rəsmi nikahda olub, hər beşinci qadın subay olub.**

Sorğu ilə bağlı sahə işləri 2018-ci ilin avqust-sentyabr aylarında aparılıb. Sorğunun metodologiyası beynəlxalq standartlar, etik məsələlər və təhlükəsizlik məsələləri nəzərə alınmaqla hazırlanıb. Sorğu zərərçəkənin zorakılığa məruzqalması ilə bağlı şəxsi təcrübəsi, o cümlədən aldığı xəsarətlərin forması, əmək qabiliyyətini müvəqqəti itirdiyi müddətin uzunluğu, zorakılığın səbəb olduğu əlillik, üzləşdiyi maddi itkilərin orta məbləği və zorakılığın təsirlərini aradan qaldırmaq üçün sərf olunan nağd maliyyə vəsaiti, zorakılıq nəticəsində vurulmuş mənəvi zərərin subyektiv qiymətləndirməsi ilə bağlı məlumatlar sorğu ilə əhatə edilib.

“Təmiz Dünya” İctimai Birliyinin ekspertlərinə məlumatların toplanması və bazaya daxil edilməsi ilə bağlı müvafiq təlim keçirilmişdir. Onların sorğudan əvvəl gender məsələləri ilə bağlı yüksək həssaslıq və gender əsaslı zorakılıq konsepsiyalarını yaxşı səviyyədə mənimsəməsi təmin edilmişdir. Müsahibələrin böyük əksəriyyəti (92 faiz) respondentlərlə üzbəüz təşkil olunmuş, qadınların 8 faizə yaxını isə müsahibədə telefon vasitəsilə iştirak etmişdir.Sorğunun nəticələri zorakılıq nəticəsində qadınların onların sağlamlığına dəyən zərər, onların üzləşdiyi şəxsi maddi və qeyri-maddi itkilərlə bağlı subyektiv qiymətləndirmə və qadınlara qarşı zorakılığın digər nəticələri və aspektlərini qiymətləndirmək üçün istifadə olunub.

# 3

“Azərbaycanda qadınlara qarşı zorakılıq səbəbindən itirilmiş məhsuldarlıq”



Qadınlara qarşı zorakılığa görə itirilmiş ümumi məhsuldarlıq haqqında məlumat hesabatın bu bölməsində təqdim olunub. Bu adətən qadına qarşı zorakılıq nəticəsində baş vermis ölüm hallarına görə bərpaolunmaz əhali itkisinin iqtisadi ekvivalenti, xəsarət almış şəxslərin əmək qabiliyyətini müvəqqəti və daimi itirməsi (əlillik) nəticəsində vurulan iqtisadi ziyan, zorakılıq qurbanlarının xəstəliyə görə məzuniyyətdə olduğu dövrdə ödənilən və əmək qabiliyyətinin itirilməsinə görə ödənilən müavinətlərin maliyyələşdirilməsi ilə bağlı işəgötürənlər və sosial sığorta fondlarının üzərinə düşən əlavə xərclər və post-travmatik stress pozuntusu ilə əlaqədar əmək məhsuldarlığının aşağı düşməsini özündə ehtiva edir. Çoxsaylı beynəlxalq tədqiqatlar vasitəsi ilə zorakılığa məruz qalmış qadınlara fiziki xəsarət və ölüm halları nəticəsində vurulan iqtisadi zərərə dair hesablamalar aparılıb. Bir çox müəlliflər isə psixoloji stress və psixi pozuntuların vurduğu ziyanı da öz qiymətləndirmələrinə daxil etmişdir.

***Qadınlara qarşı zorakılıqla əlaqəli bərpa olunmaz əhali itkisi***. Makroiqtisadi kontekstdə qadınlara qarşı zorakılığın ən ciddi təsirləri bərpaolunmaz əhali itkisi (zərərçəkənlərin ölümü) ilə bağlıdır.

Bu cür erkən ölüm halları təkcə ölkənin demoqrafik göstəriciləri baxımından əhəmiyyət kəsb etmir. Belə ki, əmək qabiliyyətli yaşda olan insanların ölümü həm də əmək haqqı gəlirlərinin azalmasına səbəb olur və milli iqtisadiyyatda bunun nəticəsində itirilmiş ÜDM milyonlarla manat təşkil bilər. Nəticə etibarilə, qadınlara qarşı zorakılıqla əlaqədar itirilmiş ümumi məhsuldarlıq ya itirilmiş milli məhsulun ekvivalenti (ÜDM kimi), ya da itirilmiş milli gəlir (əmək haqqı fondu kimi) baxımından hesablana bilər.

Bu xərclər adətən hər hansı tədqiqatın cari ili üzrə (il ərzində baş verən ölüm hallarının sayı və müvafiq makroiqtisadi göstəricilər əsasında) hesablansa da, zərər çəkmiş iqtisadi fəal şəxslərin ölümü nəticəsində məhsuldarlıq baxımından itirilmiş illər (ölkənin gözlənilən orta ömür uzunluğuna əsasən) nəzərə alınmaqla bütün potensial itkilərin həcmini hesablamağa imkan verən daha mürəkkəb ekonometrik yanaşmalar da mövcuddur.

Hər hansı ekonometrik hesablamalar aparmağa başlamaq üçün *qadınlara qarşı zorakılıqla bağlı ölüm hallarının sayını* müəyyən etmək lazımdır. Gender əsaslı zorakılıq hallarının qeydiyyatı sistemlərinin zəif olduğu regionlarda bu tapşırıq müəyyən çətinliklər yarada bilər, çünki rəsmi cinayət statistikası məişət zorakılığı nəticəsində baş verən ölüm hallarının yalnız bir hissəsini müəyyən etməyə imkan verir, digər əksər hallar isə zorakılıq nəticəsində baş verən ölüm, ehtiyatsızlıqdan adam öldürmə və hətta bədbəxt hadisə kimi geniş kateqoriyalar altında təsnif edilir. Eyni zamanda, əhali statistikasında da (məs., milli statistika orqanlarının topladığı demoqrafik məlumatlar) ölüm halları barədə statistik məlumatları toplayarkən xarici müdaxilə nəticəsində baş vermiş ölüm səbəbləri sistemi (məs., xəsarət, zəhərlənmə, hündürlükdən yıxılma və s.) çərçivəsində məişət zorakılığı halları təsnifləndirilmir. Buna görə də, elmi cəhətdən əsaslandırılmış metodlar və ya ekspert qiymətləndirmələri əsasında hesablamalara müəyyən düzəlişlərin edilməsi zəruridir.

Bu tədqiqatda biz qadınlara qarşı zorakılıqla bağlı həm rəsmi məlumatları, həm də ölüm hallarının rəsmi olaraq bu cür zorakılıqla əlaqələndirilmədiyi potensial halları əhatə etmək üçün iki hesablama ssenarisi tətbiq etdik. Birinci yanaşma DİN-in inzibati statistik məlumatları əsasında “minimum” əhali itkisini müəyyən edir (“standart” ssenari), ikinci metod isə ümumi qadın qətlləri arasında intim partnyor/ailə üzvü tərəfindən törədilən zorakılığın nəticəsində baş vermişölümlərin xüsusi çəkisi ilə bağlı ekspert qiymətləndirməsinə əsaslanır.

Misal üçün, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə Ofisinin (UNDOC) Adam öldürmə Halları üzrə Qlobal Tədqiqatına (2013) əsasən, adam öldürmə hallarının bütün qadın qurbanlarının təxminən yarısı (47 faiz) intim partnyor və ya ailə üzvü tərəfindən öldürülmüşdür.

Müqayisə üçün, adam öldürmə hallarının kişi qurbanları üçün bu göstərici 6 faizdən aşağıdır[36]. Bundan başqa, Avropa və Asiyada adam öldürmə hallarının qadın qurbanlarının ümumi sayında intim partnyor və ailə üzvü (İPAÜ) tərəfindən törədilən qətllərin payı 55 faizə çatır[37].

## ADAM ÖLDÜRMƏ HALLARININ CİNSƏ GÖRƏ MÜQAYİSƏSİ:



**qadın qurbanlarının 47%-i** intim partnyor və ya ailə üzvü tərəfindən öldürülmüşdür.



**kişi qurbanları** üçün bu göstərici **6%-dən** aşağıdır.

Bundan əlavə, qadınların intihar hallarını da qadınlara qarşı zorakılıq nəticəsində baş verən əhali itkisi ilə bağlı məlumatlara daxil edilə bilər, çünki gender əsaslı zorakılıq halları zərərçəkənlərin intihar xarakterli davranışları ilə sıx şəkildə əlaqəli olur [38]. Mövcud hesablamalara görə, intihar cəhdlərinə görə xəstəxanaya yerləşdirilmə hallarının təxminən 11 faizə qədəri birbaşa olaraq intim partnyor zorakılığı nəticəsində baş vermiş psixoloji stress nəticəsində baş vermişdir [39].

*"Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar"* (2018)[40] adlı illik statistik məcmuəyə əsasən, 2017-ci ildə məişət zorakılığı ilə bağlı qəsdən adam öldürmə üzrə zərər çəkmiş şəxs qismində qeydə alınmış 60 nəfərin 39-u qadın idi[41].

Qadınlara qarşı zorakılıq nəticəsində baş verə biləcək ölüm hallarının uyğunlaşdırılmış ssenari ilə hesablanması məqsədilə zorakılıq əməli nəticəsində baş verən qadın ölümü halları, o cümlədən ehtiyatsızlıq və qəsdən sağlamlığa zərər vurma nəticəsində törədilən cinayətlər, həmçinin qadınların intihar hallarının ümumi sayının nəzərə alınması məqsədəuyğundur. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2017-ci ildə baş vermiş cinayət əməlləri nəticəsində 337 qadın həyatını itirmişdir (Əlavə B). Bu hadisələrin 76-sı qəsdən adam öldürmə, 216-sı ehtiyatsızlıq və 1-i qəsdən sağlamlığa ağır zərər vurma ilə bağlı cinayətlər nəticəsində baş verib. Bundan əlavə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məlumatlarına əsasən, 2017-ci il və 2018-ci ilin 1-ci rübü ərzində qadınlar tərəfindən 229 intihar hadisəsi qeydə alınıb.

---

[36] https://www.unodc.org/gsh/.
[37] UNODC (2013). Adamöldürmə hadisələri üzrə Qlobal Araşdırma. Adamöldürmənin çoxsaylı aspektləri: 53; http://www.unodc.org/documents/gsh/pdfs/Chapter_2.pdf.
[38] ÜST (2014). İntiharın qarşısının alınması: Qlobal zərurət, Ümumdünya Səhiyyə Təşkilatı, Lüksemburq: 92.
[39] Zhang T., Hoddenbagh J., McDonald S., Scrim K. (2012). Kanadada Ailə Zorakılığının İqtisadi Təsirlərinin Qiymətləndirilməsi, Kanadanın Ədliyyə Nazirliyi, Ottava.
[40] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (2018). Azərbaycanda Cinayətkarlıq və Hüquqpozmalar. Statistik Məcmuə: 110; http://www.stat.gov.az/.
[41] Həmçinin, məişət zorakılığı ilə əlaqəli adam öldürməyə cəhd hadisələri nəticəsində 25 zərər çəkmiş şəxs qeydə alınmışdır ki, onlardan 18-i qadınlardır.

**Cədvəl 3.1. 2017-ci ildə Azərbaycanda qadınlara qarşı zorakılıq nəticəsində baş vermiş qadın ölümləri (inzibati məlumatlar və uyğunlaşdırılmış rəqəmlər)**

| | **Standart ssenari: Məişət zorakılığı ilə əlaqəli qeydə alınmış qadın ölümləri** | | | **Uyğunlaşdırılmış ssenari: İntim partnyor/ailə üzvü (İPAÜ) tərəfindən törədilən zorakılıq nəticəsində baş vermis qadın ölümləri** | | | |
|---|---|---|---|---|---|---|---|
| | | **onlardan:** | | | **onlardan:** | | |
| | | | **onlardan:** | | | **onlardan:** | |
| | | | | | | | **onlardan:** |
| | Qadın ölümlərinin ümumi sayı | Yetkin yaşlı qadınların sayı | Məşğul qadınlar (59 faiz) | Zorakılıq və intihar həddinə çatdırma ilə bağlı ölümlərin ümumi sayı | İTMA tərəfindən törədilən zorakılıqla bağlı qadın ölümlərinin sayı (zorakılıq nəticəsində baş verən ölümlərin 55 faizi, intihar hallarının 11 faizi) | Yetkin yaşlı qadınların sayı | Məşğul qadınlar (59 faiz) |
| Qəsdən adam öldürmə | 39 | 35 | 21 | 76 | 42 | 38 | 22 |
| Qəsdən sağlamlığa ağır zərər vurma | - | - | - | 1 | 1 | 1 | 1 |
| Ehtiyatsızlıq nəticəsində törədilən cinayət | - | - | - | 216 | 119 | 107 | 63 |
| İntihar həddinə çatdırma | 1 | 1 | 1 | 200* | 22 | 22 | 13 |
| **CƏMİ** | **40** | **36** | **22** | **493** | **184** | **168** | **99** |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatları (2018); BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə Ofisinin intim partnyor/ailə üzvü tərəfindən törədilən zorakılıqla əlaqəli hesablamaları (2013); Zhang və digərlərinin tədqiqatına (2012) əsasən gender əsaslı zorakılıqla əlaqəli özünü öldürmə halları üzrə hesablamalar; Dünya Bankının İnkişaf Göstəriciləri məlumat bazasına əsasən məşğul qadın işçi qüvvəsinin əhaliyə nisbəti.*
** Ailə, Qadın və Uşaq məsələləri üzrə Dövlət Komitəsinin məlumatlarına əsasən hesablama.*

Beləliklə, 2017-ci ildə qadınlar tərəfindən təxminən 200 özünü öldürmə hadisəsinin törədildiyini təxmin etmək olar. Bu rəqəm hüquq-mühafizə orqanlarının məlumatları ilə əhəmiyyətli dərəcədə üst-üstə düşür. Belə ki, həmin məlumatlara əsasən, Azərbaycanda hər il 200-220 qadın intihar edir [42]. Bu rəqəmləri intim partnyor/ailə üzvü tərəfindən törədilən zorakılıq nəticəsində baş verə biləcək ölüm hallarının xüsusi çəkisinə (BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə Ofisinin məlumatlarına əsasən adam öldürmə hadisələrinin 55 faizi, Zhang-ın tədqiqatına əsasən özünü öldürmə hallarının 11 faizi) görə uyğunlaşdırdıqda, **2017-ci ildə qadınlara qarşı zorakılıq nəticəsində baş verən qadın ölümlərinin ümumi sayı 184-ə qədər artır (Cədvəl 3.1).**

[42] https://www.meydan.tv/en/site/news/25063/.

Qadınların erkən ölüm hallarına görə itirilmiş məhsuldarlıq iqtisadi fəal əhali, yəni iqtisadi fəaliyyətlə məşğul olan qadınları nəzərə almaqla ölçülməlidir. Qeydiyyata alınmış zorakılıq qurbanlarını əmək vəziyyətinə əsasən təsnifləndirmək mümkün olmadığı üçün, bərpaolunmaz əhali itkisi ilə bağlı rəqəmlər yalnız yetkinlik yaşına çatmış qadınlar üçün (yəni 18 yaşadək qızlar istisna olmaqla) hesablanmış və daha sonra məşğul qadınların əmək qabiliyyətli yaşda olan əhalinin sayındakı xüsusi çəkisinə görə müvafiq uyğunlaşdırılmalar edilmişdir. Rəsmi məlumatlara əsasən, 18 yaşadək qızlar cinayət əməlləri nəticəsində həyatını itirmiş bütün qadın zərərçəkənlərin təqribən 10 faizini təşkil edir (Əlavə 2), Azərbaycanda məşğul qadınların əmək qabiliyyətli yaşda olan əhalinin arasında xüsusi çəkisi isə 2017-ci ildə 59.3 faiz təşkil edib[43].

Nəticə etibarilə, qadınlara qarşı zorakılıq nəticəsində həyatını itirmiş iqtisadi fəal qadınların ümumi sayının 22 nəfər (“standart” ssenari ilə) və 99 nəfər (uyğunlaşdırılmış ssenari) olduğu təxmin edilə bilər. Şübhəsiz ki, bu qadınlar işçi qüvvəsində iştirak etdiyi və ölkənin iqtisadi sektorunda əmək fəaliyyəti ilə məşğul olduqlarına görə, onların erkən ölümü itirilmiş məhsuldarlıqla (ÜDM-ə münasibətdə) ilə nəticələnmişdir. Dünya Bankının məlumatlarına əsasən, 2017-ci ildə Azərbaycanın ÜDM-i 40.7 milyard ABŞ dolları (cari qiymətlərlə) təşkil etmişdir, ölkədə məşğul əhalinin sayı isə 4822.1 min nəfər olmuşdur. Nəticədə, hər məşğul şəxsə düşən ÜDM 8440 ABŞ dolları (40.7 milyard ABŞ dolları / 4.8 milyon nəfər) təşkil etmişdir.

**Bu rəqəmi potensial olaraq əmək fəaliyyəti ilə məşğul olmuş və qadınlara qarşı zorakılıq nəticəsində həyatını itirmiş şəxslərə tətbiq etdikdə, hesablama ssenarisindən asılı olaraq, ölkənin potensial olaraq 183619 ABŞ dollarından (8440 ABŞ dolları × 22 qadın) 838555 ABŞ dollarına (8440 ABŞ dolları × 99 qadın) qədər maliyyə vəsaiti itkisinin olduğu ehtimal edilə bilər.**

***Qadınlara qarşı zorakılıq qurbanlarının əmək qabiliyyətini müvəqqəti və daimi itirməsi (əlillik).*** Bərpaolunmaz əhali itkisindən əlavə, zorakılıq qurbanlarının xəsarət alması və ya xəstəliyə düçar olması nəticəsində əmək məhsuldarlığının itirilməsi də ölkə iqtisadiyyatına ciddi şəkildə mənfi təsir göstərir. Bu xəsarətlər həm zərərçəkənlərə (itirilmiş iş yeri və/və ya gəlirlər baxımından), həm də onların işəgötürənlərinə (xəstəliyə görə məzuniyyət üçün ödəmələr) və sosial sığorta fondlarına (əlilliyə görə müavinət ödənişləri) maddi zərərin vurulması ilə nəticələnir. Həmçinin, zorakılıq hadisələrinin zərərçəkənlərə olan psixoloji təsiri zaman keçdikcə üzə çıxaraq, onların ödənişsiz ev işləri və uşağa qaygı baxımından məhsuldarlığının azalması ilə nəticələnə bilər.

Qadınlara qarşı zorakılıqla nəticələnən bərpa olunan əhali itkisini ölçmək üçün bu tədqiqat əsas diqqəti itirilmiş əmək məhsuldarlığının aşağıdakı tərkib hissələrinə yönəldir:

- Zərərçəkənlərin əmək qabiliyyətini müvəqqəti itirməsinə (məsələn, xəstəliyə görə məzuniyyət) görə itirilmiş məhsuldarlıq (ÜDM);
- Zorakılıq nəticəsində qadınlarda yaranmış əlillik hallarına görə vurulan zərər ;
- Zorakılıq hadisələrinin səbəb olduğu psixoloji stress nəticəsində qadınların gündəlik ev işləri və uşaqlara qulluq edə bilməməsi nəticəsində vurulan zərər.

[43] Dünya Bankı (2018). Dünya İnkişaf Göstəriciləri: https://data.worldbank.org/products/wdi.

Qeydə alınmış qadınlara qarşı zorakılıq qurbanlarının əmək qabiliyyətini müvəqqəti itirməsinə dair etibarlı məlumatlar olmadığı üçün, bu tədqiqat fiziki xəsarətə görə əmək qabiliyyətinin itirilməsinin normativ müddətini təxmin etmək üçün istinad kimi "*Bədən xəsarətlərinin ağırlıq dərəcəsinin məhkəmə tibbi təyini Qaydaları*"na əsaslanır [44].

Bu yanaşmaya uyğun olaraq, məişət zorakılığı cinayətləri ilə bağlı qeydə alınmış bütün zərərçəkənlər vurulmuş zərərin 3 kateqoriyası üzrə təsnifləndirilə bilər:

1. yüngül xəsarətlər
2. az ağır xəsarətlər
3. ağır xəsarətlər (döymə, işgəncə vermə və zorlama daxil olmaqla)

Xəsarətlərin bu kateqoriyaları sağlamlığın bərpasının dəlillərə əsaslanmış araşdırmaların nəticələrinə uyğun olaraq müəyyən edilir və normativ qaydaya əsasən zərərçəkənin əmək qabiliyyətini itirdiyi müddətin uzunluğu ilə əlaqəlidir (Cədvəl 3.2).

**Cədvəl 3.2. Xəsarətlərin ağırlıq dərəcələri və xəsarət almış şəxslərin normativ qaydalara əsasən əmək qabiliyyətini itirdiyi müddətin uzunluğu**

| Xəsarətin kateqoriyası | Xəsarətin tövsif edildiyi cinayət | Əmək qabiliyyətinin itirildiyi müddət, gün |
|---|---|---|
| Yüngül xəsarət | Məişət zorakılığı nəticəsində qəsdən sağlamlığa yüngül zərər vurma | 5 |
| Az ağır xəsarət | Məişət zorakılığı nəticəsində qəsdən sağlamlığa az ağır zərər vurma | 21 |
| Ağır xəsarət | Qəsdən sağlamlığa ağır zərər vurma; döymə və işgəncə vermə; zorlama | 42* |

*Qaydalarda ağır xəsarətlərdən sağalma müddəti ilə bağlı dəqiq məlumat olmadığı üçün əmək qabiliyyətinin itirildiyi müddətin az ağır zərər vurma üçün nəzərdə tutulmuş müddətdən ən azı iki dəfə çox olması güman edilmişdir (21 × 2 = 42 gün).*

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, məişət zorakılığı nəticəsində 26 qadının sağlamlığına ağır, 63 qadının sağlamlığına az ağır, 792 qadının sağlamlığına isə yüngül zərər vurulmuşdur. Bu rəqəmləri əmək qabiliyyətli yaşda olan əhali arasında məşğul qadınların xüsusi çəkisinə (2017-ci ildə 59.3 faiz) görə uyğunlaşdırdıqda, məişət zorakılığı nəticəsində sağlamlığa zərər vurulmuş məşğul qadınların ümumi sayının təxminən 524 nəfər olduğu (Cədvəl 3.3) guman edilmişdir. Əlavə olaraq, 2017-ci ildə 37 zorlama və zorlamaya cəhd hadisəsi qeydə alınmışdır ki, bunlar da ağır bədən xəsarətləri ilə nəticələnə bilərdi (hesablamalara görə, bu qadınların ən azı 22-si ölkənin iqtisadi sektorunda əmək fəaliyyəti ilə məşğul olub).

[44] Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 8.02.1999-cu il tarixli 9 saylı əmri ilə təsdiq edilmiş "Bədən xəsarətlərinin ağırlıq dərəcəsinin məhkəmə tibbi təyini Qaydaları".

**Cədvəl 3.3. 2017-ci ildə Azərbaycanda məişət zorakılığı cinayətlərindən zərərçəkənlərin sayı, sağlamlığa zərər vurmanın növləri üzrə bölgüyə əsasən**

| Sağlamlığa vurulmuş zərərin ağırlığı | Cəmi | onlardan: | | | |
|---|---|---|---|---|---|
| | | qadın | onlardan: | | |
| | | | 18 yaşına qədər qızlar | Yetkin qadınlar | onlardan: Məşğul qadınlar |
| **Bədən xəsarətləri ilə nəticələnən məişət zorakılığı cinayətləri** | | | | | |
| Qəsdən sağlamlığa ağır zərər vurma | 44 | 26 | | 26 | 15 |
| Qəsdən sağlamlığa az ağır zərər vurma | 102 | 63 | | 63 | 37 |
| Qəsdən sağlamlığa yüngül zərər vurma | 993 | 792 | 2 | 790 | 468 |
| İşgəncə vermə | 4 | 4 | | 4 | 2 |
| **Cəmi** | **1.143** | **885** | **2** | **883** | **524** |
| **Cinsi zorakılıq cinayətləri (zorlama və zorlamaya cəhd)** | **37** | **37** | **ş.e.** | **ş.e.** | **22** |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (2018) Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar/Statistik məcmuə 110; mənbə: http://www.stat.gov.az/.*

Qeydə alınmış bu xəsarətlər zərərçəkənlərin əmək qabiliyyətini itirməsi və xəstəlik məzuniyyətləri baxımından qiymətləndirildiyi təqdirdə, **2017-ci ildə qadınlara qarşı zorakılıq hallarına görə ölkə iqtisadiyyatına dəyən zərər baxımından təxminən 4.8 min iş gününün itirildiyini (Cədvəl 3.4)** güman etmək olar. Bu itkilərin iqtisadi ekvivalentini müəyyən etmək üçün bir iş gününün təxmini dəyərini müəyyən etmək zəruri idi. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına[45] əsasən, 2017-ci ildə 241 iş gününün olduğunu nəzərə alaraq, hər məşğul şəxsə düşən gündəlik ÜDM-in təxminən 35 ABŞ dolları (adambaşına illik ÜDM 8440 ABŞ dolları / 241 iş günü) olduğunu ehtimal etmək mümkündür.

Nəticədə, **2017-ci ildə məişət zorakılığına və cinsi zorakılığa görə qadınların əmək qabiliyyətini müvəqqəti itirməsi nəticəsində itirilmiş ÜDM-n təqribi həcmi 167895 ABŞ dolları təşkil edib.** Zərərçəkənlərin əmək qabiliyyətini müvəqqəti itirməsinə görə itirilmiş məhsuldarlıqlabağlı ətraflı hesablamalar 3.4-cü Cədvəldə təqdim edilmişdir.

Qadınlara qarşı zorakılıq nəticəsində sağlamlığa vurulan zərər nəinki zərərçəkənlərin əmək qabiliyyətini müvəqqəti itirməsi, həmçinin sağlamlığa vurulmuş zərər nəticəsində əmək qabiliyyətinin birdəfəlik itirilməsinə (əlillik) səbəb ola bilər. Fokus qrupu müzakirələri və dərinləşdirilmiş müsahibələr çərçivəsində ekspertlərin qiymətləndirmələrinə əsasən, məişət zorakılığına məruz qalmış bütün qadınların təxminən 10-15 faizi  əlillik qazanıb. Bu tədqiqat çərçivəsində qadınlara qarşı zorakılığın qurbanları arasında aparılmış sorğu nəticəsində oxşar rəqəmlər əldə edilmişdir:

[45] https://azertag.az/ru/xeber/V_2017_godu_pri_pyatidnevnoi_rabochei_nedele_budet_241_rabochii_den-1019870.

**Cədvəl 3.4. 2017-ci ildə Azərbaycanda qadınlara qarşı zorakılıqla üzləşmiş məşğul zərərçəkənlərin əmək qabiliyyətini müvəqqəti itirməsi nəticəsində itirilmiş ÜDM-in təqribi həcmi**

| Göstəricilər | Yüngül xəsarətlər** | Az ağır xəsarətlər | Ağır xəsarətlər |
|---|---|---|---|
| Qadın zorakılığına aid qeydə alınmış cinayət əməlləri, zərər çəkmiş qadınların sayı | məişət zorakılığı ilə bağlı 468 xəsarət | məişət zorakılığı ilə bağlı 37 xəsarət | 39 (məişət zorakılığı ilə bağlı 15 xəsarət, 2 işgəncə vermə, 22 zorlama və zorlamaya cəhd) |
| Əmək qabiliyyətinin itirildiyi orta müddət, günlə | 5 | 21 | 42 |
| "İtirilmiş" iş günlərinin təxmini sayı | 2,340 | 819 | 1,638 |
| Hər məşğul şəxsə düşən gündəlik ÜDM, ABŞ dolları ilə | 35 | 35 | 35 |
| Qadınların əmək qabiliyyətini müvəqqəti itirməsi ilə əlaqədar itirilmiş ÜDM, ABŞ dolları ilə | 81,900 | 28,665 | 57,330 |
| **İtirilmiş ÜDM-in ümumi həcmi, ABŞ dolları ilə** | | | **167,895** |

*Mənbə: Qadınlara qarşı zorakılıqdan zərərçəkmişlərin rəsmi qeydə alınmış sayına əsasən hesablanmışdır.*

sorğuda iştirak etmiş 30 qadın (yəni bütün respondentlərin 15 faizi) zorakılıq nəticəsində sağlamlıqlarına dəyən zərərlə bağlı heç bir rəsmi sənədə malik olmadığına baxmayaraq, məişət zorakılığı nəticəsində əmək qabiliyyətini qismən itirdiyini bildirmişdir[46]. Bu qadınların verdiyi məlumata əsasən, onların əmək qabiliyyətini qismən itirməsi sağlamlığa vurulmuş ağır və az ağır zərərlər və digər sağlamlıq problemləri ilə bağlı olmuşdur. Bu faiz göstəricisini 2017-ci ildə zorakılıq nəticəsində xəsarət almış qadınların rəsmi şəkildə qeydə alınmış sayına tətbiq etdikdə, **əmək qabiliyyətini qismən itirmiş zərərçəkənlərin sayı təqribən 82 nəfər təşkil etmişdir** (544 məşğul qadın × 15 faiz).

Məişət zorakılığı qurbanlarının sağlamlıqlarını qismən itirməsi nəticəsində itirilmiş ümumi məhsuldarlığı hesablamaq üçün sorğu iştirakçılarının öz əmək məhsuldarlıqlarının təxminən 30 faizini itirdiyi ehtimal edilmişdir. Nəticədə, itirilmiş məhsuldarlıq (illik ÜDM-də) hər məşğul qadın üzrə ən azı minimum 2532 ABŞ dolları (8440 ABŞ dollarının 30 faizi) təşkil edir. Beləliklə, **qadınlara qarşı zorakılığa görə əmək qabiliyyətinin qismən itirilməsi 2017-ci ildə 207624 ABŞ dolları həcmində ÜDM itkisinə səbəb ola bilərdi** [2532 ABŞ dolları × 82 qadın].

Bundan əlavə, əmək qabiliyyətinin itirilməsi əlilliyi olan insanların maddi təminatı ilə bağlı dövlət üçün əlavə yük yaradır. Bir nəfərin əlilliyi dövlətin maliyyə resursları baxımından sosial sığorta

[46] Respondentlərin heç biri rəsmi olaraq əlillik statusu almamışdır, buna görə də, qadınlara qarşı zorakılıq qurban-larının əmək qabiliyyətini daimi itirməsinə görə itirilmiş ÜDM-i ölçmək üçün etibarlı məlumatlar mövcud deyil.

fondlarının (bəzən dövlət büdcəsindən ayrılmış subsidiya şəklində) əlilliyə görə əlavə müavinət ödənişlərinə səbəb olur . Hazırda Azərbaycanda zərərçəkənlər arasında qadınlara qarşı zorakılıq nəticəsində yaranan əlillik səviyyəsini müəyyən etmək üçün etibarlı məlumatlar mövcud deyil, lakin bəzi beynəlxalq mənbələrin hesablamalarına görə, qadınlara qarşı zorakılığın ağır xəsarət alan qurbanlarının təxminən 5 faizi əmək qabiliyyətini birdəfəlik itirir[47]. Buna görə də, cari tədqiqatda bu faiz göstəricisi qadınlara qarşı zorakılığın ağır xəsarət alan qurbanlarının sayına tətbiq edilərək, 2017-ci ildə əlilliyə görə orta illik müavinət məbləğinə uyğunlaşdırılıb: rəqəmlər əldə edilmişdir:

*Əlillik nəticəsində vurulan zərər = ağır xəsarət alan zorakılıq qurbanlarının sayı × 5 faiz × əlilliyə görə orta illik müavinət məbləği.*

2017-ci ildə əlilliyə görə orta aylıq müavinətin 175 AZN (təxminən 100 ABŞ dolları) olduğunu nəzərə alaraq[48], **qadınlara qarşı zorakılıqla bağlı qazanılan əlillik hallarının minimum 2340 ABŞ dolları həcmində xərclər (müavinətlərə görə) yaradırdığını ehtimal etmək olar** (ağır xəsarət alan 39 qadın × 5 faiz × 100 ABŞ dolları × 12 ay).

Artıq qeyd olunduğu kimi, zorakılıqla üzləşmiş qadınlar gəlirlərini itirməkdən əlavə, post-travmatik stress pozuntusuna görə ev işləri və uşağa qulluğu tam şəkildə həyata keçirə bilmir. Bu *ödənişsiz işlərdə yaranan itkilər* də qadınlara qarşı zorakılığın vurduğu iqtisadi zərərlərin ümumi həcminə daxil edilə bilər. Kitarişvili hesab edir ki[49], Azərbaycanda qadınlar ödənişsiz ev işlərinə gün ərzində orta hesabla 6.1 saat, uşağa qulluğa isə 0.7 saat vaxt sərf edirlər. Zorakılıqla üzləşdikdə onlar əksər hallarda bir müddət ev işlərini yerinə yetirə bilmir, buna görə onların bu öhdəlikləri yaxın qohumlara, digər ailə üzvlərinə, bəzən isə böyük övladlarına ötürülür. Ödənişsiz işlərin müvafiq maliyyə dəyəri məişət işləri sektorunda orta əmək haqqına (minimum əmək haqqı) əsasən hesablana bilər. 2017-ci ildə Azərbaycanda minimum aylıq əmək haqqı 68 ABŞ dolları təşkil etmişdir (bir günə 3.4 ABŞ dolları).

Bu tədqiqat çərçivəsində qadınlara qarşı zorakılığın qurbanları arasında aparılmış sorğuya əsasən, **zərərçəkənlərin 76 faizi zorakılıq nəticəsində öz gündəlik ev işlərini görə bilmədiyinə dair məlumat verib**. Əmək məhsuldarlığının aşağı düşdüyü orta müddət təxminən 20 gün olub. Məhsuldarlığı azalmış zərərçəkənlərin təqribi sayını müəyyən etmək üçün bu əmsal məişət zorakılığına və cinsi zorakılığa (adam öldürmə və intihar halları istisna olmaqla) məruz qalmış qadınların rəsmi qeydə alınmış sayına tətbiq edilmişdir. 2017-ci ildə məişət zorakılığına görə 924 qadın, zorlama və zorlamaya cəhdə görə 37 qadın rəsmi olaraq zərər çəkmiş şəxs kimi qeydə alınmışdır (Əlavə B). Beləliklə, 2017-ci ildə məhsuldarlığı azalan zərərçəkənlərin sayı 730 nəfər [76 faiz × (məişət zorakılığı ilə üzləşmiş 924 qadın + zorlama və zorlamaya cəhdlə üzləşmiş 37 qadın)] ola bilərdi. Nəticədə, **ev işlərinə münasibətdə qadınlara qarşı zorakılıq hadisələrinə görə itirilmiş məhsul/xidmət buraxılışı 2017-ci ildə 49640 ABŞ dolları [730 qadın × 20 gün × 3.4 ABŞ dolları] təşkil etmişdir.**

**Qadına qarşı zorakılıq nəticəsində itirilmiş ümumi məhsul/xidmət buraxılışının** bütün tərkib hissələrini topladıqda, **2017-ci ildə dəymiş ümumi zərər müxtəlif ssenarilər üzrə 611 118 ABŞ dolları ilə 1 266 054 ABŞ dolları arasında dəyişir** (Cədvəl 3.5). Bu rəqəmlər nisbətən kiçik görünsə də qeyd olunmalıdır ki, bu hesablamalar Azərbaycanda rəsmi qeydə alınmış zərərçəkənlərin sayına və rəsmi minimum əmək haqqı və qadınların orta əmək haqqı əsasında aparılmış hesablamalara əsaslanır.

[47] UNFPA & UCSR (2017). Ukraynada Qadınlara qarşı Zorakılığın Dəyəri, Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu, Ukrayna Sosial İslahatlar Mərkəzi, Kiyev.
[48] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (2018). Azərbaycanda Səhiyyə, Sosial Təminat və Mənzil Şəraiti. Statistik Məcmuə: 270.
[49] Khitarishvili T. Cənubi Qafqaz və Qərbi MDB-də gender və məşğulluq problemləri, BMT-nin İnkişaf Proqramı: 37.

Kölgə iqtisadiyyatının böyük həcmini nəzərə alaraq, zərərçəkənlərin xəstəlik və aldıqları xəsarət nəticəsində itirilmiş ümumi məhsuldarlığın real dəyəri yuxarıda qeyd edilmiş rəqəmdən daha böyük ola bilər.

**Cədvəl 3.5. Xəsarətlərin ağırlıq dərəcələri və xəsarət almış şəxslərin normativ qaydalara əsasən əmək qabiliyyətini itirdiyi müddətin uzunluğu**

| İqtisadi zərərin növləri | Zərərçəkənlərin sayı, nəfər | İqtisadi ekvivalent, ABŞ dolları ilə |
|---|---|---|
| **Bərpaolunmaz əhali itkisi (ÜDM-ə münasibətdə)**, o cümlədən: | 22 (min.) – 99 (maks.) | **183,619 (min.) - 838,555 (maks.)** |
| Qadınlara qarşı zorakılıq nəticəsində məşğul qadınların ölümü | | |
| **Bərpaolunmaz əhali itkisi (ÜDM-ə münasibətdə)**, o cümlədən: | | |
| **Bərpa olunan əhali itkisi,** o cümlədən: | | **427,299** |
| Əmək qabiliyyətinin müvəqqəti itirilməsi (ÜDM-ə münasibətdə) | 544 | 167,895 |
| Əmək qabiliyyətinin daimi itirilməsi (müavinətlərə münasibətdə) | 2 | 2,340 |
| Əmək qabiliyyətinin qismən itirilməsi (ÜDM-ə münasibətdə) | 82 | 207,624 |
| Məhsuldarlığın azalması (ödənişsiz ev işləri baxımından) | 730 | 49,640 |
| **Cəmi - itirilmiş ümumi məhsuldarlıq** | | **611,118 (min.)-1,266,054 (maks.)** |

Həmçinin, artıq qeyd edildiyi kimi, ölkədə qadınlara qarşı zorakılıq hallarının qeydə alınması (şikayət edilməməsi) sahəsində ciddi boşluqlar mövcuddur. Bunu nəzərə alaraq, qadınlara qarşı zorakılıq nəticəsində xəsarət almış və əmək qabiliyyətini itirmiş zərərçəkənlərin real sayı daha artıq ola bilər. Bunu nəzərə alaraq, daha müfəssəl göstəricilər əldə etmək üçün, qeydə alınmış rəsmi rəqəmlər əhali arasında aparılmış sorğulara əsasən müəyyən edilmiş latentlik dərəcəsinə görə uyğunlaşdırıla bilər. Bu yanaşmaya əsasən edilmiş hesablamaların ölkə miqyasında simulyasiyasının nəticələri cari hesabatın növbəti bölmələrində təqdim edilir.

# 4

## “Qadınlara qarşı zorakılıqla mübarizə məqsədilə göstərilən xidmətlərin maliyyə dəyəri”



Azərbaycanın qadınlara qarşı zorakılıqla mübarizə sistemi qabaqlayıcı tədbirlər icra edən, cinayət təqibini həyata keçirən və zərərçəkənlərə dəstək göstərən bir sıra dövlət və qeyri-hökumət qurumlarından ibarətdir. Qadınlara qarşı zorakılıqla mübarizə sahəsində tədbirlər görən **dövlət qurumlarının siyahısı aşağıda təqdim olunub:**



*Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK)* ailə, qadın və uşaq problemləri üzrə dövlət siyasətini və onun tənzimlənməsini həyata keçirən, bütün müvafiq qurumlarla mqvafiq əlaqələndirməni təmin edən, maarifləndirmə işlərinin təşkili və icra edilməsi və digər aidiyyəti məsələlərə görə məsul olan mərkəzi icra hakimiyyəti orqanıdır;

*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi* əhalinin sosial müdafiəsi və əhalinin həssas qrupları, o cümlədən insan alverinin və məişət zorakılığının qurbanlarına yardımın göstərilməsi sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır;





*Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi* ictimai təhlükəsizlik, gender əsaslı zorakılıq və qadınlara qarşı zorakılıqla bağlı əməllər də daxil olmaqla, cinayət əməllərinin qarşısının alınması və müəyyən edilməsinə məsul olan mərkəzi icra hakimiyyəti orqanıdır;

*Polis - məişət zorakılığının qarşısının alınması da daxil olmaqla* hüquq-mühafizə sisteminin tərkib hissəsi olmaqla, sahə inspektorlarının və yetkinlik yaşına çatmayanların işləri üzrə polis inspektorlarının xidmətlərini özündə ehtiva edir; gender əsaslı zorakılıq və məişət zorakılığı ilə bağlı cinayətlərin ağırlıq dərəcəsindən asılı olaraq, qabaqlayıcı və cavab xidmətlərində beş müxtəlif struktur vahidi iştirak edə bilər;

*Baş Prokurorluq* ədliyyə sisteminin tərkib hissəsi kimi, cinayət işləri və istintaq aparır, əməliyyat-axtarış fəaliyyətini həyata keçirir, digər hüquq-mühafizə orqanları tərəfindən qanunların icrası və tətbiqinə nəzarət edir, məhkəmələrdə dövlət ittihamını müdafiə edir, iddialar qaldırır, məhkəmə qərarlarına etiraz bildirmək səlahiyyətinə malikdir;





Cinayətləri və inzibati hüquqpozmaları, o cümlədən məişət zorakılığı və gender əsaslı zorakılıq üzrə hüquqpozuntularını araşdıran *yerli birinci instansiya məhkəmələri* və qanunun aliliyi sahəsində dövlət siyasətini hazırlayan və həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi, *Azərbaycan Respublikası Ədliyyə Nazirliyi* məhkəmə qərarlarının icrasını təmin edir və cinayət cəzalarının icra edilməsinə nəzarət edir;

*Yerli icra hakimiyyəti orqanları* yerli səviyyədə müxtəlif qurumlar arasında gender əsaslı zorakılıq sahəsində qabaqlayıcı və cavab tədbirlərinin əlaqələndirilməsinə kömək edir; 2015-ci ildən etibarən rayonların hər birində yerli icra hakimiyyəti orqanlarında *gender əsaslı zorakılıq və uşaqlara qarşı zorakılıq üzrə xüsusi monitorinq qrupları yaradılıb;*





AQUPDK-nın tabeliyində fəaliyyət göstərən *Uşaq və Ailələrə Dəstək Mərkəzləri* məişət zorakılığı ilə bağlı əsas problemlərin monitorinq və təhlilini aparır, qabaqlayıcı və cavab tədbirləri üzrə layihələr icra edir və regionlarda maarifləndirmə tədbirləri təşkil edir. Mərkəzlərin sosial işçiləri mütəmadi olaraq çətin həyat şəraitində olan ailələr, o cümlədən məişət zorakılığından zərərçəkənlərlə sosial və psixoloji iş aparır.

*Qəyyumluq və himayəçilik orqanları* məişət zorakılığının qarşısının alınması və məişət zorakılığından zərər çəkən yeniyetmələrin və fəaliyyət qabiliyyəti olmayan ailə üzvlərinin maraqlarının müdafiəsi sahəsində fəaliyyət göstərir.





*Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində fəaliyyət göstərən səhiyyə müəssisələri* gender əsaslı zorakılıq və məişət zorakılığı qurbanlarına ambulator və stasionar tibbi yardım göstərir, o cümlədən cinsi zorakılıq hallarına məruz qaldıqdan sonrakı profilaktika tədbirlərini həyata keçirir, məişət zorakılığı ilə bağlı fiziki xəsarətlər olduqda təcili tibbi yardım göstərir, gender əsaslı zorakılıqla bağlı psixi pozuntuları olan zərərçəkənlərə psixoloji dəstək göstərir;

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən orta məktəblər və digər təhsil müəssisələri* uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət, uşaqlar və onların valideynləri ilə məişət zorakılığının qarşısının alınması ilə bağlı işin aparılması, məişət zorakılığının qarşısının alınması üçün maarifləndirmə işlərinin həyata keçirilməsinə məsuldur.



Bundan əlavə, ölkədə fəaliyyət göstərən *qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlar* da qadınlara qarşı zorakılığın qurbanlarına dəstək məqsədi ilə mühüm profilaktika və cavab xidmətləri göstərir.

Tədqiqat çərçivəsində mühasibə aparılan ekspertlərə əsasən, Azərbaycanda məişət zorakılığı qurbanlarına yardım göstərmək üçün akkreditə edilmiş 21 QHT fəaliyyət göstərir. Onlardan 10-na dövlət tərəfindən maliyyə dəstəyi göstərilir. Bununla belə, ekspertlərin verdiyi məlumata əsasən maliyyə vəsaitinin çatışmazlığı və dayanıqlı maliiyyələşdirmə proqramlarının olmadığına görə yalnız məhdud sayda QHT-lər faktiki olaraq fəaliyyət göstərə bilir.

Tədqiqatın aparıldığı zaman kəsiyində zorakılıqdan zərər çəkən şəxslər üçün büdcədən maliyyələşən böhran mərkəzləri və ya zərər çəkənlər üçün xüsusi qaynar xətt mövcud deyildi [50].

*Beynəlxalq təşkilatlara gəldikdə*, gender əsaslı zorakılıq və məişət zorakılığı ilə bağlı məsələlər BMT-nin Əhali Fondu, UNİCEF, BMTİP və digər agentliklərin mandatı ilə bu və ya digər dərəcədə əhatə olunur. Avropa Şurası, Aİ-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi və digərləri tərəfindən gender əsaslı zorakılığın qarşısının alınması və cavab tədbirlərinin görülməsi sahəsində bəzi məqsədyönlü layihələr maliyyələşdirilib.

[50] Yerli ekspertlərlə aparılmış müsahibələrə əsasən, məişət zorakılığı, cinsi zorakılıq və insan alveri qurbanları üçün 2011-2013-cü illərdə qaynar xətt mövcud olsa da, sonradan maliyyə çatışmazlığı ilə əlaqədar olaraq, fəaliyyətini dayandırıb.

Nəticə etibarilə, müxtəlif xidmət müəssisələri tərəfindən zorakılıqla mübarizə istiqamətində görülən ünvanlı tədbirlər və zorakılığa məruz qalmış qadınlara göstərilən dəstəyin ümumi maliyyə tutumusəhiyyə, hüquq-mühafizə və ədliyyə sisteminin, zorakılığı törətmiş şəxslər üçün penitensiar müəssisələrin, sosial xidmət müəssisələrinin və zorakılıq qurbanları üçün ixtisaslaşmış yardım göstərən müəssisələrin sərf etdikləri resurslar əsasında təxmini şəkildə hesablana bilər. Sözügedən xidmətləri göstərən qurumları müxtəlif mənbələr, o cümlədən ictimai və dövlət qurumları vasitəsilə təmin edilən büdcə vəsaitləri, qeyri-hökumət sektorunun (vətəndaş cəmiyyəti təşkilatları, inkişaf agentlikləri və xeyriyyə fondları tərəfindən icra olunan qrant proqramları) resursları və ev təsərrüfatları və fərdlərin şəxsi vəsaitləri hesabına maliyyələşdirilir. Müxtəlif xidmət kateqoriyaları üçün müxtəlif maliyyələşdirmə mexanizmləri tətbiq olunduğundan, müvafiq xərclərin hesablanması üçün fərqli yanaşmalar tələb olunur.

Bu bölmədə aşağıdakı sektorlar üzrə qadınlara qarşı zorakılıqla mübarizə ilə bağlı xidmətlərin dəyərinin hesablanması məqsədilə bəzi yanaşmalar təqdim edilib:

- Səhiyyə sektoru;
- Hüquq-mühafizə və ədliyyə sistemi;
- Penitensiar sistem;
- Sosial xidmətlər;
- Qadınlara qarşı zorakılığın qarşısının alınması və cavab tədbirləri sahəsində ixtisaslaşmış xidmətlər, o cümlədən qeyri-hökumət sektoru tərəfindən təqdim olunan aidiyyəti xidmətlər;
- Ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatların ünvanlı yardım proqramları.

## 4.1. Səhiyyə sektoru

Qadınlara qarşı zorakılığın ictimai sağlamlıq baxımından fərdlər, ailələr, icmalar və ümumilikdə cəmiyyətə n çoxsaylı təsirləri var. Fiziki xəsarətlər və xroniki sağlamlıq pozuntuları, əlillik, cinsi və reproduktiv sağlamlıqla bağlı fəsadlar (arzuolunmaz hamiləliklər, təhlükəli abort və cinsi yolla ötürülən infeksiyalar, o cümlədən İİV) əhalinin sağlamlığı baxımından, qadınlara qarşı zorakılığın ən mühüm mənfi təsirləri sırasındadır. ÜST-nin verdiyi tərifə əsasən, *"sağlamlıq təkcə xəstəlik və ya halsızlığın olmaması deyil, tam fiziki, psixi və sosial rifahın olduğu vəziyyətə dəlalət edir"* [51]. Məhz buna görə də, fiziki və cinsi zorakılığın uzunmüddətli perspektivdə qadınların həyat keyfiyyətinə mənfi təsir edən bir sıra fəsadları var (post-travmatik stress pozuntusu, narahatlıq, depressiya, fobiyalar). Bundan əlavə, özünəhörmət hissinin aşağı düşməsi və ədalətsiz rəftara məruz qalma gələcəkdə spirtli içki və narkotik maddələrə aludəçilik, qəsdən özünə zərər yetirmə və cinsi baxımdan riskli davranışlarla nəticələnə bilər [52].

Zorakılığın bütün mənfi təsirlərini müəyyən etmək üçün ÜST qadınlara qarşı zorakılıq, o cümlədən intim partnyor zorakılığı ilə bağlı **sağlamlığa vurulan potensial zərərin 3 əsas kateqoriya**sını təklif etmişdir:

1. Fiziki xəsarətlər (travmalar) və əlillik;
2. Psixoloji travma və stress pozuntuları;
3. Qorxu və davranışa nəzarətin nəticələri[53].

[51] ÜST. Ümumdünya Səhiyyə Təşkilatının Nizamnaməsi. 19-22 iyun 1946-cı ildə Nyu-York şəhərində keçirilən Beynəlxalq Sağlamlıq Konfransında qəbul edilib; 61 dövlətin nümayəndəsi tərəfindən 22 iyul 1946-cı ildə (ÜST-nin Rəsmi Qeydləri, №2, s.100) imzalanıb və 7 aprel 1948-ci ildə qüvvəyə minib.
[52] Bott S., Morrison A. və Ellsberg M. (2005). "Orta və aşağı gəlirli ölkələrdə gender əsaslı zorakılığın qarşısının alınması və cavab tədbirlərinin görülməsi: Qlobal icmal və təhlil", Dünya Bankının Siyasətlərin Tədqiqi üzrə İşçi Sənədi 3618, İyun 2005-ci il.
[53] ÜST (2013). Qadınlara qarşı zorakılığın təxmini qlobal və regional göstəriciləri: intim partnyor və digər şəxslər tərəfindən törədilən cinsi zorakılığın yayılma dərəcəsi və sağlamlığa təsirləri, Cenevrə, Ümumdünya Səhiyyə Təşkilatı. Mənbə: http://apps.who.int/iris/bitstream/10665/85239/1/9789241564625_eng.pdf.

Səhiyyə Nazirliyinin məlumatına əsasən, məişət zorakılığından zərərçəkənlər Nazirliyin tabeliyində fəaliyyət göstərən və dövlət büdcəsindən maliyyələşən bütün səhiyyə müəssisələrində pulsuz tibbi müalicə ala bilərlər. Onlar Respublika Kliniki Xəstəxanasında, Ağciyər Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda, qadın məsləhətxanalarında, rayon poliklinikalarında, Respublika QİÇS-lə Mübarizə Mərkəzində, uşaq xəstəxanalarında və digər tibb müəssisələrində ambulator və stasionar şəkildə müalicə ala bilərlər. Bununla yanaşı, Psixi Sağlamlıq Mərkəzində psixoloji yardıma ehtiyacı olan əhaliyə xidmət göstərən "İnam" etimad xətti fəaliyyət göstərir. Belə ki, 2017-ci ildə məişət zorakılığından zərərçəkənlər da daxil olmaqla, böhran vəziyyətlərində olan şəxslər tərəfindən yardım üçün *228 müraciət* daxil olmuşdur. Səhiyyə Nazirliyinə əsasən, bu müraciətlərin *12-i rəsmi şəkildə şəxsi məlumatını paylaşmış* şəxslər tərəfindən olmuş, qalanları isə konfidensial xarakterli olmuşdur. Zərərçəkənlər bütün hallarda fiziki sağlamlıq müayinəsindən keçirilmiş və onların psixoloji vəziyyəti qiymətləndirilmişdir; zərurət olduqda müvafiq müalicə də təyin olunur.

Fiziki xəsarətlərin maliyyə sərfiyyatı baxımından dəyərini müəyyən etmək və hesablamaq mümkün olsa da (məsələn, zərərçəkənin xəstəliklə bağlı məzuniyyəti, əlillik və yaxud da cinsi zorakılıq nəticəsində baş vermiş arzuolunmaz hamiləlik), sağlamlığa dəyən zərərin digər növlərini, xüsusilə də zorakılığın özünü sonradan biruzə verən təsirini, statistik cəhətdən ölçmək mümkün deyil. Başqa sözlə, zərərçəkənlər üçün sadəcə təcili tibbi yardım deyil, həm də uzunmüddətli psixoloji yardım tələb oluna bilər. Zorakılığın psixi sağlamlıq baxımından olan fəsadları cəmiyyətin üzərinə düşən iqtisadi yük baxımından ən çox maliyyə vəsaiti tələb edən nəticələr sırasında olsa da, dəlillərə əsaslanan məlumatların yoxluğuna görə müvafiq hesablamaların keçirilməsi mümkün deyil.

Tibb xidmətlərinə sərf olunan vəsait baxımından etibarlı rəqəmləri yalnız mütəmadi olaraq inzibati məlumatlarda qeydə alınan səhiyyə xərcləri əsasında etmək mümkündür (məsələn, müxtəlif ağırlıq dərəcəsinə malik fiziki xəsarətlər və ya qeydə alınmış zorlama halları). Bununla belə, iki əsas məhdudiyyət qadınlara qarşı zorakılığın sağlamlığa təsirinin iqtisadi yükünün dəyərləndirilməsi prosesini çətinləşdirir:

**1.** Əhali arasında qadınlara qarşı zorakılıq nəticəsində sağlamlığa vurulan zərərin miqyasını müəyyən etmək üçün tibbi statistikanın aparılmaması;

**2.** Maliyyə vəsaiti məişət zorakılığı və cinsi zorakılıq qurbanlarına xidmətlərin göstərilməsi məqsədilə səhiyyə sektoruna ayrılan maliyyə vəsaitinin xüsusi çəkisini müəyyən etmək üçün heç bir məlumatın mövcud olmaması.

Tibbi yardımın göstərilməsi tibb işçilərinin əsas vəzifəsini təşçil etdiyi üçün, xidmət göstərilən zərərçəkənlərlə bağlı məlumatların toplandığı hazırkı tibbi statistika sistemi xəsarət səbəblərinin icbari şəkildə sənədləşdirilməsini nəzərdə tutmur. Onlar cinayət xarakterli olduğu ehtimal edilən hərəkətlər nəticəsində baş vermiş xəsarətlər (məsələn, odlu silah yarası, bıçaq xəsarəti və s.) barədə polis şöbələrini məlumatlandırmalı olsa da, bu məlumatlar xəstəliklərin və ölüm hallarının beynəlxalq təsnifatına əsaslanan tibbi statistika sistemində öz əksini tapmır. Buna görə də, hazırda tibb müəssisələri tərəfindən qeydə alınan xəsarətlərin səbəblərini "məişət zorakılığı" və ya "cinsi zorakılıq" kimi kateqoriyalara ayırmaq mümkün deyil.

Bunu nəzərə alaraq, məişət zorakılığı və cinsi zorakılığa aid edilən cinayət əməlləri nəticəsində xəsarət alan zərərçəkənlərin qeydə alınan sayından istifadə etmək səhiyyə xidmətlərinə tələbatın qiymətləndirilməsi üçün yeganə məlumat mənbəyini təşkil edir. Bu informasiya hüquq-mühafizə orqanları tərəfindən toplanılır və cinayət statistikasında məcmu şəkildə əks edilir(Cədvəl 4.1). Şübhəsiz ki, qeydiyyata düşmüş hər bir məişət və/yaxud cinsi zorakılıq qurbanları üçün müəyyən tibbi xidmətlər, diaqnostika və müalicə tələb olunub.

**Cədvəl 4.1. Məişət zorakılığı cinayətləri və seksual xarakterli cinayətlərdən zərər çəkmiş qadınların sayı, 2017-ci il**

| | Zərər çəkmiş qadınlar |
|---|---|
| **Məişət zorakılığı** | |
| Fiziki sağlamlığa təsirlər, o cümlədən: | |
| sağlamlığa qəsdən ağır zərər vurma | 26 |
| sağlamlığa qəsdən az ağır zərər vurma | 63 |
| sağlamlığa qəsdən yüngül zərər vurma | 792 |
| əzab vermə | 4 |
| Psixi sağlamlığa təsirlər, o cümlədən: | |
| öldürmək və ya sağlamlığa ağır zərər vurmaqla hədələmək | 2 |
| digər | 19 |
| **Cinsi zorakılıq** | |
| fiziki sağlamlığa təsirlər - zorlamalar və zorlamaya cəhdlər | 37 |
| psixi sağlamlığa təsirlər – seksual xarakterli zorakılıq | 255 |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (2018) Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar Statistik məcmuə: 110; mənbə: http://www.stat.gov.az/.*

Zorakılığa məruz qalmış qadınlara göstərilən tibbi xidmətlərlə bağlı xərcləri hesablamaq üçün istənilən yanaşmanı müəyyən edərkən nəzərə almaq lazımdır ki, ictimai əsaslarda fəaliyyət göstərən ambulator və stasionar tibb müəssisələri dövlət tərəfindən idarə edilir və müvafiq maddəyə əsasən büdcə vəsaitləri hesabına maliyyələşdirilir.

Ümumi maliyyə resursları arasında ən böyük xüsusi çəkiyə malik olan xərclər işçilərin əməyinin ödənilməsi və klinikaların saxlanmasına ayrılan vəsaitdən ibarətdir. Nəticə etibarilə xəstələrin spesifik qrupları, o cümlədən zorakılığa məruz qalmış qadınların istifadə etdiyi xidmətlərin dəyərini təsnifləndirmək mümkün deyil. Bundan əlavə, müxtəlif səviyyəli tibb müəssisələri (məs. ümumi və ixtisaslaşmış tibbi müəssisələr) həmçinin idarələr-arası tabeçilik baxımından təkrarçılığa yol verilə bilər.

Bu səbəbdən, təklif olunan yanaşmalar özəl tibb müəssisələrində təqdim olunan tibb xidmətlərinin təqribi dəyərinə əsaslanır. Sözügedən yanaşma Bakıdakı səhiyyə mütəxəssisləri ilə müzakirə edilmiş və əldə edilmiş məlumat onların verdiyi məlumat əsasında təsdiqlınmişdir. Həqiqətən də, özəl tibbi xidmət sektorunda qiymətqoyma prinsipləri rasionallıq və rəqabətliliyə əsaslanır. Tibb müəssisələri dövlət tərəfindən maliyyələşdirildikdə isə, aidiyyəti maliyyə resursları xidmətlərin göstərilməsi ilə yanaşı tibbi yardımla birbaşa əlaqəli olmayan bəzi xərclərdən (məsələn, tibbi heyətin hazırlığı, elmi tədbirlər və s.) də ibarət ola bilər.

Tibb xidmətlərinə sərf olunan maliyyə vəsaiti barədə məlumat toplamaq üçün Bakıdakı özəl klinikaların qiymət siyahıları və Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının dərman vasitələrinin qiyməti ilə bağlı rəqəmləri özündə ehtiva edən açıq məlumat mənbələrindən (istifadə edilib)[54].

[54] http://tariff.gov.az/documents/DVA.pdf.

Tibb xidmətlərinin zorakılıqla mübarizəyə sərf edilən təqribi dəyəri "vahidin qiyməti" yanaşmasına əsaslanır. Bu yanaşmada hər bir "standart" sağlamlığa zərər vurma hadisəsi üçün diaqnostik müayinələr, tibbi prosedurlar və müalicə strategiyalarının minimum dəsti əsas götürülür. Əslində, zərər çəkmiş qadınlar heç də hər zaman təklif olunan bütün prosedurlardan istifadə etmir və ya müəyyən əlavə dəstəyə ehtiyac duymur. Lakin müvafiq alqoritmlər hazırlanarkən, xəstələrə tibbi xidmətin "adekvat səviyyədə" və müvafiq kliniki protokollara uyğun olaraq göstərildiyi ehtimal edilmişdir. Cinsi zorakılıq (zorlama) və məişət zorakılığı ilə bağlı müxtəlif xəsarətlər olduqda, məruz qalmadan sonrakı profilaktik prosedurlar və müalicələrin təqribi dəyəri bu bölmənin aşağıdakı hissələrində təqdim olunub.

**Cədvəl 4.2. Zorlamaya məruz qaldıqdan sonrakı icbari profilaktik xidmətlər, prosedurlar və dərman vasitələrinin təxmini dəyəri**

| Məruzqalmadan sonrakı profilaktika və müayinələr | Prosedurların və dərman vasitələrinin minimum dəyəri | | | Ümumi dəyər, daha travmatik hadisələr, ABŞ dolları ilə |
|---|---|---|---|---|
| | Vahidin qiyməti, ABŞ dolları ekvivalenti ilə | Vahid sayı | Ümumi dəyər, ABŞ dolları ilə | |
| Ginekoloqla konsultasiya | 12 | 1 | 12 | |
| Çanaq orqanlarının ultrasəs müayinəsi | 12 | 1 | 12 | |
| İİV-ə görə ekspress-test | 6 | 2 | 12 | |
| Cinsi yolla ötürülən infeksiyalar (hepatit, sifilis və s.) üçün müayinə | 12 | 1 | 12 | |
| Təcili kontrasepsiya (*'Ginepriston'* / *'Postinor'*) | 6 | 1 pkt. | 6 | |
| Cinsi yolla ötürülən infeksiyaların profilaktikasl ("Sumamed 500" və ya Azitromisin+Metronidazolun başqa bir analoqu) | 6 + 2 | 1 pkt.+ 1 pkt | 8 | |
| İİV-in ikikomponentli müalicəsi ("Kiveksa" və ya başqa bir analoqu, Abakavir+Lamivudin) | 511 | 1 pkt. (aylıq) | 511 | |
| Psixoloqla /psixoterapevtlə konsultasiya | 12 | 1 | 12 | |
| **Ümumi dəyər, ABŞ dolları ilə** | | | **584** | **584** |
| Təcili tibbi yardım çağırışı<br>Stasionar cərrahi müalicə (xəstəxanada 2 gün)<br>Uzunmüddətli psixoloji reabilitasiya kursu (psixoloqla 5 konsultasiya) | | | | 58<br>320<br>60 |
| **Ümumi xərclər, daha travmatik hadisələr, ABŞ dolları ilə** | | | | **1022** |

*Qeyd: Qiymətlər 2017-ci il üçün verilib; müvafiq valyuta məzənnəsi 1 ABŞ dolları = AZN1.721 təşkil edib.*

### Cinsi zorakılıq (zorlama).

ÜST-yə əsasən (2003), cinsi zorakılıq qurbanlarına göstərilən kompleks yardım tədbirləri aşağıdakılardan ibarət olmalıdır: psixoloji yardım, təxirəsalınmaz kontrasepsiya, cinsi yolla ötürülən xəstəliklərin müalicəsi və profilaktikası, təhlükəsiz abort barədə maarifləndirmə və s [55]. Sözügedən tədbirlər siyahısına ginekoloqla ən azı bir konsultasiya, çanaq orqanlarının ultrasəs müayinəsi, İİV, hepatit və cinsi yolla ötürülən infeksiyalara görə icbari testlər daxil olmalıdır. Ciddi travmalara səbəb olan bəzi cinsi zorakılıq hallarında təcili yardım, həmçinin, zədələrin ilkin cərrahi müalicəsi və stasionar müalicə tələb oluna bilər. Cədvəl 4.2-də zorakılığa məruz qaldıqdan sonrakı profilaktik prosedurların minimum dəstinin təqribi dəyəri təqdim olunub. Özəl klinikaların Azərbaycan manatı ekvivalentində ifadə olunan təxmini qiymətləri 2017-ci il üçün effektiv valyuta məzənnəsi əsasında ABŞ dolları ilə göstərilmişdir[56].

Bəzi zorakılıq hallarının çox travmatik olduğunu (qeydə alınmış bütün zorlama və zorlamaya cəhd hallarının ən azı üçdə biri) və nəticə etibarilə ilkin cərrahi müalicə, stasionar müalicə və uzunmüddətli psixoloji yardım kimi əlavə tibbi xidmətləri labüd etdiyini ehtimal edərək, təqribi hesablanmış xərclər qeydə alınmış cinsi zorakılıq hallarına tətbiq edilmişdir. Nəticədə, qeydiyyata düşmüş zorlamadan zərərçəkmişlərə göstərilmiş tibb xidmətlərinin təqribi dəyəri aşağıdakı kimi hesablanıb:

1. zorlamaya məruz qalmış şəxslər üçün (bütün hadisələrin üçdə ikisi) hadisədən sonrakı profilaktik tədbirlərin minimum dəyəri: 14550 ABŞ dolları [25 qadın × 582 ABŞ dolları];

2. çox travmatik zorlama hallarının doğurduğu xərclərin minimum dəyəri (bütün hadisələrin üçdə biri): 12264 ABŞ dolları [12 qadın × 1022 ABŞ dolları;

3. cinsi zorakılıq hadisələrinin psixi sağlamlığa mənfi təsirləri ilə bağlı cavab tədbirlərinin minimum dəyəri (psixoloqla ən azı bir konsultasiya): 3060 ABŞ dolları [255 qadın× 12 ABŞ dolları].

**Nəticədə, qeydə alınmış cinsi zorakılıq hallarının törətdiyi fəsadların aradan qaldırılmasına sərf olunmuş səhiyyə xərclərinin ümumi dəyəri 2017-ci ildə 29874 ABŞ dolları olub [14550 ABŞ dolları + 12264 ABŞ dolları + 3060 ABŞ dolları].**

### Məişət zorakılığı (xəsarətlər).

Məişət zorakılığı nəticəsində xəsarətlər almış zərərçəkənlərə təqdim olunan səhiyyə xidmətlərinin ilkin dəyərini də “vahidin qiyməti” yanaşmasından istifadə edərək təqribi şəkildə hesablamaq mümkündür.

Sağlamlığa zərər vurmanın məhkəmə-tibbi ekspertizasına əsasən, yüngül xəsarətlər dedikdə, sağlamlığın 6 gündən çox, lakin 21 gündən az müddətinə pozulması və kiçik müvəqqəti təsirlərin 6 gündən çox davam etməməsi nəzərdə tutulur (sıyrıqlar, qançırlar və s.); az ağır xəsarətlər dedikdə, sağlamlığın 21 gündən çoxmüddətə pozulması və bədən funksiyalarının pozulması və ya əmək qabiliyyətinin əhəmiyyətli dərəcədə itirilməsi nəzərdə tutulur (sınıqlar, çıxıqlar, səthi yaralar və s.); ağır xəsarətlər dedikdə, insan həyatı üçün təhlükəli olan, sağlamlığın 120 gündən uzun müddətə pozulması ilə nəticələn və ya şəxsin əmək qabiliyyətinin ən azı üçdə bir hissəsinin itirilməsi ilə daimi əlilliyə səbəb olan xəsarətlər (baş beyin zədələnməsi, dərin yaralar və s.) nəzərdə tutulur.

Məişət zorakılığı qurbanlarına göstərilən kompleks tibbi xidmətlərin təqribi dəyərini hesablamaq üçün özəl klinikaların qiymət siyahılarından istifadə edilmiş, eyni zamanda, tələb olunan minimum tibb xidmətləri üzrə alqoritmlər isə yerli tibb işçiləri ilə aparılan fokus qrupu müzakirələri vasitəsilə müəyyən olunmuşdur (Cədvəl 4.3).

[55] ÜST (2003). Cinsi zorakılıq qurbanları üçün tibbi-hüquqi yardımın göstərilməsi ilə bağlı rəhbər qaydalar. Cenevrə, Ümumdünya Səhiyyə Təşkilatı.
[56] https://data.worldbank.org/indicator/PA.NUS.FCRF?locations=AZ.

Yüngül xəsarətlərin müalicəsi üçün əsasən ambulator müalicə (məsələn, travmatoloq tərəfindən müayinə aparılması və bəzi bahalı olmayan dərman vasitələri (50 ABŞ dollarına qədər)) tələb olunur, az ağır xəsarətlərlə bağlı isə daha bahalı prosedurlara ehtiyac ola bilər (420 ABŞ dollarına qədər). Ağır xəsarətlər olduqda isə, bahalı diaqnostika və müayinələrə (MRT kimi), müxtəlif mütəxəssislərlə konsultasiyalara, uzunmüddətli reabilitasiya tələb edən cərrahi müdaxilələrə ehtiyac duyulur. Ekspertlərin təqribi hesablamalarına əsasən, minimum səviyyədə tələb olunan müayinələr, müalicələ (stasionar müalicə daxil olmaqla) və dərmanların təqribi xərcləri 1000 ABŞ dollarına qədər ola bilər. Bundan əlavə, qeydə alınmış bəzi cinayət əməlləri öldürmə və ya sağlamlığa ağır zərər vurma ilə hədələri ilə bağlı olmuşdur ki, bu da şübhəsiz ki, zərərçəkənin psixi sağlamlığına mənfi təsirgöstərmişdir. Bu cür halları nəzərə almaqla zərərçəkənlərin ehtiyacı olduğu psixoloji terapiya kursunun ilkin xərcləri də hesablamalara daxil edilmişdir (psixoloqla ən azı 5 konsultasiya).

2017-ci ilin cinayət statistikasına əsasən, məişət zorakılığı nəticəsində 794 qadın yüngül xəsarət almış, 4 qadın işgəncəyə məruz qalmış, 63 qadın az ağır və 26 qadın ağır xəsarətlər almışdır. Müvafiq səviyyədə göstərilən tibbi xidmət xərclərini qeydə alınmış zərərçəkənlərin sayına tətbiq etdikdə, səhiyyə xərclərinin ümumi məbləği 93520 ABŞ dolları təşkil edəbilər (Cədvəl 4.3).

**Cədvəl 4.3. 2017-ci ildə məişət zorakılığı nəticəsində xəsarət almış qadınlara göstərilən tibbi xidmətlərlə bağlı xərclərin təqribi məbləğləri**

| | **Yüngül xəsarətlər və əzab vermə** (6-21 günlük müalicə) | **Az ağır xəsarətlər** (21 gündən yuxarı müalicə) | **Ağır xəsarətlər** | **Psixi sağlamlıq pozuntuları** |
|---|---|---|---|---|
| Xəsarətlərin ümumi xarakteri | Qançırlar, hematomalar, sıyrıntılar | Sınıqlar, burxulmalar, səthi yaralar | Dərin yaralar, baş beyin zədəsi və s. | Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmək və s. hallar |
| Tələb olunan minimum tibb xidmətləri | Travmatoloq tərəfindən müayinə, radioqrafik müayinə, lazımi dərmanlar, sarğı.Psixoloqla konsultasiya | Təcili tibbi yardım çağırışı, travmatoloqla konsultasiya, bir neçə proyeksiyada radioqrafik müayinə, yaraların ilkin cərrahi işlənməsi, cərrahi sarğı, bərkidici sarğı/gips, anesteziya, lazımi dərman vasitələri<br>Stasionar müalicə (xəstəxanada 1 gün)<br>Psixoloqla konsultasiya | Təcili tibbi yardım çağırışı, travmatoloqla konsultasiya, bir neçə proyeksiyada radioqrafik müayinə, MRT, cərrahiyyədən öncə müayinə, yaraların cərrahi işlənməsi, cərrahi sarğı, anesteziya, dərman vasitələri. Oftalmoloqla, psixoloqla, nevroloqla (baş beyin zədələri olduqda) konsultasiyalar.<br>14 günədək stasionar müalicə<br>Psixoloqla konsultasiya | Psixoloqla konsultasiyalar (ən azı 5 konsultasiya) |
| Tibbi xidmətlər və dərman vasitələri dəstinin təqribi xərcləri, ABŞ dolları ilə | 50 | 420 | 1000 | 60 |
| Məişət zorakılığı cinayətlərindən zərər çəkmiş qadınların sayı | 796 (4 işgəncə vermə hadisəsi daxil olmaqla) | 63 | 26 | 21 |
| Qeydə alınmış bütün zərərçəkənlər üçün tibb xidmətlərinin təqribi xərcləri, ABŞ dolları ilə | 39800 | 26460 | 26000 | 1260 |
| **Məcmu xərc** | | | | **93520 ABŞ dolları** |

*Qeyd: Qiymətlər 2017-ci il üçündür; müvafiq valyuta məzənnəsi 1 ABŞ dolları= AZN1.721 təşkil edib.*

Qeyd olunanları nəzərə alaraq, **2017-ci ildə Azərbaycanda qadınlara qarşı zorakılıqdan zərərçəkənlərə göstərilən səhiyyə xidmətlərinin ümumi dəyəri 123394 ABŞ dolları təşkil edə bilərdi.** Şübhəsiz ki, təqdim olunan rəqəmlər kifayət qədər təqribi xarakter daşıyır və zərərçəkənlərə göstərilən xidmətlərlə bağlı potensial xərclərin yalnız bir hissəsini əks etdidir. Reproduktiv sağlamlığa vurulan zərər nəticəsində yaranan sonsuzluq, uzunmüddətli post-travmatik stress pozuntuları, depressiya və intihar xarakterli davranışlar da daxil olmaqla zorakılığın potensial olaraq özünü daha sonradan biruzə verəcək bir sıra digər nəticələri bu rəqəmlərdə nəzərə alınmayıb . Bu rəqəmlərə ehtiyatla yanaşmaq tələb olunsa da, onlar qadınlara qarşı zorakılığın səhiyyə sahəsində yaratdığı iqtisadi yük barədə ümumi təsəvvür yaratmaq üçün kifayətdir. Qadınlara qarşı zorakılığın latent xarakterini nəzərə alaraq daha müfəssəl qiymətləndirmələr simulyasiya nəticəsində hasil edilmiş və 5-ci Bölmədə təqdim olunmuşdur.

## 4.2. Hüquq-mühafizə və ədliyyə sistemi

Qadınlara qarşı zorakılıqla bağlı cinayət əməlləri geniş şəkildə cinayət, inzibati və mülki məsuliyyət çərçivəsində təsnif edilə bilər. Nəzəri baxımdan, qadınlara qarşı zorakılıqla bağlı hüquqpozmalar üzrə inzibati məlumatların bütün kateqoriyaları zərərçəkənlərin və zorakılığı törətmiş şəxslərin cinsinə görə təsnifləndirilə bilər. Lakin reallıqda Azərbaycanda qeydə alınmış cinayət əməllərinin statistikası baxımından yalnız zərərçəkənlərin cinsi üzrə təsnifləndirilmiş məlumatlar mövcuddur. Bir çox digər ölkələrdən fərqli olaraq, məişət zorakılığı ilə bağlı qeydə alınmış inzibati hüquqpozmalar, zorakılığı törətmiş şəxslərin inzibati həbsləri, inzibati məhkəmələrin məişət zorakılığı ilə bağlı işlər üzrə qərarları və aidiyyəti hökmlər barədə spesifik məlumatlar mövcud deyil. İnzibati məsuliyyətlə bağlı mövcud olan məlumatlar məişət zorakılığından zərərçəkənlər üçün uzunmüddətli mühafizə orderləri (2011-ci ildə Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinə əlavə edilib) tələb edən işlərin icraatı ilə bağlıdır.

AQUPDK-nın məlumatlarına əsasən, **2017-ci ildə 10 qısamüddətli və 24 uzunmüddətli mühafizə orderi verilib.** Aparılmış müsahibələr nəticəsində əldə edilmiş məlumatlara əsasən, birinci instansiya məhkəməsində mühafizə orderi vermək üçün tələb olunan prosedurlara hakimin maksimum bir saat vaxt sərf etməsi tələb edilir, polis əməkdaşlarının sübutlar toplaması, zərərçəkənlərlə söhbət aparması və sənədləşdirmə işlərini həyata keçirməsi üçün isə bir neçə saat vaxt lazımdır. Hüquq-mühafizə orqanlarının bu cür hallarla apardığı mübarizə tədbirlərinin təqribi dəyərini hesablamaq üçün polis əməkdaşlarının (aylıq 600 AZN/350 ABŞ dolları) və birinci instansiya məhkəmələri hakimlərinin (aylıq 1000 AZN/580 ABŞ dolları) orta aylıq əmək haqqından istifadə edilərək, “vahidin qiyməti” metodu tətbiq edilmişdir. Müvafiq olaraq, onların hər saata düşən əmək haqqı 2 ABŞ dolları və 3 ABŞ dolları olaraq təxmin edilə bilər. Beləliklə, **2017-ci ildə hüquq-mühafizə orqanlarının mühafizə orderinin verilməsi ilə bağlı gördüyü tədbirlərin təqribi dəyərinin 306 ABŞ dolları olduğunu ehtimal etmək olar** [10 qısamüddətli mühafizə orderi × (2 ABŞ dolları × 3 saat + 3 ABŞ dolları × 1 saat) + 24 uzunmüddətli mühafizə orderi × (2 ABŞ dolları × 3 saat + 3 ABŞ dolları × 1 saat)].

**2017-ci ildə hüquq-mühafizə orqanlarının mühafizə orderinin verilməsi ilə bağlı gördüyü tədbirlərin təqribi dəyərinin 306 ABŞ dolları olduğunu ehtimal etmək olar.**

Cinayət xarakterli hüquqpozmalara gəldikdə, məişət zorakılığı hadisələri əsasən sağlamlığa müxtəlif dərəcəli (yüngül, az ağır və ağır) zərər vurma, adam öldürmə və adam öldürməyə cəhdlə nəticələnir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsi qəsdən adam öldürmə (Maddə 120), özünü öldürmə həddinə çatdırma (Maddə 125), qəsdən sağlamlığa ağır zərər vurma (Maddə 126), qəsdən

sağlamlığa az ağır zərər vurma (Maddə 128), işgəncə vermə (Maddə 133), öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə (Maddə 134), zorlama (Maddə 149) və seksual xarakterli zorakılıq hərəkətlərini (Maddə 150) əhatə edir. Bir çox məişət zorakılığı cinayətləri bu kateqoriyalar altında təsnif edilə bilər.



Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin verdiyi məlumatlara əsasən, 2017-ci ildə qadınlara qarşı 2145 cinayət və zorakılıq hərəkətləri törədilib. Bu cinayətlərdən 39-u qadınların ölümü ilə nəticələnib. Bundan əlavə, **964 məişət zorakılığı cinayəti, 37 zorlama və zorlamaya cəhd törədilib.**

Hüquq-mühafizə orqanlarının qadınlara qarşı zorakılıqla bağlı cinayətlərlə mübarizə üzrə gördükləri cavab tədbirlərinin yaratdığı xərclər post-patrul çağırışları, müstəntiqlərin və prokurorların əməyi, bir sıra məhkəmə-tibbi ekspertizaları, hüquqşünasların xərcləri, hakimlərin məhkəmə baxışlarına sərf etdiyi vaxt və digər kateqoriyalardan olan xərclərdən ibarətdir. Təəssüf ki, cinayətlərin ağırlıq dərəcəsindən asılı olaraq həyata keçirilən mübarizə tədbirlərinin ardıcıllığı, istintaqın müddəti və cəlb olunan mütəxəssislərin sayının fərqli olduğunu nəzərə alaraq, hazırda aidiyyəti hesablamaları etmək mümkün deyil.

Qadınlara qarşı zorakılıqla bağlı cinayətlərlə mübarizə üzrə görülən cavab tədbirlərinin təqribi xərclərini hesablamaq üçün polis əməkdaşlarının (2 ABŞ dolları) və birinci instansiya məhkəmələrinin hakimlərinin (3.3 ABŞ dolları) saata hesabı orta əmək haqqı məbləğindən istifadə edilmişdir. Bu tədqiqat çərçivəsində aparılan müsahibələr və fokus qrup müzakirələri zamanı əldə olunmuş məlumatlara əsasən, müxtəlif cinayətlərin araşdırılması 2 aya qədər davam edə bilər (bəzi hallarda istintaq daha da uzana bilər)[57].

Qərar çıxarılanadək 3-10 məhkəmə iclası keçirilə bilər (yəni, hakim sözügedən prosesə ən azı 10 saat vaxt sərf edə bilər). Bundan əlavə, məhkəmələrdə adətən zərərçəkənlər hüquqi məsləhətlə təmin olunur: yerli vəkillərlə aparılmış müsahibələrdən alınmış məlumatlara əsasən, hər cinayət işi üzrə hərtərəfli hüquqi yardımın göstərilməsinin dəyəri təxminən 1000 AZN (581 ABŞ dolları) ola bilər[58]. Bunu nəzərə alaraq, hüquq-mühafizə orqanlarının qadınlara qarşı zorakılıqla bağlı cinayətlərə qarşı gördükləri cavab tədbirlərinin təqribi dəyərini hesablamaq üçün polis əməkdaşları və müstəntiqlərin hər cinayət işi üzrə sübutlar toplamaq və istintaqı davam etdirmək üçün 10 saat vaxt sərf etdiyi güman edilmişdir. Bununla yanaşıməhkəmələrdə hakimlərin 5 saatlıq işi və hüquqi yardım xərcləri də nəzərə alınmalıdır: 2 ABŞ dolları × 10 saat + 3 ABŞ dolları × 5 saat + 581 USD = 616 ABŞ dolları. Nəticədə, **2017-ci ildə cinayətlərlə mübarizə üzrə cavab tədbirləri ilə bağlı meydana çıxan xərclərin ümumi dəyəri 616,616 ABŞ dolları dəyərində ola biləcəyi ehtimal edilmişdir**[(964 məişət zorakılığı hadisəsi + 37 zorlama) × 618 ABŞ dolları].

Lakin cinayət mühakimə sisteminin maliyyə sərfiyyatı baxımından ən bahalı komponentini *seksual və məişət zorakılığı ilə bağlı cinayətlərə görə məhkum edilmiş cinayətkarların həbsdə saxlanmasını da özündə ehtiva edən penitensiar sistemə sərf olunan xərclər təşkil edir.* Cinayət qanunvericiliyi hökmlərində məişət zorakılığının müəyyən edilməsi ilə bağlı xüsusi müddəalar olmasa da, cinayətlərin əsas hissəsi şəxsin həyat və sağlamlığına yönələn təhdidlərlə (adam öldürmə, sağlamlığa zərər vurma və s.) bağlı olduğuna görə, cinayətlərin bu kateqoriyaları üzrə təsnif edilə bilər.

Ədliyyə Nazirliyinin məlumatlarına əsasən 2017-ci ildə 1601 şəxs zorakılıqla bağlı cinayət/zorakılıq

[57] Hüquq-mühafizə orqanlarının məişət zorakılığına qarşı cavab tədbirləri baxımından, qeyd etmək lazımdır ki, qanunvericilikdə dövlətin vəzifəsinin "tərəflərin münasibətlərinin normallaşmasına və ailədə münasibətlərin bərpa olunmasına kömək göstərmək" olduğu aydın şəkildə qeyd olunur ("Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu (2010-cu il), Maddə 7.0.4). Bu müddəanı məişət zorakılığı ilə bağlı işlərdə vasitəçiliyin və barışığın prioritetləşdirilməsi kimi şərh etmək olar. Təcrübə göstərir ki, bu, dövlət or-qanlarının, o cümlədən məhkəmələrin əsas siyasətidir və icraata xitam vermək üçün əsas kimi istifadə oluna bilər.

[58] Hüquqi xidmətlərin baha başa gəlməsi və pulsuz hüquqi yardıma çıxışın olmaması qadınların məruz qaldığı hüquqpozmalarla bağlı məhkəməyə üz tutmasına mane olan əsas əngəllər kimi tez-tez vurğulanıb.

hərəkətləri törətdiyinə görə təqsirli bilinərək, məhkum edilib. Müsahibə aparılmış hakimlərin verdiyi məlumatlara əsasən, sözügedən hökmlərin 15 faizi qadınlara qarşı zorakılıqla bağlı cinayətlərlə bağlı olub. Bundan başqa, 207 nəfər seksual xarakterli cinayətlər/zorakılıq hərəkətləri törətdiyinə görə təqsirli bilinib. Nəticədə, **təqribi hesablamaya görə, 2017-ci ildə qadınlara qarşı zorakılıqla bağlı məhkum edilmiş şəxslərin sayı 447 olub** [1,601 məhkum * 15 faiz (məişət zorakılığı) + 207 məhkum (cinsi zorakılıq)].

Hüquq mühafizə orqanları tərəfindən təqdim olunmuş məlumatlara əsasən, hər məhkumun saxlanmasının gündəlik xərci adambaşına 9.05 AZN(5.3 ABŞ dolları) təşkil edib. Beləliklə, **məhkum edilmiş şəxslərin cəzaçəkmə müəssisəsində saxlanmasına ayrılan maliyyə vəsaitinin ümumi təqribi məbləği 864722 ABŞ dolları** [447 məhkum × 5.3 ABŞ dolları × 365 gün] təşkil edə bilər.

**Məhkum edilmiş şəxslərin cəzaçəkmə müəssisəsində saxlanmasına ayrılan maliyyə vəsaitinin ümumi təqribi məbləği - 864722 ABŞ dolları.**

**2017-ci ildə hüquq-mühafizə orqanları və cinayət mühakimə sisteminin qadınlara qarşı zorakılıqla bağlı gördüyü cavab tədbirləri və cəzaçəkmə müəssisələrinin saxlanmasına çəkilən xərclərin ümumi məbləği 1 483 662 ABŞ dolları təşkil edə bilərdi** (Cədvəl 4.4). Bu məbləğ milli səviyyədə o qədər də yüksək görünmür. Lakin nəzərə almaq lazımdır ki, polisə edilmiş və inzibati məlumatlarda qeydə alınmayan potensial şikayətlərin sayı bura daxil deyil. Bununla yanaşı, təhlil məqsədilə məişət zorakılığı ilə bağlı inzibati xətalar üzrə cins əsasında təsnifləndirilmiş məlumatları da əldə etmək mümkün olmamışdı.

**2017-ci ildə hüquq-mühafizə orqanları və cinayət mühakimə sisteminin qadınlara qarşı zorakılıqla bağlı gördüyü cavab tədbirləri və cəzaçəkmə müəssisələrinin saxlanmasına çəkilən xərclərin ümumi məbləği 1 483 662 ABŞ dolları təşkil edə bilərdi.**

**Cədvəl 4.4. 2017-ci ildə Azərbaycanda hüquq-mühafizə orqanlarının cavab tədbirlərinə sərf olunan vəsaitlərin təqribi məbləğləri**

| Xərc maddəsi | Hüquqpozmaların və məhkumların sayı | İqtisadi ekvivalenti, ABŞ dolları ilə |
|---|---|---|
| Mühafizə orderləri | 10 qısamüddətli və 24 uzunmüddətli orderlər | 322 |
| Cinayətlərin araşdırılması | 964 məişət zorakılığı cinayəti və 37 zorlama | 618618 |
| Məhkumların cəzaçəkmə müəssisələrində saxlanması | 447 məhkum | 864722 |
| **Cəmi** | | **1 483 662** |

## 4.3. Məişət zorakılığından zərərçəkənlərə ixtisaslaşmış yardımın göstərilməsi

Qabaqcıl beynəlxalq təcrübələrə uyğun olaraq, qadınlara qarşı zorakılıqdan zərərçəkənlərə ixtisaslaşmış yardımın göstərilməsi üzrə müfəssəl sistem aşağıdakılardan ibarət olmalıdır:

- 24 saat ərzində fəaliyyət göstərən pulsuz qaynar xətt;
- təhlükəsiz sığınacaqlar;
- dəstək və vəkil xidmətləri;
- sosial baxımdan təcrid olunmuş qadınlar, xüsusilə yeni gələn miqrantlar, qaçqınlar, etnik azlıq təşkil edən icmalardan olan qadınlar və əlilliyi olan qadınlar üçün əlçatan xidmətlər;
- maddi dəstək, mənzil təminatı, rezidentlərin hüquqları barədə maarifləndirmə, təlimimkanları;
- ixtisaslaşmış QHT-lər arasında şəbəkələşmə;
- qurumlararası əlaqələndirmə;
- insan hüquqlarına uyğun olaraq qadınlara qarşı zorakılıqla mübarizə istiqamətində fəaliyyət göstərən peşəkarlar üçün təlim proqramları;
- zorakılıq törətmiş şəxslərlə qadınların təhlükəsizliyini təmin etmək məqsədilə profilaktika xarakterli iş aparmaq[59].

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda (2010) zərərçəkənin ödənişsiz hüquqi və tibbi yardım, psixoloji reabilitasiya kursu, sosial müdafiə və müavinətlər, müvəqqəti sığınacaq və s. ilə təmin olunması üçün yardım mərkəzlərinə istinad edilir (Maddə 7.0.1). Xidmətlərin bu növü dövlət qurumları və qeyri-hökumət sektoru tərəfindən təqdim oluna bilər. Lakin ölkədəki yardım mərkəzlərinin sayı çox məhduddur və onlar adətən donorların verdiyi maliyyə vəsaitlərindən asılı olan QHT-lər tərəfindən idarə olunur.

Tədqiqat çərçivəsində müsahibədə iştirak etmiş yerli ekspertlərə əsasən, Azərbaycanda məişət zorakılığından zərərçəkənlərə yardım göstərmək üçün akkreditə edilmiş 21 QHT fəaliyyət göstərir. Onlardan onuna dövlət tərəfindən maliyyə dəstəyi verilib. Bununla belə, ekspertlər hesab edir ki, resursların azlığı görə və dayanıqlı maliyyələşmə proqramları olmadığına görə QHT-lərdən yalnız bir neçəsi fəaliyyət göstərir. Avropa Şurasının *"Beş Şərq Tərəfdaşlığı ölkəsində qadınların ədalət mühakiməsinə çıxışının yaxşılaşdırılması"* adlı layihəsi çərçivəsində hazırlanmış hesabata əsasən, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və beynəlxalq donor təşkilatlarının maliyyə dəstəyilə, başqa xidmətlərlə yanaşı, zorakılıqdan zərərçəkənlərə sığınacaq təmin edən və ƏƏSMN-in nəzarəti altında fəaliyyət göstərən cəmi 3 QHT olmuşdur[60]. Onlar insan alveri qurbanları və məişət zorakılığından zərər çəkmiş uşaqlara bir sıra xidmətlər göstərib. Bundan əlavə, məişət zorakılığından zərərçəkənlər üçün 7 gün, 24 saat ərzində fəaliyyət göstərən milli səviyyəli qaynar xətt mövcud deyil. QHT-lər tərəfindən maliyyələşdirilən yalnız bir neçə yardım xətti mövcuddur və bu xidmətlər əsas etibarilə donor maliyyələşdirməsindən asılıdır. Buna görə də, məişət zorakılığı ilə üzləşən qadınlar yardım və müdafiə mexanizmlərinə çıxış baxımından hələ də çoxsaylı maneələrlə üzləşir.

ƏƏSMN-in məlumatına əsasən, 2017-ci ildə **məişət zorakılığından zərər çəkmiş cəmi 28 şəxs sosial yardım** xidmətlərindən faydalanıb. Belə ki, məişət zorakılığından zərər çəkmiş 23 şəxs pulsuz hüquqi yardımla təmin edilib, 16 şəxs psixoloji reabilitasiya kursunda iştirak edib və 4 şəxs peşə hazırlığı ilə bağlı yardım alıb. ƏƏSMN-in tabeliyində olan sosial xidmət qurumları da "Təmiz Dünya" İctimai Birliyinin sığınacağına (Bakı) **məişət zorakılığından zərər çəkmiş 8 nəfəri,** "Təmas" sığınacağına (Gəncə) isə **4 nəfəri** göndərib. Bu rəqəmləri rəsmi cinayət statistikası və xüsusilə gender əsaslı zorakılığın yayılma səviyyəsi ilə müqayisə etdikdə, zərərçəkənlərin sosial yardımla adekvat səviyyədə təmin edilməməsi aydın şəkildə görünür.

[59] Kelly L. (2008). Qadınlara qarşı zorakılıqla mübarizə: Yardım xidmətlərinin minimum standartları, Avropa Şurasının İnsan Hüquqları və Hüquqi Məsələlər Baş Direktorluğunun Gender Bərabərliyi və İnsan Alveri ilə Müba-rizə Bölməsi: 66.

[60] Avropa Şurası (2017). "Azərbaycanda qadınların ədalət mühakiməsinə çıxışı üçün maneələr, hüquqi müdafiə va-sitələri və ən yaxşı təcrübələr". "Beş Şərq Tərəfdaşlığı ölkəsində qadınların ədalət mühakiməsinə çıxışının artırılması" (Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova və Ukrayna) adlı Proqram üzrə Əməkdaşlıq Çərçivəsi Layihəsi çərçivəsində hazırlanıb: 33.



Bəzi dəlillər nümayiş etdirir ki, ailədə zorakılığa şahid olan uşaqların emosional və davranış xarakterli problemlərlə (məsələn, narahatlıq, depressiya və yaşıdlarına qarşı zorakılıq) üzləşməsi və yetkinlik yaşına çatanda rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxsə qarşı fiziki və/yaxud cinsi zorakılıq törətməsi riski kifayət qədər yüksəkdir. Cari tədqiqat çərçivəsində zorakılığa məruz qalmış qadınlar arasında aparılmış ünvanlı sorğunun nəticələrinə əsasən, zərərçəkənlərin **86 faizi bildirib ki, onların uşaqları analarına qarşı edilən zorakılıq hərəkətlərinə şahid olub.** Bu səbəbdən, öz ailələrində zorakılığa şahid olmuş uşaqlar üçün əlavə yardım xidmətləri, o cümlədən psixoloji terapiya və reabilitasiya xidmətlərinin göstərilməsinə ehtiyac ola bilər.

Bu problemi aradan qaldırmaq üçün ƏƏSMN-in sosial əmri[61] əsasında həyata keçirilən layihələrindən biri məişət zorakılığının təsirinə məruz qalmış uşaqların sosial reabilitasiya xidmətləri ilə təmin olunması ilə bağlı olub. Belə ki, "Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım" İctimai Birliyi **3-16 yaşlı 38 uşağa öz təhsillərini davam etdirmək** üçün reabilitasiya xidmətləri, həmçinin, hüquqi, sosial və psixoloji yardım göstərib. ƏƏSMN-in məlumatlarına əsasən, ixtisaslaşmış QHT-lər 4000-dən artıq sağlamlıq imkanları məhdud, həmçinin xüsusi müdafiə tədbirlərinə eytiyacı olan uşaqlara (valideyn himayəsindən məhrum olmuş, "küçə uşaqları" və s.) xidmət göstərir və onların ailələri sosial və reabilitasiya xidmətləri ilə təmin olunur.

Hesabatın cari bölməsində sözügedən xidmətlərin iqtisadi yükünün hesablanması üçün bəzi metodlar təqdim edilib. Yuxarıda qeyd olunan "vahidin qiyməti" metodu konkret xidmətlərdən istifadə üçün ilkin alqoritmlər və hər komponent üçün xərclərin addım-addım hesablanmasına yardım edir. Bu tədqiqat çərçivəsində, yerli kontekstdə məişət zorakılığı ilə mübarizə sahəsində göstərilən sosial xidmətlərə dair ümumi fikir formalaşdırmaq üçünyerli sosial işçilərlə məsləhətləşmələr və müzakirələr aparılmışdır:

*zərərçəkənin sosial mərkəzə zəngi/müraciəti → sosial işçi ilə məsləhətləşmə → psixoloqla məsləhətləşmə → hüquqşünasla məsləhətləşmə → sığınacaqda qalmaqla bağlı məsləhətləşmə → sığınacaq (3-6 ay) → bu sığınacaqda olarkən istifadə olunan digər zəruri xidmətlər (tibbi müayinə, sosial-psixoloji reabilitasiya, hüquqi məsləhət, işə düzəlmək üçün yardım).*

Nəzəri olaraq, sosial xidmətlərin təqribi xərclərini hesablamaq üçün sosial işçilərin zorakılıqdan zərər çəkmiş hər şəxsə sərf etdiyi vaxt və sosial iş sektorunda orta əmək haqqı məbləğindən istifadə edilə bilər. Yerli ekspertlərlə aparılmış geniş müsahibələr vasitəsilə əldə olunmuş məlumatlara əsasən, sosial işçilərin 2017-ci ildə orta aylıq əmək haqqı 400 AZN (232 ABŞ dolları) təşkil etmişdir. Beləliklə, sosial işçinin hər saata düşən əməkhaqqı məbləği aşağıdakı kimi hesablana bilər: 232 ABŞ dolları/22 iş günü/8 iş saatı = 1.32 ABŞ dolları.

Məişət zorakılığından zərərçəkənlərin fərdi ehtiyaclarının, həmçininq, sosial işçilərin təmin etdiyi məsləhət sessiyalarının sayının müxtəlif ola biləcəyini nəzərə alaraq, təqribi hesablamalar "ən məqbul hal" şərti əsasında aparılmışdır. Belə ki, 2017-ci ildə sosial xidmətlərdən istifadə etmiş məişət zorakılığından zərərçəkmiş qismində qeydiyyata düşmüş 28 nəfərin hər birinin bütün

[61] Büdcədən maliyyələşdirilən və müsabiqə əsasında seçilmiş ixtisaslaşmış xidmət təhcizatçıları (adətən QHT-lər) tərəfindən icra edilən sosial yönümlü layihələr/müdaxilələr.

xidmətlərlə əhatə edilməsi məqsədilə hər biri ən azı 2 saat davam etmiş ən azı 10 məsləhət sessiyasının keçirildiyi fərz edilmişdir: 28 nəfər × 10 məsləhətləşmə × 2 saat × 1.32 ABŞ dolları = 739 ABŞ dolları. Bundan əlavə, zərərçəkmişlərin 16-sı 72 saata qədər davam edə biləcək və 2 sosial işçinin iştirakı ilə keçirilmiş psixoloji reabilitasiya kursunda iştirak edib [16 nəfər × 72 saat × 2 sosial işçi × 1.32 ABŞ dolları = 3,041 ABŞ dolları]. Sosial reabilitasiyanın zərərçəkmişin fərdi planından asılı olaraq 3-6 ay ərzində davam edə biləcək uzunmüddətli proses olduğunu nəzərə alaraq, həftəlik monitorinq ziyarətləri və müayinələr aparmaq üçün də müəyyən vaxt tələb olunur. Bunun əsasında, 3 aylıq reabilitasiya müddəti ərzində, xidmətlərdən istifadə etmiş 28 nəfərin hər birinə sosial işçilər tərəfindən 63 iş saatı sərf olunduğu ehtimal edilmişdir: 28 nəfər × 63 saat × 21.32 ABŞ dolları = 2,320 ABŞ dolları. Nəticə etibarilə, **2017-ci ildə göstərilmiş sosial xidmətlərin ümumi dəyərinin 6100 ABŞ dollar məbləğində ola biləcəyi ehtimal edilmişdir.**

Hazırda QHT-lər məişət zorakılığından zərərçəkənlər üçün sığınacaqları idarə edir[62]. Hər hansı sığınacağın fəaliyyəti üçün zəruri olan təxmini xərcləri müəyyən etmək üçün “Təmiz Dünya” İctimai Birliyinin rəhbərliyi ilə müsahibə aparılıb. Sözügedən sığınacaq Bakıda fəaliyyət göstərir və onun ümumi tutumu 50 nəfər təşkil edir. Sığınacağın əsas maliyyə vəsaiti beynəlxalq təşkilatlar, həmçinin xeyriyyə xarakterli ianələr hesabına təmin olunur. Məişət zorakılığından zərərçəkənlər sığınacaqda ödənişsiz əsaslarda 3 aya qədər qala bilərlər; və onlar burada tələb olunan bütün növ dəstəklə təmin olunurlar. Sığınacağın işçi heyəti tam iş qrafiki ilə fəaliyyət göstərən doqquz işçi, o cümlədən sosial işçilər, psixoloq və hüquqşünasdan ibarətdir. Sığınacağın rəhbərliyinin verdiyi məlumata əsasən müəssisənin illik büdcəsinə dair məlumat vermək kifayət qədər çətindir, çünki zəruri olan bir çox vasitələr və avadanlıqlar xeyriyyə qurumları və filantroplar tərəfindən bəxşiş edilir, **sığınacağın illik maliyyə büdcəsi isə təqribən 100 000 AZN(58000 ABŞ dolları) təşkil edir.**

Beynəlxalq təşkilatlar da Azərbaycanda qadınlara qarşı zorakılığın qarşısının alınması və cavab tədbirlərinin görülməsi üzrə ünvanlı tədbirlərin dəstəklənməsi məqsədilə xeyli fəallıq nümayiş etdirir. Bu təşkilatlar arasında xüsusilə BMT-nin Əhali Fondunu qeyd etmək lazımdır. Təşkilat gender əsaslı zorakılıq məsələləri ilə bağlı təşviqat işlərinə hər il 60 000 ABŞ dollarına qədər vəsait ayırır. Normativ sənədlərin hazırlanması prosesinə texniki yardımın göstərilməsi, əlavə dəlillərin əldə olunması üçün müxtəlif tədqiqatların aparılması, təşkilati potensialın təkmilləşdirilməsi üçün müxtəlif təlimlər, maarifləndirmə işləri və s. aidiyyəti tədbirlərin keçirilməsi bu maliyyə vəsaiti hesabına mümkün olur. Bundan əlavə, BMT-nin Əhali Fondunun Ölkə üzrə Nümayəndəliyi 2016-2017-ci illərdə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyindən 500 000 ABŞ dolları məbləğində əlavə vəsait cəlb etməyə müvəffəq olmuş və sözügedən vəsait gender əsaslı zorakılığın qarşısının alınması və cavab tədbirlərinin görülməsi ilə bağlı fəaliyyətləri daha da gücləndirmək üçün istifadə edilmişdir (Cədvəl 4.5). BMTİP, Avropa Şurası, Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyi və digər donorlar tərəfindən də mütəmadi olaraq əhəmiyyətli işlər aparılır.

BMT-nin Əhali Fondunun fəaliyyətini çıxmaq şərtilə, digər beynəlxalq təşkilatların gender əsaslı zorakılıqla mübarizəyə sərf etdiyi maliyyə vəsaitini hesablamaq çox çətindir, çünki onların çoxu həyata keçirdikləri gender layihələri vasitəsilə zorakılığın aradan qaldırılmasına töhfə verdiyini düşünür. Bundan başqa, əldə edilmiş bir sıra məlumatlar da çoxillik maliyyələşmə proqramlarını əhatə edir. Beləliklə, **qadınlara qarşı zorakılıqla bağlı ünvanlı cavab tədbirləri üçün beynəlxalq təşkilatlar tərəfindən ayrılan illik maliyyə vəsaitinin məbləği 500 000 ABŞ dollarına qədər ola bilər.** Bu maliyyə vəsaitləri əsasən təşkilati potensialın təkmilləşdirilməsi, təşviqat və maarifləndirmə işlərinin aparılması, gender əsaslı zorakılıqla bağlı məlumatların toplanması və qadınlara qarşı zorakılıqdan zərərçəkənlərə QHT-lər tərəfindən birbaşa dəstəyin göstərilməsinə sərf edilir.

[62] ƏƏSMN-in rəsmilərinin bildirdiyinə görə, yaxın gələcəkdə Məişət zorakılığından və insan alverindən zərər çəkmiş şəxslər üçün Mərkəzin yaradılması planlaşdırılır. Belə bir mərkəzin saxlanmasının illik xərci təqribən 45 000 AZN olacaq və lazımi maliyyələşdirmə büdcədə təyin olunub.

**Cədvəl 4.5. Beynəlxalq təşkilatlar tərəfindən 2016-2017-ci illərdə Azərbaycanda gender əsaslı zorakılıq və məişət zorakılığı ilə mübarizə sahəsində dəstək göstərilən və icra olunan seçilmiş layihələr**

| Təşkilat | Layihə | Qısa təsvir | Ümumi maliyyələşmə, ABŞ dolları ilə | |
|---|---|---|---|---|
| | | | 2016 | 2017 |
| BMT-nin Əhali Fondu | Gender əsaslı zorakılıqla mübarizə üzrə təşviqat | Qanunvericilik/normativ sənədlərin hazırlanması, əlavə dəlillər hazırlamaq üçün tədqiqat işlərinin aparılması, təşkilati potensialı təkmilləşdirmək üçün təlimlərin və maarifləndirmə işlərinin aparılması | 60 000 ABŞ dolları | 60 000 ABŞ dolları |
| BMT-nin Əhali Fondu | Gender əsaslı zorakılığın qarşısının alınması və cavab tədbirləri | | 500 000 ABŞ dolları | |
| BMTİP | Məşğulluq və sahibkarlıq üçün iqtisadi səlahiyyətləndirmə | Məktəblərdə və icmalarda təşviqat və maarifləndirmə tədbirləri | Yoxdur (Ezamiyyə və səyahət xərcləri - təqribən 500 AZN) | Yoxdur (Ezamiyyə və səyahət xərcləri - təqribən 290 ABŞ dolları) |
| Aİ Nümayəndəliyi | Gender bərabərliyinin və qadın hüquqlarının təşviqində vətəndaş cəmiyyətinin rolunun artırılması | Məktəblərdə və icmalarda təşviqat və maarifləndirmə tədbirləri (zorakılıq gender layihələri çərçivəsində əhatə olunur) | | |
| BMTİP | Kənd yerlərində yaşayan qadınlar və gənclərin iqtisadi və sosial səlahiyyətlərinin artırılmasıartırılması | Maarifləndirmə, potensialın gücləndirilməsi | 100,000 ABŞ dolları (Gender əsaslı zorakılıqla bağlı tədbirlər: 13,400 ABŞ dolları) | 50,000 ABŞ dolları (Gender əsaslı zorakılıqla bağlı tədbirlər: 9,800 ABŞ dolları) |
| Avropa Şurası | “5 Şərq Tərəfdaşlığı Ölkəsində qadınların ədliyyəyə çıxışının təkmilləşdirilməsi” üzrə Regional Layihə | Yerli hökumət qurumlarının dəstəklənməsi, tədqiqat, məlumatlılığın artırılması (zorakılıq gender layihələri çərçivəsində əhatə olunur) | | |
| Aİ Nümayəndəliyi | “CEDAW Fəaliyyətdə” | Vətəndaş cəmiyyəti və Milli Qadın mexanizmi üçün infrastrukturun və sənəd resursunun yaradılması (zorakılıq gender layihələri çərçivəsində əhatə olunur) | 115000 Avro | |

*Mənbələr: müvafiq beynəlxalq təşkilatlar tərəfindən təqdim olunan məlumatlar*

Qeyd olunan maliyyə vəsaitlərini topladıqda, **2017-ci ildə Azərbaycanda qadınlara qarşı zorakılıqdan zərərçəkənlərə ixtisaslaşmış xidmətlərin göstərilməsi ilə bağlı xərclərin ümumi məbləğinin 564 100 ABŞ dollarına qədər ola biləcəyi ehtimal edilmişdir.** Bu məbləğin böyük hissəsi beynəlxalq təşkilatlar tərəfindən təmin edilib.

# 5

“Qadınlara qarşı zorakılıq nəticəsində zərərçəkənlər və onların ailələrinin üzərinə düşən iqtisadi yük”

Qadınlara qarşı zorakılığın cəmiyyətə təsir baxımından səbəb olduğu fəsadların iqtisadi yükünün ümumi miqyasını anlamaq üçün bu zorakılığın zərərçəkənlər üçün yaratdığı iqtisadi yükü müəyyən etmək vacibdir. Pulsuz yardım xidmətləri (məsələn, cinsi zorakılıq halında sosial və psixoloji dəstək və ya məruzqalmadan sonrakı profilaktik tədbirlər) göstərən dövlət qurumlarına yardım məqsədilə müraciət edən zərərçəkənlərin sayının az olması qadınlara qarşı zorakılıqla bağlı xərclərin böyük hissəsinin zərərçəkənlərin özləri tərəfindən ödənildiyini güman etməyə əsas yaradır. Azərbaycanda 2008-ci ildə aparılmış qadınlara qarşı zorakılığa dair milli sorğunun nəticələrinə əsasən, zorakılığa məruz qalmış bütün qadınların cəmi 39 faizi müəyyən yardım almağa çalışıb və onların yalnız bir neçəsi yardım üçün dövlət qurumlarına müraciət edib[63]. Nəticə etibarilə, zərərçəkənlərin böyük əksəriyyəti zorakılığın fəsadları ilə təkbaşına mübarizə aparmalı olmuş, onlar ehtiyacları olan xidmətlər göstərilməsi üçün “öz ciblərindən” ödəniş etmiş, və ailə üzvlərinin və digər yaxın şəxslərin yardımından istifadə etmişdir.

Qadınlara qarşı zorakılığın nəticələrini aradan qaldırmaq üçün sərf edilən şəxsi vəsaitləri təqribi şəkildə hesablamaq üçün zərərçəkənlər arasında aparılan ünvanlı sorğu yeganə məqsədəuyğun məlumat mənbəyini təşkil edir. Bu məqsədlə cari tədqiqat çərçivəsində, qadınlara qarşı zorakılığın təsirinə məruz qalan qadınlar arasında xüsusi sorğu keçirilmişdir. Sözügedən sorğu “Təmiz Dünya” İctimai Birliyinə yardım üçün müraciət etmiş zərərçəkənləri əhatə edib. Ümumilikdə, ölkənin müxtəlif rayonlarından 197 qadın sorğuya cəlb olunub. Respondentlərin sosial-demoqrafik vəziyyəti ilə bağlı bəzi əsas göstəricilər Əlavə A-da təqdim olunub.

Respondentlərin verdiyi məlumatlara əsasən fiziki zorakılıq onların qadınlara qarşı zorakılıq baxımından ən çox üzləşdiyi zorakılıq formasını təşkil edib. Onların 76 faizi bildirib ki, bu zorakılıq onların yardım üçün müraciətinin başlıca səbəbi olub (Əlavə D). Zorakılığın ikinci ən çox təsadüf edilən forması psixoloji zorakılıq olub: belə ki, respondentlərin 35% faizi buna dair məlumat verib. Zərərçəkənlərin dörddə biri cinsi zorakılığa məruz qalıb. Təqribən eyni sayda zərərçəkmiş qadın Q(2 faiz) isə iqtisadi xarakterli zorakılığa məruz qaldığına dair məlumat verib. Respondentlər, həmçinin, öz ailələrində davranışa nəzarətin (22 faiz) və məcburi nikah (18 faiz) hallarının da olduğunu qeyd edib.



Qadınların **76%-i** bildirib ki, **fiziki zorakılıq** onların ən çox üzləşdiyi zorakılıq formasını təşkil edib

Zorakılığı törətmiş şəxslərə gəldikdə isə, respondentlər zorakılığın ən çox intim partnyor tərəfindən törədildiyini qeyd ediblər. Müsahibə aparılmış qadınların dörddə üçü intim partnyorunun (76 faiz) zorakılıq hərəkətlərinə məruz qalıb. Bütün qadınların təqribən dörddə biri (28 faiz) digər ailə üzvləri tərəfindən törədilmiş zorakılıq halları barədə şikayətlənib. Zorakılığın qadınların tanıdıqları, lakin ailə üzvü olmayan digər şəxslər tərəfindən törədilildiyinə dair məlumat verən qadınların sayı 16 faiz təşkil edib. Qadınların 7 faizi isə tanımadıqları şəxslər tərəfindən müəyyən zorakılı hallarına məruz qaldıqlarını bildirib.

Seçmənin ünvanlı xarakter daşıdığını nəzərə alaraq, sorğuda iştirak edən qadınların əksəriyyəti yardım üçün xidmət qurumlarına müraciət etmiş şəxslərdən ibarət olub: onların yalnız 2 faizi zorakılıq hadisəsi ilə bağlı hər hansı yardım üçün müraciət etməyib. Qadınların ən böyük hissəsi yardım üçün öz qohumları və dostlarına (69 faiz) müraciət edib, lakin onlar arasında həm də hüquq-mühafizə orqanlarına müraciət etmiş şəxslərin də sayı az deyil (51 faiz).

[63] UNFPA (2011). Azərbaycanda qadınlara qarşı zorakılıq üzrə milli sorğu hesabatı - 2008, Bakı: 237.

Bütün sağ qalan zərərçəkənlərin üçdə biri (31 faiz) yardım üçün tibb işçilərinə müraciət edib, hər beş qadından biri isə müəyyən dəstək almaq üçün psixoloqa müraciət edib. Tibb müəssisələrinə (31 faiz) və psixoloqlara (20 faiz) müraciət edən zərərçəkənlərin sayı kifayət qədər yüksək olub. Hər yeddi qadından biri sosial xidmət qurumları və yerli icra hakimiyyəti orqanlarına müraciət etdiyinə dair məlumat verib. Sorğunun nəticələrinə əsasən zərərçəkənlərin qeyri-hökumət təşkilatlarına inam səviyyəsinin kifayət qədər yüksək olması da müəyyən edilib. Belə ki, bütün respondentlərin 72 faizi yardım üçün QHT-lərə müraciət etdiyinə dair məlumat verib.

Sorğuya cəlb olunan qadınlardan alınmış məlumata əsasən onlar sağlamlığa vurulan zərər, o cümlədən xəsarətlər, digər sağlamlıq pozuntuları və psixoloji stres kimi zorakılıq fəsadları baxımından təcrübələri fərqli olub. Onların üçdə biri qadınlara qarşı zorakılıqla bağlı yüngül xəsarətlər (məsələn, çat, çıxıq, burxulma, səthi yara, yanıq) aldıqlarını bildiriblər. Bundan əlavə, respondentlərin 23 faizi zorakılıq nəticəsində az ağır xəsarətlər (qançırlar, hematoma, sıyrıntı), 13 faizi bəzi ağır xəsarətlər (məsələn, dərin yaralar, baş beyin zədəsi və silkələnməsi, daxili orqanların zədələnməsi və s.) aldığını bildirib. Hər üç qadından biri (respondentlərin 34 faizi), həmçinin, psixoloji stres pozuntuları, 17 faizi isə xəsarətlərə deyil, digər sağlamlıq problemlərinə (məsələn, hipertoniya və xroniki xəstəliklərin kəskinləşməsi) malik olduqlarını bildirib. Müsahibə aparılan bütün qadınların yalnız 4 faizi zorakılıq nəticəsində sağlamlıqlarına hər hansı təsirin olmadığına dair məlumat verib(Şəkil 5.1).

***Qadınlara qarşı zorakılığın səbəb olduğu şəxsi maddi xərclər.*** Zərərçəkənlərin şəxsi maddi xərcləri müxtəlif qruplar üzrə təsnifləndirilə bilər. Zərərçəkənlərin əksəriyyəti zorakılığın fəsadlarının aradan qaldırılması üçün müəyyən xidmətlərə görə ödəniş etməli olub. Bundan əlavə, onlar zorakılığı törətmiş şəxsdən ayrıldıqdan sonra yaşayış yeri və əmlakın itirilməsi, əmək qabiliyyətinin itirilməsi nəticəsində iş yeri və gəlirlərin itirilməsi ilə bağlı maddi itkilərə məruz qalır. Sorğunun nəticələrinə əsasən, 197 respondentdən 20-i (təqribən 10 faiz) zorakılıq nəticəsində hər hansı şəxsi maddi itkilərin olmadığına dair məlumat verib . Respondentlərin digər hissəsi isə müəyyən növ şəxsi və/yaxud ailə əmlakını, o cümlədən evini itirib (Cədvəl 5.1).

**Şəkil 5.1. Qadınlara qarşı zorakılığa məruz qalmış respondentlər, zorakılıq nəticəsində sağlamlığa vurulan zərər üzrə bölgü əsasında təsnifləndirmə (respondentlərin faiz göstəricisi)**



İtkilərin orta məbləği təqribən 2807 ABŞ dolları olsa da, bəzi respondentlərin məruz qaldığı zərərin maliyyə ekvivalentini qeyd edə bilmədiyini nəzərə alaraq, onların üzləşdiyi faktiki maddi itkilərin nəzərəçarpan dərəcədə daha çox olduğunu da ehtimal etmək olar. Sözügedən qadınların verdiyi məlumata əsasən, onlar ayrıldıqdan sonra evlərini və bütün əşyalarını tərk edib və bunun müqabilində hər hansı təzminat ala bilməyiblər: *"Mən ərimdən ayrılan kimi, malik olduğum hər şeyi itirdim"* (26 yaşlı qadın), *"Uşaqlarımı və bəzi sənədləri götürüb əvvəlki evimdən qaçdım"* (33 yaşlı qadın). Qadınlara qarşı zorakılığa məruz qalan iki qadının yaşadığı səciyyəvi zorakılıq tarixçəsi Haşiyə 1-də təqdim olunub.

Bundan əlavə, bir çox qadınlar zorakılığa məruz qaldıqdan sonra müəyyən müddət işləyə bilmədikləri üçün maliyyə gəliri mənbələrini itirdiklərinə dair məlumat veriblər. Zərərçəkənlərin təxminən üçdə biri (32 faiz) xəstəliyə görə məzuniyyət götürməli olub və onların əmək qabiliyyətinin itirildiyi müddətin orta uzunluğu 14 gün təşkil edib. Zorakılıq nəticəsində bir çox qadınlar həm də əmək qabiliyyətinin məhdudlaşdığını və məhsuldarlığın aşağı düşdüyünü bildirib. Bəzi hallarda onlar adi gündəlik işləri zamanı belə diqqətlərini cəmləşdirməyə çətinlik çəkdiklərinə dair məlumat verib. Nəticədə, respondentlərin 61 faizi qazanclarını itirdiyini bildirib[64]; itirilmiş orta gəlir məbləği təqribən 721 ABŞ dolları təşkil edib (Cədvəl 5.1). Şübhəsiz ki, bu məbləğ 2017-ci ildə ölkədə qadınların orta əmək haqqından daha çoxdur ki[65], bu da qadınların şəxsi gəliri və ailə büdcəsi üçün böyük yük deməkdir.

**Cədvəl 5.1. Sorğuda iştirak edən zərərçəkənlərin qadınlara qarşı zorakılıq nəticəsində üzləşdiyi maddi itkilər**

| Zərərin növü | Sorğuda iştirak edən zərərçəkənlərin müəyyən zərərə məruz qalan hissəsinin xüsusi çəkisi, faizlə | Zərərin orta məbləği, ABŞ dolları ekvivalenti ilə |
|---|---|---|
| Şəxsi və ya ailə əmlakının (məs. mebel, məişət əşyaları, paltarlar və s.) itirilməsi | 90 | 2807 |
| Gəlirlərin itirilməsi (bütün müddət üzrə) | 61 | 721 |

*Qeyd: sözügedən hallar 2017-ci ildə baş veriyi üçün (tədiqat dövründən əvvəl), 2017-ci ilin orta mübadilə göstəricisi tətbiq olunub: 1 ABŞ dolları = 1.721 AZN*

## Haşiyə 1. Qadınlara qarşı zorakılığa məruz qalanların şəxsi hekayələri

### C.A.-nın işi

*Azərbaycanın mərkəzi hissəsində yerləşən Ucar rayonunun sakini olan "C.V." rayondakı 3 nömrəli orta məktəbdə 12 sinif bitirib. O, atasını 20 yaşında ikən itirib. Beş il sonra o, yatağa məhkum olmuş anasına qulluq göstərməyə başlayıb. Anası 2007-ci ildə dünyasını dəyişib. Onun tək yaşamaması üçün qardaşıvə bacısı onu israrla ailə qurmağa məcbur edirdi. Bir müddət sonra o, bacısı gilə köçüb və çörəkbişirmə sexində işə başlamışdır. Altı ay sonra o, iş yoldaşı vasitəsilə tanış olduğu Elşadla ailə qurdu. Əslində, Elşad onu qaçırmışdı, toy mərasimi isə sonralar keçirilmişdi. Onlar qayınanası və qayınatası ilə birlikdə eyni mənzildə yaşayırdılar. Ailənin üzvləri arasındakı münasibətlər sağlam deyildi. Bəzi hallarda Elşad anasına əl qaldırır, onu döyürdü. Elşadın anası 2009-cu ildə dünyasını dəyişəndən sonra, onun hədəfinə atası tuş gəldi. 2010-cu ildə onlar Bakıdakı mənzillərini sataraq,*

[64] Qazanc itirmədiyini bildirən qadınlara gəldikdə isə, onların böyük əksəriyyəti (80 faizə yaxın) işsizlər, evdar qadınlar, tələbələr və ya məktəbli qızlar idi.
[65] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2017-ci ildə qadınların orta aylıq nominal əmək haqqı 335.7 AZN (195 ABŞ dolları) olub.

*Bakının inzibati rayonu olan Binəqədi rayonunda ev aldılar. Elşad işləyə bilmirdi. Buna görə də, ailənin xərclərini qarşılamaq üçün C.A. yaxınlıqda yerləşən bir xəstəxanada işə düzəldi. Həmin il o ilk övladını - Rəşad adlı oğlunu dünyaya gətirdi. Lakin ailənin çətinlikləri davam edirdi və onlar yenə stabil həyat qura bilmirdilər. Sonra isə Elşad anasından qalan zinət əşyalarını və C.A.-nın toy hədiyyəsi kimi aldığı zinət əşyalarını satdı. Pul çatışmazlığı ailədə tez-tez münaqişələrə yol açan əsas səbəblərdən biri idi. Nəhayət, C.A. polisə müraciət edəndən sonra, polis Elşaddan C.A.-nı incitməyəcəyi və vurmayacağı ilə bağlı izahat aldı. Polis əməkdaşları C.A.-ya tövsiyə etdilər ki, Elşadı həbsə atmaq məqsədilə yetərli sübut əldə etmək üçün tibbi müayinədən keçsin. Lakin o, bundan imtina etdi. Elşad isə C.A.-nı döyməyə davam edirdi. Üstəlik, o, çox zaman evdə qazı bağlayaraq, xəstə atasını və körpə uşağı soyuqda qalmağa məcbur edirdi. 2017-ci ildə ailəyə ağır itki üz verdi. C.A.-nın qayınatası vəfat etdi və onun vəfatı ilə ailənin onun pensiyasından istifadə etmək imkanı da tükənmiş oldu. Ailənin maddi vəziyyətinin daha da pisləşməsi Elşadı daha da zorakı hərəkətlərə sövq etdi. Onu müəyyən qədər sakitləşdirmək üçün, C.A.-nın bacısı onlara dəstək göstərirdi. Lakin C.A. başqa bir işə düzəldikdən sonra onun ağır vəziyyəti və əzabları daha da kəskinləşdi. Elşad bir dəfə onun paltarlarını soyundurmuş və çılpaq halda çölə atmaqla hədələmişdi. O, qorxaraq iş yerini tələsik tərk etmiş və kömək üçün bacısına müraciət etmişdi. O, bir ay bacısı gildə qaldıqdan sonra, Elşad gəlsə də, ona içəri girməyə icazə verilmədiyindən, Elşad onu və bacısının ailəsini təhqir etdi. C.A. buna daha dözə bilmədi və məişət zorakılığından zərərçəkənlər üçün sığınacaq idarə edən "Təmiz Dünya" İctimai Birliyinə sığındı.*

**N.A.-nın işi**

*N.A. Azərbaycanın qərb hissəsində yerləşən Şəmkir inzibati rayonunda doğulub. Onun bioloji ailəsi atasının xəyanəti nəticəsində 2008-ci ildə dağılmışdı. Onun atası və anası başqaları ilə ailə qurduqdan sonra, o və qardaşı nənə və babasının himayəsində qalmışdı. O, məktəbdə sadəcə 9-cu sinfi bitirə bilmişdi. 15 yaşında Qüdrət adlı oğlanla tanış oldu. Qüdrətlə iki aylıq tanışlıqdan sonra, Qüdrət onu qaçırdı. İlk vaxtlarda evlilik həyatı normal idi və Qüdrət özünü qayğıkeş ər kimi göstərirdi. Daha sonra Qüdrət əvvəlki evliliyindən olan uşaqlarını evə gətirdi. Bu, əvvəl xırda məsələlər barədə mübahisələrə yol açdı, daha sonra isə bu mübahisələr N.A. ilə alçaldıcı rəftara çevrildi. N.A. hər gün Qüdrət tərəfindən döyülürdü. Bunlardan əlavə, Qüdrətin keçmiş arvadı onlara gəlir, N.A. ilə dava etməyə can atır və sonda onu döymüşdü.*

*2017-ci ilin dekabr ayında Qüdrət evə sərxoş halda gəldi və N.A.-ya bıçaqla yeddi xəsarət yetirmişdi. Nə etdiyini başa düşən Qüdrət qorxaraq onu həkimə aparmışdı. 2018-ci ilin yanvarında Qüdrət evdə sərxoş halda N.A.-nı boş araq butulkası ilə döydü. Həyatə çıxmaq bəhanəsi ilə evdən çıxan N.A. öz təhlükəsizliyinə görə qorxaraq, qonşusu gilə getdi və polisə zəng vurdu. Sonra polis Qüdrəti polis idarəsinə apardı. Lakin onu bir neçə saatdan sonra sərbəst buraxdılar. N.A.-ya onun tibbi ekspertizadan keçməsini nəzərdə tutan kağız verildi. Lakin Qüdrət ona bunu etməyə icazə vermədi. Bundan 7 həftə sonra, Qüdrət N.A.-nın yaşadığı sahənin sahə inspektoru olan polis əməkdaşına 50 manat verdikdən sonra, bu iş demək olar ki, yaddan çıxdı. Bu sövdələşmə Qüdrətin özbaşınalığını daha da artırdı və o, dəfələrlə N.A.-nı bıçaqla hədələdi. Bundan sonra, N.A. uşağını götürərək evdən qaçdı. Daha sonra o, hər kəsə İsmayıllıda sığınacaq tapdığını bildirdi. Nənəsi onun harda olduğunu öyrənmək üçün zəng etdi. Bakıya çatmazdan əvvəl, N.A. 9 gün Gəncədə - Azərbaycanın qərb hissəsində yerləşən, ölkənin ikinci böyük şəhərində qaldı. Burada o, yerli QHT olan "Təmas" ictimai birliyinin sığınacağında qaldı. Ərinin əmisi sığınacağa gələrək, N.A.-nın daha heç bir zorakılığa məruz qalmayacağına təminat verdi. Lakin N.A. evə qayıdandan sonra yenə eyni əzabları yaşamağa məcbur oldu. Nəhayət, o, Bakıda "Təmiz Dünya" ictimai birliyində yerləşdirildi.*

**Zorakılığa məruz qalan qadınların özlərinin ödədiyi xərclər.**

Zorakılığa məruz qalan qadınların göstərilən xidmətlər müqabilində ödədikləri nəgd xərclərin bir qismi aşağıda göstərilmiş kateqoriyalar üzrə qruplaşdırıla bilər:

- tibb müəssisələri, polis orqanları, ekspertiza mərkəzləri, məhkəmələr, sosial xidmət qurumları, qohumlar və s. yerlərə səfərlərlə bağlı xərclər;
- tibb xidmətləri, o cümlədən müayinə, stasionar müalicə və dərmanlara sərf olunan məbləğlər;
- psixoloji dəstək, o cümlədən məişət zorakılığına şahid olan uşaqlar üçün uşaq psixoloq xidmətləri;
- məhkəmələrlə bağlı hüquqi məsləhət və yardım xidmətləri;
- inzibati xidmətlər, məsələn, cərimələr, sənədlərin verilməsi üçün ödəmələr, məhkəmə rüsumları və s.;
- başqa yerə köçürülmə və yerləşdirilmə, ayrıca mənzilin kirayə götürülməsi, uşaqların başqa məktəblərdə yerləşdirilməsi və s. ilə bağlı olan xərclər.

Qadınlara qarşı zorakılığa məruz qalmış qadınlar arasında keçirilən sorğunun nəticələrinə əsasən, onların demək olar ki, hamısı zorakılığın fəsadlarını aradan qaldırmaq və/yaxud zorakılığı törətmiş şəxslərdən ayrıldıqdan sonra yeni həyata başlamaq üçün müəyyən xərcləri özləri ödəməli olublar (Cədvəl 5.2). Zərərçəkənlərin yardım üçün xəstəxanalar, polis şöbələri, sığınacaqlar və ya ailələrinə qayıtmaq üçün nəqliyyat vasitələrindən çox istifadə etdiyi üçün, nağd şəkildə edilən ödəmələrin ən böyük hissəsi nəqliyyat xərclərinə sərf edilmişdir. Sorğu iştirakçılarının 98 faizi xərclərin bu kateqoriyası haqqında məlumat verib. Qadınların nəqliyyat xidmətlərinə sərf etdikləri vəsaitlərin orta məbləği 161 AZN təşkil edib (2017-ci il üçün olan müvafiqməzənnəyə əsasən 94 ABŞ dolları) . Əksər xidmət qurumlarının mərkəzi şəhərlərdə (məsələn, sığınacaq Bakıda yerləşir) yerləşdiyini nəzərər alaraq, qadınlara qarşı zorakılıqdan zərərçəkənlər müəyyən yardım almaq üçün şəhərlərarası və rayonlararası nəqliyyat vasitərəlindən istifadə etməli olub və buna görə də sözügedən xərc kateqoriyası üzrə məbləğ kifayət qədər çox olub. Onların bir çoxu həm də başqa rayonda yaşayan valideynləri və digər ailə üzvlərinin yaşadığı yerlərə səfər etməli olub.

Sorğuda iştirak edən qadınların 75 faizi zorakılıq nəticəsində dərman vasitələri almalı olduqlarını bildirib. Bundan əlavə, onların yarıdan çoxu tibb xidmətləri, o cümlədən təcili yardım, həkim məsləhəti, tibbi müayinə və testlər üçün ödəniş etməli olub. Zərərçəkənlərin 28 faizi isə stasionar müalicə ilə bağlı ödənişlər etməli olub (Cədvəl 5.2).

Sorğuda iştirak edən qadınların dörddə üçündən çoxu (78 faizi) zorakılıq hadisəsindən sonra zorakılığı törətmiş şəxslərdən ayrı yaşamaq üçün kirayə mənzilə köçməyə məcbur olub. Bu müddətdə (hər il üzrə) sərf edilən kirayə ödəmələrinin orta məbləği təqribən 988 ABŞ dolları təşkil edib. Onlar həmçinin yeni həyata başlamaq üçün paltarlar, mebel və məişət cihazları almalı olub. Buna görə də, köçmə və yerləşdirilmə ilə bağlı xərclərin orta dəyəri 1077 ABŞ dollarına yaxın olub.

Müsahibə aparılan qadınların yarısından çoxu məhkəmələrlə bağlı hüquqi məsləhət və yardım almaq üçün müəyyən maliyyə vəsaiti xərcləməli olub. Onların təxminən üçdə ikisi bəzi inzibati xidmətlər üçün ödəniş edib (məs., cərimələr, məhkəmə rüsumları, məhkəmə-tibbi ekspertiza xərcləri, itmiş sənədlərin bərpası üçün rüsumlar və s.). Diqqət çəkən məqam ondan ibarətdir ki, respondentlərin cəmi 16 faizi psixoloji xidmətlər üçün ödəniş edib. Bu, böyük ehtimalla QHT-lər tərəfindən pulsuz psixoloji yardımın göstərilməsi ilə bağlıdır. Bununla yanaşı, qadınların 86 faizi uşaqlarının zorakılıq hallarına şahid olduğunu bildirsə də, onların cəmi 2 faizi bununla bağlı uşaq psixoloquna müraciət edib və müvafiq ödənişlər edib.

Sorğunun nəticələrinə əsasən, qadınlara qarşı zorakılığın qurbanlarının zorakılığın fəsadlarını aradan qaldırmaq üçün nağd formada ödədikləri şəxsi xərclərin orta məbləği 345 ABŞ dolları təşkil edib. Bu məbləğ nəzərəçarpan dərəcədə qadınların orta əmək haqqından (195 ABŞ dolları) çox olub. Bundan başqa, respondentlər zorakılığı törətmiş şəxsdən ayrıldıqdan sonra yeni həyat şəraitinə uyğunlaşmaq üçün təqribən 1077 ABŞ dolları xərclədiklərinə dair məlumat veriblər. Nəticə etibarilə, **qadınlara qarşı zorakılıqla bağlı şəxsi xərclərin hər zərər çəkmiş şəxs üçün ümumi məbləği 1324 ABŞ dollarına qədər ola bilər.**

**Cədvəl 5.2. Qadınlara qarşı zorakılıqdan zərər çəkmiş respondentlərin zorakılıqla bağlı etdikləri şəxsi ödəmələrin növlərinə görə bölgüsü, faizlə**

<table>
<tr><th>Xərc kateqoriyası</th><th>Xərc maddəsi</th><th>Müvafiq xərcləri ödəmiş qadınların xüsusi çəkisi, faizlə</th><th>Xərclərin orta məbləği, hər maddə üzrə, ABŞ dolları ekvivalenti ilə</th><th>Xərclərin orta məbləği, geniş kateqoriyalar üzrə, ABŞ dolları ekvivalenti ilə</th></tr>
<tr><td>Nəqliyyat xidmətləri</td><td>Xəstəxanalar, sosial xidmət mərkəzləri, polis şöbələri, qohumlar</td><td>97</td><td>94</td><td>94</td></tr>
<tr><td rowspan="3">Tibb xidmətləri</td><td>Tibb xidmətləri (stasionar müalicə istisna olmaqla)</td><td>58</td><td>91</td><td rowspan="3">193</td></tr>
<tr><td>Dərmanlar</td><td>75</td><td>103</td></tr>
<tr><td>Stasionar müalicə</td><td>28</td><td>129</td></tr>
<tr><td rowspan="2">Psixoloji xidmət</td><td>Psixoloqla məsləhətləşmə</td><td>16</td><td>39</td><td rowspan="2">39</td></tr>
<tr><td>Uşaq psixoloqu ilə məsləhətləşmə</td><td>2</td><td>17</td></tr>
<tr><td rowspan="2">Hüquqi məsləhət və inzibati xidmət</td><td>Məhkəmələrlə bağlı hüquqi məsləhət və yardım</td><td>57</td><td>98</td><td rowspan="2">112</td></tr>
<tr><td>İnzibati xidmətlər (inzibati rüsumlar, cərimələr, məhkəmə-tibbi ekspertiza və s.)</td><td>64</td><td>38</td></tr>
<tr><td colspan="4">Zərərçəkənin zorakılığın fəsadlarının aradan qaldırılmasına sərf etdiyi ümumi xərclər</td><td>345</td></tr>
<tr><td rowspan="3">Köçmə və yerləşdirilmə</td><td>Ayrıca mənzilin kirayə götürülməsi (hər il üzrə bütün kirayə müddəti)</td><td>78</td><td>988</td><td rowspan="3">1077</td></tr>
<tr><td>Yeni yaşayış yerinə gediş</td><td>53</td><td>53</td></tr>
<tr><td>Paltar, məişət cihazlarının və s. alışı.</td><td>66</td><td>261</td></tr>
<tr><td colspan="4">Zərərçəkənin qarşıladığı xərclərin ümumi məbləği</td><td>1324</td></tr>
</table>

*Qeyd: sözügedən hallar 2017-ci ildə baş veriyi üçün (tədiqat dövründən əvvəl), 2017-ci ilin orta mübadilə göstəricisi tətbiq olunub: 1 ABŞ dolları = 1.721 AZN*

Müsahibə aparılan zərərçəkənlərin yarıdan çoxu zorakılığın nəticələrini aradan qaldırmaq və yeni həyata başlamaq üçün 2000 AZN-dən (1162 ABŞ dolları) artıq vəsait xərclədiyinə dair məlumat verib (Şəkil 5.2). Bu məqsədlər üçün demək olar ki, hər beş qadından biri 1500-1999 AZN (871-1161 ABŞ dolları), təqribən hər üç qadından biri isə 1500 AZN-dən (870 ABŞ dolları) az miqdarda vəsait xərcləyib. Qadınların etdiyi bu ödəmələrin onların müvafiq ev təsərrüfatları üçün nəzərəçarpan dərəcədə dərəcədə yük olduğunu nəzərə alaraq, qadınlara qarşı zorakılığın bütün zərərçəkənlər üçün mühüm iqtisadi nəticələrinin olduğunu ehtimal etmək mümkündür.

**Şəkil 5.2.**



Qeyd etmək lazımdır ki, qadınlara qarşı zorakılıqdan zərərçəkənlərin şəxsən ödədikləri xərclər və aldıqları xəsarətlərin ağırlıq dərəcəsi arasında əlaqələr müşahidə olunur. Orta hesabla götürülən xərclərin ən yüksək olduğu qrup ağır dərəcəli xəsarətlər almış qadınlardan ibarət idi. Onların orta xərcləri digər qadınlarla müqayisədə 1.5 dəfə daha çox olub (Şəkil 5.3). Qadınlara qarşı zorakılıqla bağlı digər sağlamlıq problemlərinin (xəsarətlərdən başqa) olduğunu bildirən zərərçəkənlərin orta xərcləri də kifayət qədər yüksək olub (orta hesabla 1505 ABŞ dolları). Bu respondentlər streslə əlaqədar xroniki xəstəliklərin kəskinləşməsi, hipertoniya və uzunmüddətli müalicə və reabilitasiya tələb edən əsəb pozuntuları kimi sağlamlıq problemlərinə dair məlumat veriblər. Qadınlara qarşı zorakılıq nəticəsində psixoloji stres pozuntuları keçirdiyini bildirən qadınlar zorakılığın fəsadlarının aradan qaldırılmasına təqribən 1000 ABŞ dolları xərcləyiblər. Sağlamlıqla bağlı hər hansı bir probleminin olmadığını qeyd edən zərərçəkənlərə gəldikdə, onlar da əsasən zorakılığı törətmiş şəxsdən ayrıldıqdan sonra ayrı mənzilin kirayəyə götürülməsi zərurəti ilə əlaqədar kifayət qədər yüksək məbləğdə şəxsi xərclərlə (təqribən 1119 ABŞ dolları) üzləşiblər. Azərbaycanda qadınlara qarşı zorakılığa dair 2008-ci ildə aparılmış milli sorğunun nəticələrinə əsasən, həyatı boyu nə vaxtsa intim partnyor zorakılığına görə evlərini tərk etmiş qadınların təqribən yarısı (49 faiz) bir daha evinə qayıtmamışdır[66].

**Şəkil 5.3. Qadınlara qarşı zorakılıqdan zərər çəkmiş respondentlər, bu zorakılıqla bağlı şəxsi xərclər və aldıqları xəsarətlərin ağırlıq dərəcəsi üzrə bölgü, faizlə**




*Qeyd: sözügedən hallar 2017-ci ildə baş veriyi üçün (tədiqat dövründən əvvəl), 2017-ci ilin orta mübadilə göstəricisi tətbiq olunub: 1 ABŞ dolları = 1.721 AZN*

Eyni zamanda, qadınlara qarşı zorakılıqdan zərərçəkənlərin yaş qruplarından asılı olaraq ödədikləri orta xərclər baxımından müəyyən fərqlər müşahidə olunub (Şəkil 5.4). Daha gənc yaş qruplarına daxil olan qadınların çəkdikləri xərclər orta yaş qrupuna daxil olan qadınlarla müqayisədə daha az olub. Yaşı 30-dan aşağı olan respondentlərin əksəriyyəti işsiz qadınlar, tələbələr və evdar qadınlardan ibarət olub. Məhz buna görə də, bu qadınların az bir hissəsinin müəyyən şəxsi gəlirləri olub; onların qalan hissəsi ailə üzvlərinin hesabına yaşayıb və onlardan tam asılı olub. Bunu nəzərə alaraq, qadınlara qarşı zorakılıqdan zərər çəkən şəxslərin zorakılığın nəticələrini aradan qaldırmaq və yeni həyat qurmaq üçün çəkdikləri xərclərin məbləği onların yardıma olan faktiki

[66] UNFPA (2011). Azərbaycanda qadınlara qarşı zorakılıq üzrə milli sorğu hesabatı - 2008, Bakı: 237.

ehtiyaclarından deyil, malik olduqları resurslardan asılı olduğuna dair ehtimal irəli sürmək mümkündür. Müvafiq olaraq, sosial baxımdan xüsusi yardıma ehtiyacı olan qruplardan (məsələn, aztəminatlı, işsiz, əlilliyi olan qadınlar) olan qadınların zorakılıqla bağlı yardım xidmətlərinə olan ehtiyacları məhdud resurslara görəqarşılanmamış qala bilər.

Bununla yanaşı, şəhərlərdən (orta hesabla 2255 ABŞ dolları) və kənd yerlərindən (2324 ABŞ dolları) olan zərərçəkənlər arasında çəkilən xərclərin məbləğində nəzərəçarpan fərqlər müşahidə edilməyib. Bu baxımdan aparılmış müvafiq korrelyasiya göstərir ki, qadınlara qarşı zorakılıqdan zərər çəkən şəxslər adətən yaşayış yerindən asılı olmayaraq, eyni növ yardım xidmətlərinə ehtiyac duyur və onlar yerli səviyyədə xidmətlər olmadıqda yardım üçün mərkəzi şəhərlərə üz tutmalı olurlar.

**Şəkil 5.4. Qadınlara qarşı zorakılıqdan zərər çəkmiş respondentlər, bu zorakılıqla əlaqəli şəxsi xərclər və yaş qrupları üzrə bölgü**




*Qeyd: sözügedən hallar 2017-ci ildə baş veriyi üçün (tədiqat dövründən əvvəl), 2017-ci ilin orta mübadilə göstəricisi tətbiq olunub: 1 ABŞ dolları = 1.721 AZN*

Qadınlara qarşı zorakılığın zərərçəkənlərə və onların ev təsərrüfatlarına təsirlərinin iqtisadi təhlili kontekstində iqtisadi xərclərin ən böyük hissəsinin qadınların özləri tərəfindən qarşılandığını vurğulamaq vacibdir(Cədvəl 5.3). Belə ki, müsahibə götürülmüş zərərçəkənlərin 61 faizi aidiyyəti xərclərinözləri tərəfindən ödənildiyinə dair məlumat verib. Qadınların təqribən yarısı öz valideynləri, övladları və ya digər qohumları (44 faiz), habelə dostları, iş yoldaşları və digər tanışlarından (45 faiz) nağd formada yardım alıblar. Zərərçəkənlərin dörddə biri öz xərclərinin qarşılanması üçün tanımadıqları şəxslər, o cümlədən yardımçı QHT-lərin nümayəndələrindən müəyyən yardım alıb. Zərərçəkənlərin 11 faizi isə xərclərinin əsas etibarilə dövlət qurumları tərəfindən qarşılandığını bildirib. Bütün zərərçəkənlərin 6 faizi qadınlara qarşı zorakılıqla bağlı xərclərin ödənilməsi baxımından rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən yardım alıb. Onların 8 faizi ev təsərrüfatının büdcəsindən müəyyən vəsait götürməyə müvəffəq olub.

Qeyd olunmalıdır ki, qadınlara qarşı zorakılığın iqtisadi yükü təkcə zərərçəkənlərin ödəməli olduğu birbaşa nağd xərclərdən ibarət deyil və bu baxımdan bəzi ***mühüm qeyri-maddi təsirlər***

**Cədvəl 5.3. Qadınlara qarşı zorakılığa məruz qalmış respondentlər, *“Zorakılıqla əlaqədar ortaya çıxan ümumi xərclərinizin əsas hissəsini kim qarşılayıb?”* sualına verdikləri cavab üzrə bölgü, faizlə**

| Cavablar | Respondentlərin xüsusi çəkisi, faizlə |
| --- | --- |
| Zərərçəkənin özü (şəxsi vəsait) | 61 |
| Ailə büdcəsindən götürülmüş vəsait | 8 |
| Valideynlər, övladlar və ya digər qohumlar | 44 |
| Rəsmi/qeyri-rəsmi nikahda olduğu şəxs | 6 |
| Dostlar, iş yoldaşları, zərərçəkənin şəxsən tanıdığı və ailə üzvü olmayan digər şəxslər | 45 |
| Tanımadıqları şəxslər, o cümlədən QHT nümayəndələri | 25 |
| Dövlət qurumları | 11 |

*• cəmin 100%-dən çox olması bir neçə cavabın verilməsi imkanı ilə bağlıdır*

də müşahidə edilib (həyat keyfiyyətinin aşağı düşməsi, ailə üzvləri ilə əlaqə saxlamaqla bağlı problemlər, özünəhörmət hissinin aşağı düşməsi, digər şəxslərə qarşı inamsızlıq və s.). Zorakılığın psixoloji təsiri dərhal ortaya çıxan psixoloji problemlərlə gyekunlaşmayaraq, post-travmatik pozuntular, depressiya və intihar düşüncələrinə də təkan verə bilər.

Qadınlara qarşı zorakılıq nəticəsində təsadüf edilən qeyri-maddi təsirlərin başqa bir növü isə şəxsi hədəflərə nailolma, uğurlu karyera inkişafı, adekvat istirahət və asudə vaxtın təşkili üçün imkanların itirilməsi ilə bağlıdır. Psixoloqlar bəzən cinsi zorakılığın qarşı cinslə münasibətlərin mürəkkəbləşməsi, cinsi əlaqədən imtina və ya hamiləliyin planlaşdırılması ilə bağlı təsirləri kimi misallar gətirirlər. Çoxsaylı tədqiqatlar göstərir ki, valideynləri və yaxud digər ailə üzvləri arasında zorakılığa şahid olmuş uşaqlar adətən qeyri-normal davranışlara meylli olur, yetkinlik yaşına çatanda psixoloji pozuntulardan əziyyət çəkir və öz intim partnyoru və ailəsinə qarşı zərərli münasibətlər nümayiş etdirirlər.

Təəssüf ki, mövcud ekonometrik təhlil alətləri qadınlara qarşı zorakılığın qeyri-maddi təsirləri, o cümlədən mənəvi zərər, həyat keyfiyyətinin pisləşməsi və itirilmiş imkanların dəyərini qiymətləndirmək üçün etibarlı yanaşmalar təmin etmir. Ölkədə qadınlara qarşı zorakılığa məruz qalanlarla bağlı panel tədqiqatların aparılmadığına görə zorakılığın sonradan ortaya çıxan təsirləri baxımından müəyyən hesablamalar aparmaq xüsusilə çətindir[67]. Belə bir təhlil üçün zorakılığa məruz qalmış qadınların onlara dəyən mənəvi zərərin təqribi pul ekvivalentinə dair verdiyi təxmini hesablamalar yeganə məlumat mənbəsini təşkil edə bilər. Zorakılıq nəticəsində dəymiş zərər müqabilində ödəniləcək konkret təzminatın məbləğini müəyyən etməkqadınlar üçün çox çətin idi çünki onların çoxu zorakılığın onların həyatına etdiyi real təsirin ölçülməsini qeyri-mümkün hesab etmişdir: *“Bunu ölçmək qeyri mümkündür, mən sağlamlığımı itirmişəm və onun qiyməti yoxdur”, “Mənim həyatın tamamilə məhv olub. Onu necə ölçmək olar ki?”* Bununla belə, **mənəvi zərərə görə məqbul təzminat məbləğini təxminən qeyd edən qadınların göstərdiyi məbləğ orta hesabla 20 000 ABŞ dolları təşkil edib.**

[67] Panel tədqiqat qısa və yaxud da uzun müddət ərzində eyni dəyişənlərin mütəmadi müşahidələrinə əsaslanmış metodologiya üzrə keçirilmiş tədqiqatdır.

# 6



## “Azərbaycanda qadınlara qarşı zorakılığın doğurduğu məcmu iqtisadi xərclər (simulyasiya modeli əsasında)”

Bu hesabatın əvvəlki bölmələrində nümayiş etdirildiyi kimi, qadınlara qarşı zorakılıq cinayətlərinin rəsmi statistikası əhali arasında faktiki baş verən hadisələrin yalnız kiçik bir hissəsini əks etdirir. Yaşadıqları icmalarda zorakılıq qurbanına münasibətdə üstünlük təşkil edən ictimai qınaq, və yaxud da təhlükəsizlik və konfidensiallıq məsələlərindən ehtiyat etdikləri üçün, az gender əsaslı zorakılıqdan zərər çəkmiş qadınların yalnız kiçik bir hissəsi yardım üçün müvafiq xidmətlərə müraciət edir. Mövcud xidmətlərdən məlumatsızlıq, dövlət qurumlarına inamsızlıq və yerli səviyyədə ixtisaslaşmış xidmətlərin olmaması da cinsi və məişət zorakılığı ilə bağlı halların üzə çıxmamasını əngəlləyən geniş yayılmış səbəblərdəndir.

Buna görə də, cəmiyyətdə qadınlara qarşı zorakılığın iqtisadi yükü ilə bağlı etibarlı göstəricilər əldə etmək üçün, qeydə alınmış zorakılıq hadisələri latentlik səviyyələri nəzərə alınmaqla uyğunlaşdırılmalıdır. Zorakılıqla üzləşən qadınlar tibbi yardım üçün müraciət etdikdə, aldıqları xəsarətlərin real səbəblərini nadir hallarda açıqlayırlar. Zərərçəkənlərin yalnız məhdud bir hissəsi zorakılıqdan qorunmaq və zorakılığı törətmiş şəxsin məsuliyyətə cəlb edilməsi üçün hüquq-mühafizə orqanlarına müraciət edirlər. Məhz buna görə də, beynəlxalq təcrübədə gender əsaslı zorakılığın səbəb olduğu xərcləri hesablamaq məqsədi ilə ev təsərrüfatlarına əsaslanan xüsusi sorğulardan istifadə edilir.

BMT-nin Əhali Fondunun 2008-ci ildə Azərbaycanda keçirdiyi milli sorğunun nəticələrinə əsasən[68], nə vaxtsa rəsmi və ya qeyri-rəsmi nikahda olmuş bütün qadınların 5 faizi bildirib ki, onlar son 12 ay ərzində intim partnyoru tərəfindən fiziki zorakılığa məruz qoyulub, qadınların 3 faizi isə cinsi zorakılığa məruz qaldığına dair məlumat verib. Bununla yanaşı, həyatı boyu nə vaxtsa intim partnyor zorakılığından zərərçəkənlərin bir faizindən azı səlahiyyətli orqanlara, tibb müəssisələrinə və hüquq-mühafizə orqanlarına müraciət edib.

Bu faiz göstəricilərinin Azərbaycanın 15-49 yaşlı bütün qadın əhalisinə (DSK-nın məlumatına əsasən, 2017-ci ildə 2648.1 min nəfər) tətbiq edilməsi simulyasiya vasitəsilə əhali arasında fiziki və cinsi zorakılığa məruz qalan şəxslərin şərti göstəricilərini müəyyən etməyə imkan verir. Bundan sonra isə rəsmi statistikada əksini tapmayan, lakin zərərçəkənlərə göstərilən xidmətlərdən (məsələn, tibb xidmətlərindən) faydalana biləcək bütün şəxslərin təqribi sayı müəyyən edilir. Bu cür hesablama metodologiyasına əsasən, **2017-ci ildə Azərbaycanda ən azı 132.4 min nəfərin fiziki zorakılığa, 79.4 min nəfərin isə cinsi zorakılığa məruz qaldığını ehtimal etmək olar (Cədvəl 6.1).**

**Cədvəl 6.1. 2017-ci ildə fiziki və ya cinsi zorakılığa məruz qalan qadınların və yardım üçün müraciət edən qadınların təqribi ümumi sayı (BMT-nin Əhali Fondunun 2008-ci ildə aparılan sorğusuna əsaslanan simulyasiya modelinə əsasən)**

| | Qadın əhalinin ümumi sayı, min nəfər | Məşğul qadın əhalinin sayı, min nəfər |
|---|---|---|
| 15-49 yaşda olan qadınların ümumi sayı, onlardan: | 2,648.1 | 1,769.6 |
| Son 12 ay ərzində fiziki zorakılığa məruz qalan qadınlar (5 faiz-BMT-nin Əhali Fondu, 2008) | 132.4 | 88.5 |
| Son 12 ay ərzində cinsi zorakılığa məruz qalan qadınlar (3 faiz-BMT-nin Əhali Fondu, 2008) | 79.4 | 53.1 |
| Fiziki və cinsi zorakılığa məruz qalan qadınların ümumi sayı, onlardan: | 211.8 | 141.6 |

*Mənbə: DSK-nın məlumatları və BMTnin Əhali Fondunun 2008-ci ildə qadınlara qarşı zorakılıq üzrə milli sorğu hesabatına əsasən təqribi hesablanıb*

[68] UNFPA (2011). Azərbaycanda qadınlara qarşı zorakılıq üzrə milli sorğu hesabatı - 2008, Bakı: 237.

Bu tədqiqatın metodoloji yanaşmalarına uyğun olaraq, itirilmiş (gerçəkləşməyən) məhsuldarlıq təkcə məşğul əhaliyə münasibətdə hesablanır. Buna görə də, qadınlara qarşı zorakılığın doğurduğu iqtisadi xərclərin əsaslandırılmış modelini hazırlamaq üçün 15-49 yaşlı məşğul qadınlar (DSK-nın məlumatına əsasən, 1769.6 min nəfər) arasında potensial zərərçəkənlərin sayı ilə bağlı əlavə məlumatlar tələb olunur. Qadın əhalinin bu seçməsini qadınlara qarşı zorakılığın yayılma səviyyəsinə görə uyğunlaşdırdıqda məlum olur ki, 2017-ci ildə fiziki zorakılığa məruz qalan məşğul qadınların sayı 88.5 min nəfər, cinsi zorakılığa məruz qalan məşğul qadınların sayı isə 53.1 min nəfər təşkil edib. Beləliklə, qadınlara qarşı zorakılığın təsirinə məruz qalan məşğul qadınların ümumi sayı ən azı 141.6 min nəfər olub (Cədvəl 6.1).

Növbəti addım isə zorakılıq nəticəsində xəsarət almış qadınların şərti sayını müəyyən etməkdən ibarət idi. Bu göstəricilər zərərçəkənlərin ehtiyac duyduğu səhiyyə xidmətlərinin həcmi, həmçinin itirilmişəmək qabiliyyəti və xəstəlik səbəbindən itirilmiş məhsuldarlığı hesablamaq üçün tələb olunur. BMT-nin Əhali Fondunun 2008-ci ildə apardığı sorğunun nəticələrinə görə, cinsi və/yaxud fiziki zorakılığa məruz qalan qadınların 29 faizi müəyyən xəsarətlər aldıqlarını bildirib[69]. Bu faiz göstəricisini əhali arasında zərərçəkənlərin potensial sayına tətbiq etdikdə (Cədvəl 6.2), xəsarət almış qadınların sayının 61.4 min nəfərə təşkil etdiyini ehtimal etmək mümkündür. Bundan əlavə, təqribən 72 min qadın qadınlara qarşı zorakılıq nəticəsində rifahına mənfi təsir göstərən psixoloji streslə üzləşdiyini bildirib.

**Cədvəl 6.2. 2017-ci ildə Azərbaycanda fiziki və cinsi zorakılıq nəticəsində xəsarətlər almış qadınların təqribi sayı (BMT-nin Əhali Fondunun 2008-ci ildə apardığı sorğuya əsaslanan simulyasiya modeli)**

| | Qadın əhalinin ümumi sayı | | | | | Məşğul qadın əhalinin sayı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Fiziki zorakılıqdan zərərçəkənlər | | Cinsi zorakılıqdan zərərçəkənlər | | QQZ-dən zərərçə-kənlərin ümumi sayı, min nəfər | Fiziki zorakılıqdan zərərçəkənlər | | Cinsi zorakılıqdan zərərçəkənlər | | QQZ-dən zərərçə-kənlərin ümumi sayı, min nəfər |
| | % | min nəfər | % | min nəfər | | % | min nəfər | % | min nəfər | |
| 15-49 yaşda olan zərərçəkənlərin ümumi sayı, onlardan: | 100 | 132.4 | 100 | 79.4 | 211.8 | 100 | 88.5 | 100 | 53.1 | 141.6 |
| - zorakılıqla əlaqəli xəsarətlərin sayı*, onlardan: | 29 | 38.4 | 29 | 23.0 | 61.4 | 29 | 25.7 | 29 | 15.4 | 41.1 |
| yüngül xəsarətlər** | 32 | 11.1 | ş.e. | ş.e. | 11.1 | 32 | 8.2 | ş.e. | ş.e. | 8.2 |
| az ağır xəsarətlər ** | 23 | 8.8 | ş.e. | ş.e. | 8.8 | 23 | 5.9 | ş.e. | ş.e. | 8.25.9 |
| ağır xəsarətlər** | 13 | 5.0 | ş.e. | ş.e. | 5.0 | 13 | 3.3 | ş.e. | ş.e. | 3.3 |
| - psixoloji stress** | 34 | 45.0 | 34 | 27.0 | 72.0 | 34 | 30.1 | 34 | 18.1 | 48.1 |

*Mənbə: DSK-nın məlumatları və BMT-nin Əhali Fondunun 2008-ci ildə qadınlara qarşı zorakılıq üzrə milli sorğu hesabatı əsasında təqribi hesablama*

** BMT-nin Əhali Fondunun 2008-ci ildə Azərbaycanda qadınlara qarşı zorakılıq üzrəmilli sorğu hesabatına əsaslanır*

*** bu tədqiqat çərçivəsində qadınlara qarşı zorakılıqdan zərərçəkənlər arasında aparılmış xüsusi sorğuya əsaslanır*

[69] Eyni mənbə.

Bu tədqiqat çərçivəsində qadınlara qarşı zorakılıqdan zərərçəkənlər arasında aparılmış sorğu şərti əhali seçməsinə şamil edilən xəsarət formaları barədə məlumatla təmin edir. Belə ki, respondentlərin 32 faizi yüngül xəsarətlər (kəsiklər, yarmalar, dişləmələr, sıyrıqlar və qançırlar), 23 faizi az ağır xəsarətlər (çıxıqlar, burxulmalar, yanıqlar və s.), 13 faizi isə ağır xəsarətlər aldığını bildirib. Nəticə etibarilə, qadınlara qarşı zorakılıq nəticəsində yüngül xəsarət almış zərərçəkənlərin potensial sayı 11 min nəfər, az ağır xəsarətlər almış şəxslərin sayı 8.8 min nəfər, ağır xəsarətlər almış şəxslərin sayı isə 5 min nəfər ola bilərdi (Cədvəl 6.2). Şübhəsiz ki, onların bir çoxu tibb müəssisələrinə müraciət edərək, müəyyən yardım alıb, lakin onların müraciətləri konfidensiallıq məsələləri ilə əlaqədar olaraq sənədləşdirilməyib.

Qadınlara qarşı zorakılığın doğurduğu potensial maliyyə sərfiyyatını hesablamaq üçün zorakılığa məruz qalmış şəxslərin ekstrapolyasiya üsulu ilə uyğunlaşdırılmış sayı spesifik yardım xidmətlərinin ilkin “vahid qiymət”lərinə tətbiq edilmişdir. Qeyd edilməlidir ki, bu cür statistik əməliyyatlar yalnız yüksək latentlik səviyyələrinə malik hadisələr, xüsusilə qadınlara qarşı zorakılıqla bağlı xəsarətlərin təsirləri və zərərçəkənlərin tibb xidmətlərinə ehtiyacına tətbiq edilə bilər. İnzibati məlumatlarda (məs. cinayətlər, sosial xidmətlərin göstərilməsi) əhatəli şəkildə təsvir olunan xərc maddələrinə hər hansı əlavə uyğunlaşdırmaların edilməsinə ehtiyac yoxdur .

***1. İtirilmiş (gerçəkləşməyən) ümumi məhsul buraxılışı.***

Tətbiq edilmiş yanaşmalara əsasən, itirilmiş ümumi məhsul buraxılışı aşağıdakı xərc qruplarını özündə ehtiva edir: 1) qadınlara qarşı zorakılıq nəticəsində baş vermiş erkən ölümlər; 2) zərərçəkənlərin əmək qabiliyyətini müvəqqəti itirməsi nəticəsində itirilmiş ÜDM; 3) zərərçəkənlərin əmək qabiliyyətini birdəfəlik itirməsi (əlillik) nəticəsində itirilmiş ÜDM; 4) qadınlara qarşı zorakılıq nəticəsində əmək qabiliyyətinin birdəfəlik itirilməsinə (əlilliyə) görə müavinətlərin ödənişi; 5) zərərçəkənlərin gündəlik ev işlərinin yerinə yetirilməsi baxımından məhsuldarlığının aşağı düşməsi ilə əlaqəli iqtisadi zərər. “Vahid qiyməti” göstəriciləri Bölmə 3-də əsaslandırılmışdır (yəni, hər məşğul şəxsə düşən ÜDM, xəsarət almış zərərçəkənlərin əmək qabiliyyətini itirdiyi müddətin orta uzunluğu, minimum əmək haqqı və əmək qabiliyyətinin birdəfəlik itirilməsinə görə orta müavinətin məbləği). Beləliklə, “ən məqbul hal” ssenarisi üzrə uyğunlaşdırılmış rəqəmlər aşağıdakı kimi hesablana bilər:

1. Məşğul qadınların erkən ölümü: 99 qadın ölümü x 8440 ABŞ dolları (hər il hər məşğul şəxsə düşən ÜDM) = 838 555 ABŞ dolları;

2. Xəsarət almış qadınların əmək qabiliyyətini müvəqqəti itirməsi nəticəsində ÜDM itkisi: yüngül xəsarət almış 8200 qadın × əmək qabiliyyətinin itirildiyi 5 gün × 35 ABŞ dolları (hər məşğul şəxsə düşən gündəlik ÜDM) + az ağır xəsarətlər almış 5900 qadın × əmək qabiliyyətinin itirildiyi 21 gün × 35 ABŞ dolları (hər məşğul şəxsə düşən gündəlik ÜDM) + ağır xəsarətlər almış 3300 qadın × əmək qabiliyyətinin itirildiyi 42 gün × 35 ABŞ dolları (hər məşğul şəxsə düşən gündəlik ÜDM) = 10 622 500 ABŞ dolları;

3. Qadınlara qarşı zorakılıq nəticəsində əmək qabiliyyətinin qismən itirilməsi nəticəsində ÜDM itkisi: Ağır xəsarətlər almış 3300 qadın × 15 faiz (qadınlara qarşı zorakılıq nəticəsində əmək qabiliyyətinin qismən itirilməsi səviyyəsi) × 2532 ABŞ dolları (hər məşğul şəxsə düşən ÜDM-in illik həcminin 1/3-i) = 1 253 340 ABŞ dolları;

4. Qadınlara qarşı zorakılıq nəticəsində əmək qabiliyyətinin birdəfəlik itirilməsinə görə müavinətlər: ağır xəsarətlər almış 3300 qadın × 5 faiz (qadınlara qarşı zorakılıq nəticəsində əmək qabiliyyətinin birdəfəlik itirilməsi əmsalı) × 100 ABŞ dolları (əmək qabiliyyətinin birdəfəlik itirilməsinə görə orta müavinət) × 12 ay = 198 000 ABŞ dolları;

**5.** Ev işlərinin yerinə yetirilməsi baxımından məhsuldarlığın aşağı düşməsi nəticəsində itirilmiş ümumi məhsul buraxılışı: Fiziki və cinsi zorakılıq nəticəsində xəsarət almış 41100 nəfər × 76 faiz (məhsuldarlığının azaldığını bildirən zərərçəkənlər) × 20 gün (məhsuldarlığın aşağı düşdüyü orta müddət) × 3.4 ABŞ dolları (gündəlik orta minimum əmək haqqı) = 2 124 048 ABŞ dolları.

Müvafiq olaraq, 2017-ci ildə qadınlara qarşı zorakılıq nəticəsində itirilmiş ümumi məhsul buraxılışı **14 815 943 ABŞ dollarına** qədər (rəqəmləri latentlik səviyyələrinə görə uyğunlaşdırmaqla) maliyyə vəsaiti təşkil edə bilərdi.

### *2. Qadınlara qarşı zorakılıqla mübarizə üzrə görülən cavab tədbirləri və zərərçəkənlərə göstərilən yardım xidmətlərinin dəyəri.*

Qadınlara qarşı zorakılıqla mübarizə üzrə görülən cavab tədbirlərinə sərf olunan maliyyə vəsaiti aşağıdakıları əhatə edir: səhiyyə, hüquq-mühafizə və sosial xidmətlər, ixtisaslaşmış xidmətlərin (məsələn, sığınacaqlar, qaynar xətlər və digər ünvanlı proqramlar) maliyyələşdirilməsi.

Tibbi statistikada müvafiq təsnifləndirmənin olmamasına görə qadınlara qarşı zorakılıqdan zərərçəkənlərə göstərilən *səhiyyə xidmətlərinin* birbaşa hesablanmasının mümkün olmaması artıq 4.1-ci bölmədə qeyd olunmuşdur. “Standart” ssenari əsasında hesablama aparmaq üçün “vahid qiyməti” qadınlara qarşı zorakılıqdan zərərçəkənlərin qeydə alınmış sayına (bax: Bölmə 4.1) tətbiq edilmişdir. Buna baxmayaraq, , bu rəqəmlərin qadınlara qarşı zorakılığın yayılma səviyyəsi ilə bağlı real vəziyyəti əks etdirmədiyi hesab edilir. 2008-ci ildə qadınlara qarşı zorakılıq üzrə keçirilmiş milli sorğunun nəticələrinə əsaslanaraq, 2017-ci ildə cinsi zorakılığa məruz qalanların potensial sayının 79.4 min nəfər ola biləcəyini ehtimal etmək mümkündür. Onların isə yalnız 1 faizi yardım üçün tibb müəssisələrinə müraciət etdiyinə dair məlumat verib. Buna görə də, ehtimal etmək olar ki, ən azı 794 qadın məruzqalmadan sonrakı profilaktik xidmətlərdən faydalanıb, onların üçdə biri isə ağır xəsarətlərlə əlaqədar əlavə müalicəyə ehtiyac duyub. Tələb olunan minimum icbari tibbi müalicə dəstinin təqribi dəyərini (bax: Bölmə 4.1) nəzərə alaraq, 2017-ci ildə səhiyyə xərclərinin ümumi məbləği **9 830 766 ABŞ dollarına** bərabər ola bilərdi:

**1.** Cinsi zorakılıqdan zərərçəkənlər üçün səhiyyə xidmətləri: 529 qadın (potensial cinsi zorakılıq qurbanlarının 2/3-i) × 584 ABŞ dolları + daha travmatik xəsarətlər almış 265 qadın (potensial zərərçəkənlərin 1/3-i) × 1022 ABŞ dolları = 579 766 ABŞ dolları;

**2.** Məişət zorakılığından zərərçəkənlər üçün səhiyyə xidmətləri: yüngül xəsarətlər almış 11 100 nəfər × 50 ABŞ dolları + az ağır xəsarətlər almış 8800 qadın × 420 ABŞ dolları + ağır xəsarətlər almış 5000 qadın × 1000 ABŞ dolları = 9 251 000 ABŞ dolları.

*Hüquq-mühafizə orqanları tərəfindən zorakılıqla mübarizə üzrə görülən cavab tədbirlərə dair məlumatlar* cinayətlər üzrə qeydə alınmış rəsmi statistikada ətraflı şəkildə öz əksini tapıb. Azərbaycanda məişət zorakılığı cinayətlərinin təhlilinə imkan verən təsnifləndirilmiş məlumatlar olmadığına görə, 2017-ci ildə verilmiş mühafizə orderləri ilə bağlı məlumatlar, məişət zorakılığı ilə bağlı qeydə alınmış cinayətlərin sayı və məhkum edilmiş şəxslərin ümumi sayında qadınlara qarşı zorakılıqla əlaqədar məhkum edilmiş şəxslərin təqribi xüsusi çəkisi kimi məlumatlardan istifadə edilmişdir. Hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilən “standart” cavab tədbirlərinə sərf olunmuş təqribi maliyyə vəsaitləri polis əməkdaşlarının və birinci instansiya məhkəmələrinin işçilərinin orta əmək haqqı, həmçinin məhkum edilmiş şəxslərin saxlanmasının doğurduğu gündəlik xərclər əsasında, aşağıdakı qaydada təsvir edilə bilər:

**1.** mühafizə orderləri: 10 qısamüddətli mühafizə orderi × 9 ABŞ dolları + 24 uzunmüddətli mühafizə orderi × 9 ABŞ dolları = 306 ABŞ dolları;

**2.** cinayətlər:(964 məişət zorakılığı cinayəti + 37 zorlama) × 616 ABŞ dolları = 616616 ABŞ dolları;

**3.** məhkum edilmiş şəxslərin saxlanması ilə bağlı penitensiar sistemin xərcləri: 447 nəfər × 5.3 ABŞ dolları/gün × 365 gün = 864 722 ABŞ dolları.

Beləliklə, 2017-ci ildə hüquq-mühafizə orqanları və cinayət mühakimə sisteminin qadınlara qarşı zorakılıq halları ilə mübüarizə məqsədi ilə həyata keçirdiyi cavab tədbirlərinin ümumi dəyəri **1 481 644 USD** ola bilərdi.

Məişət zorakılığından zərər çəkmiş şəxslərə göstərilən ixtisaslaşmış xidmətlərin doğurduğu xərclərə zorakılığın latentlik səviyyələri elə də təsir göstərmir, çünki bu rəqəmlər sosial müdafiə orqanlarına və ixtisaslaşmış sığınacaqlarla zorakılıqla bağlı edilən bütün müraciətlərə dair məlumatı əks etdirir:

**1.** Dövlət qurumları tərəfindən zərərçəkənlərə göstərilən sosial xidmətlər (sosial reabilitasiya, psixoloji yardım, peşə təlimi və sığınacaqlara göndəriş): 6100 ABŞ dolları;

**2.** Zərərçəkənlərə ixtisaslaşmış dəstək (QHT-lər tərəfindən idarə olunan sığınacaq) 58000 ABŞ dolları;

**3.** Beynəlxalq təşkilatların ünvanlı tədbirləri (təşviqat, maarifləndirmə, təşkilati potensialın təkmilləşdirilməsi): 500 000 ABŞ dolları.

Beləliklə, 2017-ci ildə zorakılığa məruz qalmış qadınlara göstərilən ixtisaslaşmış yardım xidmətlərinin ümumi dəyəri **564100 ABŞ dolları** ola bilərdi.

Bunu nəzərə alaraq, qadınlara qarşı zorakılıq halları baş verdikdə tibbi yardım xidmətlərinə müraciətlərin latentlik səviyyəsinə görə uyğunlaşdırmaları etdikdən sonra, 2017-ci ildə həyata keçirilən cavab tədbirlərinin, o cümlədən zərərçəkənlərə təqdim olunan səhiyyə, hüquq-mühafizə və ixtisaslaşmış xidmətlərin ümumi dəyərinin **1 481 644 ABŞ dolları olduğunu söyləmək mümkündür.**

***3. Qadınlara qarşı zorakılıqdan zərərçəkənlərin özlərinin ödədikləri xərclər*** sözügedən zorakılığın doğurduğu məcmu iqtisadi xərclərin ən mühüm tərkib hissələrindəndir. Maliyyə sərfiyyatının bu kateqoriyasına itirilmiş şəxsi əmlak və/yaxud gəlir, həmçinin, zərərçəkənlərin qadınlara qarşı zorakılığın mənfi nəticələrini aradan qaldırmaq və zorakılığı törətmiş şəxslərdən ayrılmaq üçün istifadə etdiyi xidmətlərin xərcləri daxildir. Bu tədqiqat çərçivəsində zorakılığa məruz qalmış qadınlar arasında aparılmış sorğuya əsasən, məişət zorakılığına məruz qalmış qadınların 90 faizi öz əmlakını, 61 faizi isə müəyyən qazancını itirdiyinə dair məlumat verib. 2017-ci ildə məişət zorakılığından zərərçəkənlərin sayı şərti olaraq 211800 nəfər olaraq hesablanmışdır. Buna görə də, güman etmək mümkündür ki, qadınlara qarşı zorakılıq nəticəsində 190600 nəfər qadın müəyyən maddi itkilərə məruz qalıb, 129200 qadın isə maliyyə mənbəyini itirib. Respondentlərin verdiyi məlumatlara əsasən, itirilmiş əmlakın orta dəyəri 2807 ABŞ dolları, itirilmiş gəlirlərin orta məbləği isə 721 ABŞ dolları təşkil edib. Bu səbəbdən, 2017-ci ildə zorakılığa məruz qalmış qadınların üzləşdiyi maddi itkilərin ümumi məbləği aşağıdakı kimi hesablana bilər:

**1.** İtirilmiş şəxsi əmlak: 190600 nəfər qadın × 2807 ABŞ dolları = 535 014 200 ABŞ dolları;

**2.** İtirilmiş gəlir: 129200 nəfər qadın × 721 ABŞ dolları = 93 153 200 ABŞ dolları.

Bundan əlavə, zorakılığa məruz qalmış qadınlar zorakılığın fəsadlarını aradan qaldırmaq və

müəyyən yardım almaq üçün öz şəxsi vəsaitlərindən də istifadə etməli olub. BMT-nin Əhali Fondunun 2008-ci ildə qadınlara qarşı zorakılıqla bağlı apardığı milli sorğuya əsasən, zorakılıqdan zərər çəkmiş qadınların 39 faizi müəyyən yardım üçün müraciət edib. Beləliklə, şərti olaraq hesab etmək olar ki,, zərərçəkənlərin yalnız bu hissəsi (82602 qadın) zorakılığın fəsadlarını aradan qaldırmaq üçün öz şəxsi vəsaitlərini xərcləməli olub. Ölkə səviyyəsində bu xərclərin məcmu məbləği aşağıdakı kimidir:

**3.** Zorakılığın təsirlərini aradan qaldırmaq üçün şəxsi xərclər: yardım üçün müraciət edən 82602 qadın × 1324 ABŞ dolları (şəxsi xərclərin orta məbləği) = 109 365 048 ABŞ dolları.

Beləliklə, 2017-ci ildə zorakılığa məruz qalmış qadınların maddi itkilərinin və nağd xərclərinin ümumi məbləği **737 532 448 ABŞ dolları** təşkil edə bilərdi.

Azərbaycanda qadınlara qarşı zorakılığın doğurduğu iqtisadi xərclərin təqribi məbləğini ümumiləşdirildikdə (latentlik səviyyələrinə görə uyğunlaşdırılmış simulyasiya modelinə əsasən), 2017-ci ildə qadınlara qarşı zorakılığın doğurduğu iqtisadi yükün ümumilikdə təqribən **764 milyon ABŞ dolları təşkil etdiyini ehtimal etmək mümkündür.** Əldə olunmuş bu nəticələrə əsasən zorakılığın səbəb olduğu maliyyə məsrəfləri **2017-ci ildə** rəsmi şəkildə qeydə alınmış zorakılıq hadisələrinin iqtisadi ekvivalentindən 240 dəfə çoxdur (müvafiq olaraq, 2.8 milyon USD) və ölkənin **həmin il üçün olan ÜDM-nin 1.8%-nə** bərabərdir.

2017-ci ildə Azərbaycanda qadınlara qarşı zorakılığın məcmu iqtisadi xərclərinin məsarif kateqoriyaları üzrə icmalı Cədvəl 6.3-də əks olunub. "Standart" ssenari fiziki və cinsi zorakılıq nəticəsində xəsarət almış qadınların qeydə alınmış sayı, qeydə alınmış cinayətlər və göstərilən sosial xidmətlərlə bağlı inzibati məlumatlara əsaslanır. "Ən yaxşı hal" ssenarisi qadınlara qarşı zorakılığın potensial qurbanlarının sayının latentlik səviyyələrinə görə uyğunlaşdırma əsasında edilmiş simulyasiyanın nəticələrini əks etdirir (məs. 15-49 yaşda olan qadınlar arasında qadınlara qarşı zorakılığın yayılma səviyyəsi, yardım üçün müraciət etmiş qadınların xüsusi çəkisi, fiziki və cinsi zorakılıqla bağlı xəsarətlərə təsadüf edilmə səviyyəsi və s.).

Qadınlara qarşı zorakılığın yayılma səviyyəsini ümumi əhaliyə tətbiq etdikdə, son 12 ay ərzində zorakılıqla üzləşmiş qadınların şərti sayının 211800 nəfərə çatdığını ehtimal etmək mümkündür. Şübhəsiz ki, qadınlara qarşı zorakılığın doğurduğu iqtisadi xərclərin ən böyük yükü zərərçəkənlərin özlərinin üzərinə düşür. Sorğuya cəlb olunan zorakılığa məruz qalmış qadınların təxminən 90 faizi müəyyən şəxsi maddi itiklərə məruz qaldığını və əmlakını itirdiyini bildirib; bu itkilərin orta məbləği təqribən 2800 ABŞ dolları olub. Bu rəqəmləri ümumi əhali arasında zorakılığa məruz qalmış qadınların şərti sayına görə tətbiq etdikdə, cəmiyyətin üzərinə düşən təqribi iqtisadi xərclərin 500 milyon ABŞ dollarından da çox ola biləcəyini söyləmək mümkündür.

Bundan əlavə, yardım xidmətləri məhduddursa və ya əlçatan deyilsə, bir çox zərərçəkənlər tibbi müalicə, dərman vasitələri, hüquqi məsləhət, psixoloji yardım və s. kimi önəmli xidmətlərdən istifadə etmək üçün öz vəsaitlərini xərcləməli olur. Məişət zorakılığı ilə üzləşən qadınlar üçün sığınacaqların çatışmamasına görə, zərərçəkənlər zorakılığı törətmiş şəxslərdən ayrıldıqdan sonra öz vəsaitləri hesabına təhlükəsiz mənzil kirayə götürməli və yeni həyatlarını qurmalı olurlar.
Təqribi xərclərin məbləğinin çox olmasına baxmayaraq, zorakılığın iqtisadi yükünün qiymətləndirilməsi üzrə müvafiq məlumatlar, metodologiyalar və yanaşmaların olmamasına görə, qadınlara qarşı zorakılığın törətdiyi bir çox fəsadların aradan qaldırılmasına sərf olunan məbləğlər cari hesablamalarda əks edilməyib. Belə ki, ölkədə hüquq-mühafizə orqanlarının məişət zorakılığına qarşı gördüyü cavab tədbirləri ilə bağlı məlumatlar məhduddur və bu məlumatlar inzibati hüquqpozmalar, qadınlara qarşı zorakılıqla bağlı inzibati həbslər, məişət zorakılığı ilə bağlı işlər üzrə məhkəmə qərarları və digər göstəricilər üzrə təsnifləndirilmiş statistik məlumatlar hesabına genişləndirilməlidir.

Qadınlara qarşı zorakılığın səbəb olduğu dolayı xərclər, o cümlədən reproduktiv sağlamlığa vurduğu zərərlər, cinsi yolla ötürülən infeksiyaların və arzuolunmaz hamiləliklərin baş verməsi, nəsilvermə və nikaha daxil olmaya mənfi təsiri, nəsillərarası münasibətlərə təsiri və s. bu təqribi hesablamalarda əks edilməyib. Qadınlara qarşı zorakılığın qeyri-maddi təsirləri (məsələn, zərərçəkənlərin və ailədə zorakılıq hərəkətlərinə şahid olan uşaqların keçirdiyi emosional stres) özünü sonradan büruzə verdiyindən, onların iqtisadi fəsadları uzunmüddətli perspektivdə ortaya çıxır.

Yekun olaraq qeyd etmək lazımdır ki, *məcburi nikahların* iqtisadi nəticələri də bu hesabatda qiymətləndirilməyib. Lakin erkən nikahların qızların təhsil səviyyəsinin aşağı olması, əmək bazarında əlverişsiz mövqedə olması, gəlirlərinin aşağı olması və sosial baxımdan həssas vəziyyətdə olması ilə birbaşa əlaqəsinin olması geniş ictimaiyyət tərəfindən qəbul edilir.

Faktiki olaraq, bu tədqiqat çərçivəsində **qadınlara qarşı zorakılıqdan zərərçəkənlər arasında aparılmış sorğu respondentlərinin 43 faizi məcburi nikaha məruz qalıb, onların nikaha daxil olduğu orta yaş 16 olub.** Bu qadınların 40 faizi nikaha daxil olduqları üçün orta təhsili tamamlaya bilmədiyinə dair məlumat verib, 21 faizi isə sonradan peşə təhsili almağa müvəffəq olmayıb. Bundan başqa, məcburi şəkildə nikaha daxil olmuş qadınların 39 faizi iş tapa bilməyib. Bu tendensiyaların iqtisadi nəticələri hələ ətraflı şəkildə tədqiq olunmasa da, onların qadınların bütün həyatı boyu təkcə özlərinə deyil, həm də uşaqları və ailələri, icmaları, mənsub olduqları cəmiyyətlər və ya ölkələrinə çoxsaylı mənfi təsirlər göstərdiyi şübhə doğurmalı deyil.



**Cədvəl 6.3. 2017-ci ildə Azərbaycanda qadınlara qarşı zorakılığın doğurduğu məcmu xərclər**

| Xərc qrupları | Xərc maddəsi | Qeydə alınmış zərərçəkənlərin/ zorakılığı törətmiş şəxslərin sayı | "Standart" ssenari, ABŞ dolları ilə | "Ən məqbul hal" ssenarisi, ABŞ dolları ilə |
|---|---|---|---|---|
| **1. İtirilmiş (gerçəkləşməyən) ümumi məhsul buraxılışı** | | | | |
| Əhalinin bərpaolunmaz itkisi | Həyatını itirmiş şəxslər (erkən ölüm) | 22 (min.) – 99(maks.) | 183,619 | 838,555 |
| Əhalinin bərpaolunmaz itkisi | Zərərçəkənlərin aldıqları xəsarət nəticəsində əmək qabiliyyətinin müvəqqəti itirilməsi | 544 (min.) – 17,100 (maks.) | 167,895 | 10,622,500 |
| | Əmək qabiliyyətinin birdəfəlik itirilməsi (əlilliyə görə müavinətlər) | 2 (min.) – 165 (maks.) | 2,340 | 198,000 |
| | Xəsarətlər səbəbindən əmək qabiliyyətinin qismən itirilməsi (itirilmiş ÜDM) | 82 (min.) – 495 (maks.) | 207,624 | 1,253,340 |
| | Ödənişsiz ev işlərinin icrası baxımından məhsuldarlığın aşağı düşməsi | 730 (min.) – 31,208 (maks.) | 49,640 | 2,124,048 |
| | **Bərpaolunan itkilərin ümumi həcmi** | | **427,299** | **13,977,388** |
| **Cəmi – itirilmiş ümumi məhsul buraxılışı** | | | **611,118** | **14,815,943** |

<table>
<tr><td colspan="6">2. Qadınlara qarşı zorakılıqla bağlı cavab tədbirləri və zərərçəkənlərə yardım xidmətlərinin dəyəri</td></tr>
<tr><td rowspan="3">Səhiyyə</td><td>Cinsi zorakılıq</td><td>37 (min.) – 794 (maks.)</td><td colspan="2">29,874</td><td>579,766</td></tr>
<tr><td>Məişət zorakılığı (xəsarətlər).</td><td>885 (min.) – 25,700 (maks.)</td><td colspan="2">93,520</td><td>9,251,000</td></tr>
<tr><td colspan="2">Cəmi</td><td colspan="2">123,394</td><td>9,830,766</td></tr>
<tr><td rowspan="4">Hüquq-mühafizə orqanları və penitensiar müəssisələr</td><td>Mühafizə orderləri</td><td colspan="2">10 qısamüddətli və 24 uzunmüddətli</td><td colspan="2">306</td></tr>
<tr><td>Cinayətlərin araşdırılması</td><td colspan="2">964 məişət zorakılığı cinayəti və 37 zorlama</td><td colspan="2">616,616</td></tr>
<tr><td>Məhkumların cəzaçəkmə müəssisələrində saxlanması</td><td colspan="2">447</td><td colspan="2">864,722</td></tr>
<tr><td colspan="2">Cəmi</td><td colspan="3">1,481,644</td></tr>
<tr><td rowspan="4">Zərərçəkənlərə ixtisaslaşmış yardım</td><td>Məişət zorakılığından zərərçəkənlərə göstərilən sosial xidmətlər</td><td colspan="2">28</td><td colspan="2">6,100</td></tr>
<tr><td>Sığınacaq (QHT)</td><td colspan="2">50 (maks.)</td><td colspan="2">58,000</td></tr>
<tr><td>Gender əsaslı zorakılıq məsələləri ilə bağlı ünvanlı proqramlar (beynəlxalq təşkilatların dəstəyilə)</td><td colspan="2">ş.e.</td><td colspan="2">500,000</td></tr>
<tr><td colspan="2">Cəmi</td><td colspan="3">564,100</td></tr>
<tr><td colspan="2">Xidmətlərin ümumi dəyəri</td><td colspan="2">2,169,138</td><td colspan="2">11,770,528</td></tr>
<tr><td colspan="6">3. Qadınlara qarşı zorakılıqdan zərərçəkənlərin şəxsən ödədiyi xərclər</td></tr>
<tr><td rowspan="2">Maddi zərər</td><td>Şəxsi əmlakın itirilməsi</td><td>190 600 (maks.)</td><td colspan="2">ş.e.</td><td>535,014,200</td></tr>
<tr><td>İtirilmiş gəlir</td><td>129 200 (maks.)</td><td colspan="2">ş.e.</td><td>93,153,200</td></tr>
<tr><td>Şəxsi xərclər</td><td>Zorakılığın təsirlərini aradan qaldırmaq üçün xərclənən şəxsi vəsaitlər</td><td>82 602 (maks.)</td><td colspan="2">ş.e.</td><td>109,365,048</td></tr>
<tr><td colspan="3">Cəmi - Qadınlara qarşı zorakılıqdan zərərçəkənlərin ödədiyi xərclərin məbləği</td><td colspan="2">ş.e.</td><td>737,532,448</td></tr>
<tr><td colspan="3">Xərclərin ümumi məbləği</td><td colspan="2">2,780,256</td><td>764,118,919</td></tr>
</table>

# Nəticələr

Azərbaycanda qadınlara qarşı zorakılığın iqtisadi yükünün müəyyən edilməsi üzrə aparılmış cari tədqiqat zorakılıq nəticəsində yaranan fəsadların yalnız zorakılıqdan zərərçəkənlərə deyil, həm də onların ailələri və icmaları, işəgötürənlər və vergi ödəyiciləri, dövlət qurumları və qeyri-hökumət sektoru, dövlət büdcəsi və sığorta fondları, habelə bütövlükdə milli iqtisadiyyata təsir baxımından səbəb olduğu maliyyə vəsaitlərinin itkisini nümayiş etdirmək üçün tələb olunan zəruri dəlilləri əks etdirir. Qadınlara qarşı zorakılığın doğurduğu əhəmiyyətli ictimai fəsadları nəzərə alaraq, onu yalnız şəxsi ailə məsələsi kimi qəbul etmək mümkün deyil.

Çünki zorakılığın fəsadları cəmiyyətdəki hər kəsə təsir edir. Qadınlara qarşı zorakılığın doğurduğu iqtisadi yük pul ekvivalenti, əmək məhsuldarlığı, xidmətlərə olan ehtiyac və qeyri-maddi təsirlər baxımından ölçülə bilər. Belə ki, zorakılığın həm cari təsirləri, həm də cəmiyyətin müxtəlif üzvlərinin üzləşdiyi uzunmüddətli və sonradan özünü biruzə verən təsirlərini ölçmək mümkündür.

Bu siyahıya zərərçəkənlər və onların ailələri, zorakılığı törətmiş şəxslər, habelə işçilərin əmək qabiliyyətini itirməsi və məhsuldarlığının aşağı düşməsi nəticəsində iqtisadi zərərlə üzləşən işəgötürənlər, qadınlara qarşı zorakılığa cavab olaraq dəstək xidmətləri təmin edən dövlət və qeyri-dövlət qurumları, müxtəlif səviyyəli büdcələr və digər aidiyyəti maddələr daxildir. Ümumilikdə, zorakılıq nəticəsində xəstəliklər və demoqrafik itkilərlə (ölüm, xəsarət, arzuolunmaz hamiləliklər, psixoloji pozuntular) bağlı yük bütün cəmiyyətin üzərinə düşür ki, bu da nəzərəçarpan səviyyədə sosial-iqtisadi fəsadlarla nəticələnir.

Sözügedən iqtisadi yükün bəzi kateqoriyaları itirilmiş (gerçəkləşməyən) məhsul buraxılışı (ÜDM-ə münasibətdə) və milli maliyyə vəsaitləri, qadınlara qarşı zorakılıqla mübarizə məqsədilə edilən cavab tədbirləri, zərərçəkənlərə yardım və zorakılığı törətmiş şəxslərin cinayət təqibi ilə bağlı xərclərdən ibarət ola bilər. Bundan əlavə, zorakılıqdan zərərçəkənlər adətən zorakılığın fəsadlarını aradan qaldırmaq üçün müəyyən xərcləri özləri ödəməli olurlar (məs. tibb xidməti və dərman vasitələri, şəxsi təhlükəsizlik tədbirləri, təhlükəsiz mənzil şəraiti, hüquqi yardım, nəqliyyat və s.). Qadınlara qarşı zorakılığın psixoloji pozuntu və stresdən qaynaqlanan dolayı xərcləri ailə və şəxslərarası münasibətlər baxımından mühüm posttravmatik fəsadlara yol aça bilər.

Bu tədqiqat çərçivəsində qadınlara qarşı zorakılığın doğurduğu maddi iqtisadi xərclər üç əsas kateqoriya üzrə qruplaşdırıla bilər:

**1.** bərpaolunmaz (erkən ölüm) və bərpaolunan(xəsarətlər və digər sağlamlıq pozuntuları nəticəsində əmək qabiliyyətinin itirilməsi, əlillik və əmək məhsuldarlığının aşağı düşməsi) əhali itkiləri,

**2.** zorakılığa cavab olaraq və zərərçəkənlərə yardım üçün göstərilən xidmətlərə(tibb, hüquq-mühafizə və cinayət mühakimə sistemi,ixtisaslaşmış yardım, qadınlara qarşı zorakılığın qarşısının alınması üçün ünvanlı proqramlar)sərf olunan maliyyə vəsaitləri, və

**3.** zərərçəkənlərin zorakılığın fəsadlarını aradan qaldırmaq üçün şəxsən ödədikləri vəsaitlər və onların üzləşdiyi fərdi maddi itkilər. Müxtəlif sərfiyyat maddələri üzrə təklif olunan hesablamalar müxtəlif yanaşmalara, o cümlədən "vahid qiyməti" yanaşmasına (konkret zorakılıq hadisələrinə cavab olaraq göstərilmiş səciyyəvi xidmətlər kompleksinin dəyəri) və "ümumi əməliyyat xərcləri" yanaşmasına (məs.qadınlara qarşı zorakılığın aradan qaldırılmasına yönələn ünvanlı proqram) əsaslanır. Konkret mal və/yaxud xidmətlərin təqribi dəyərini hesablamaq mümkün olmadıqda, "oxşar xərclərin ötürülməsi" yanaşması tətbiq olunmuş, habelə tədqiqat yanaşmalarını müzakirə etmək üçün dəvət olunan ekspertlərin əsaslandırılmış mülahizələri nəzərə alınmışdır.

Tədqiqat 2017-ci ildə qadınlara qarşı zorakılıqla bağlı cinayətlər və dövlət qurumları tərəfindən zərərçəkənlərə göstərilmiş sosial xidmətlər barədə inzibati məlumatlara əsaslanır. Qadın əhali arasında zorakılığın yayılma səviyyəsinin tətbiq edilməsi vasitəsilə zərərçəkənlərin aldıqları xəsarətlər və fəsadların aradan qaldırılması üçün istifadə etdikləri əsas strategiyaları araşdırmaq üçün 2008-ci ildə Azərbaycanda qadınlara qarşı zorakılıqla bağlı aparılmış milli sorğunun əsas nəticələrindən də istifadə olunub.

Əlavə məlumatlar toplamaq üçün yerli səhiyyə işçiləri və sosial işçilər, polis əməkdaşları və hakimlər, yerli icra hakimiyyəti orqanlarının nümayəndələri və QHT-lərin nümayəndələri ilə fokus qrupu müzakirələri aparılıb. Yerli ekspertlər və gender əsaslı zorakılığın qarşısının alınması və cavab tədbirləri ilə bağlı dövlət siyasətinin hazırlanmasında iştirak edən dövlət qurumlarının nümayəndələri ilə aparılan geniş müzakirələr vasitəsilə tədqiqatın strukturu və istifadə ediləcək əsas yanaşmalar müəyyən edildi. Nəhayət, zorakılığa məruz qalmış qadınların şəxsən ödədikləri xərclər və zorakılığın nəticələrini aradan qaldırmaq üçün gördükləri tədbirlər barədə məlumatlar toplamaq üçün zorakılığa məruz qalmış və yardım üçün müraciət etmiş 197 qadın arasında ünvanlı sorğu keçirildi.

Qadınlara qarşı zorakılığın doğurduğu iqtisadi xərcləri qiymətləndirərkən, zorakılıqla bağlı cinayətlərin yüksək latentlik səviyyəsi ilə əlaqədar olaraq, bəzi mühüm məhdudiyyətlər ortaya çıxmışdır. Belə ki, cəmiyyətdə hökm sürən ictimai qınaq və ya zorakılıq törətmiş şəxsdən ehtiyatlanma nəticəsində zərərçəkənlərin yalnız məhdud bir hissəsi müvafiq yardım üçün müraciət edir. Gender əsaslı zorakılıq halları barədə şikayətin edilməməsi həm də zərərçəkənlərin dövlət qurumlarına inamının olmaması və ixtisaslaşmış xidmətlərin məhdudluğu ilə bağlıdır. Bu çətinliyi aradan qaldırmaq üçün, 2008-ci ildə Azərbaycanda qadınlara qarşı zorakılıqla bağlı aparılmış milli sorğunun nəticələri qadınlara qarşı fiziki və cinsi zorakılığın yayılma səviyyələrini və zərərçəkənlərin zorakılığın fəsadlarını aradan qaldırmaq üçün istifadə etdikləri strategiyaları (yardım üçün müraciət baxımından) qiymətləndirmək üçün istifadə edilmişdir. Tətbiq edilmiş simulyasiyanın nəticələrinə əsasən, 2017-ci ildə zorakılığa məruz qalma ehtimalı olan qadınların sayının **211800 nəfərə** çata biləcəyini söyləmək mümkündür. Onlardan 61.4 min nəfəri zorakılıqla bağlı müxtəlif xəsarətlər almış, 72 min nəfəri isə zorakılıq nəticəsində psixoloji stress və psixoloji pozuntulara məruz qala bilərdi.

Qadınlara qarşı zorakılığın latentlik səviyyəsini nəzərə almaqla, **2017-ci ildə Azərbaycanda qadınlara qarşı zorakılığın məcmu iqtisadi yükünün 764 milyon ABŞ dollarına (ölkənin ÜDM-nin 1.8%-i) çata biləcəyini ehtimal etmək mümkündür.** Bu təqribi hesablamalar rəsmi şəkildə qeydə alınmış qadınlara qarşı zorakılıq hadisələrinin iqtisadi ekvivalentindən (2.8 milyon ABŞ dolları) 200 dəfə daha çoxdur, çünki bu xərclər rəsmi statistikada qeyd olunmayan zorakılıq hallarını da əks etdirir.

Müvafiq ssenari əsasında uyğunlaşdırılmış təqribi hesablamalar nümayiş etdirir ki, 2017-ci ildə tibbi-demoqrafik xəsarətlər nəticəsinə itirilmiş (gerçəkləşməyən) məhsul buraxılışının dəyəri 13.9 milyon ABŞ dollarına qədər ola bilərdi. Bununla belə, bu təqribi hesablamalar minimum əməkhaqqı və əlilliyə görə minimum müavinətə əsaslandığından, itkilərin iqtisadi ekvivalenti əhəmiyyətli dərəcədə kiçildilmiş ola bilər (xüsusilə ABŞ dolları ekvivalenti ilə uyğunlaşdırdıqda). Cari hesablamalar həmçinin rəsmi məşğulluq səviyyəsinə əsaslanır, halbuki kölgə iqtisadiyyatının həcmi itirilmiş məhsul buraxılışının real miqyasının daha böyük olması və milli iqtisadiyyata daha böyük təsir etməsini ehtimal etməyə əsas verir.

2017-ci ildə qadınlara qarşı zorakılıqla mübarizə üzrə həyata keçirilmiş cavab tədbirlərini özündə ehtiva edənxidmətlərin ümumi dəyəri 11.8 milyon ABŞ dollarına qədər ola bilər. Tədqiqat çərçivəsində uyğunlaşdırılmış hesablama nəticələrinə əsasən, qadınlara qarşı zorakılıqdan zərərçəkənlərə göstərilmiş potensial tibbi xidmətlərin dəyəri 9.8 milyon ABŞ dolları təşkil edə bilərdi (qadınlara qarşı zorakılıq üzrə qeydə alınmış hadisələr zorakılıqdan sonra göstərilmiş profilaktik xidmətlər və dərman vasitələrinin cari qiymətləri əsasında hesablanaraq, 123 min ABŞ dolları təşkil edib). Hüquq-mühafizə orqanları tərəfindən qadınlara qarşı zorakılıqla mübarizə üzrə adekvat cavab tədbirlərinin görülməsi, o cümlədən cinayətlərin araşdırılması, mühafizə orderlərinin verilməsi və məhkumların cəzaçəkmə müəssisələrində saxlanılmasına 1.5 milyon ABŞ dollarına yaxın vəsaitin sərf olunduğu ehtimal edilib.

Ölkədə həmçinin, zərərçəkənlər üçün sığınacaqların və ixtisaslaşmış yardım xidmətlərinin çatışmazlığı problemi mövcuddur. Həmçinin, qadınlara qarşı zorakılığın ünvanlı tədbirlər vasitəsilə aradan qaldırılması üçün xüsusi dövlət proqramları yoxdur. Nəticədə, yardım xidmətləri ilə bağlı xərclərin böyük hissəsi beynəlxalq təşkilatlar tərəfindən və yerli QHT-lərin cəlb etməyə müvəffəq olduğu maliyyə vəsaitləri hesabına təmin olunur. Beynəlxalq təşkilatlar 2017-ci ildə gender əsaslı zorakılıq məsələləri ilə bağlı ünvanlı tədbirlər üçün təqribən 500 000 ABŞ dolları təmin etsə də, zərərçəkənlərə göstərilmiş sosial xidmətlərin təqribi dəyəri cəmi 6100 ABŞ dolları məbləğində hesablanmışdır. Cari tədqiqatın aparıldığı dövr ərzində ölkədə zorakılığa məruz qalmış qadınlar üçün nə dövlət tərəfindən maliyyələşdirilən sığınacaqlar, nə də xüsusi qaynar xətlər mövcud idi. Yerli QHT-lərin səyləri maliyyə çatışmazlığı və beynəlxalq donorlardan

asılılığın yüksək olmasına görə kifayət qədər kövrək xarakterə malikdir.

Qeyd etmək vacibdir ki, qadınlara qarşı zorakılıqla bağlı Azərbaycan cəmiyyətinin üzərinə düşən məcmu iqtisadi yükün böyük hissəsi zərərçəkənlərin özləri tərəfindən ödənilir. Tədqiqatda istifadə edilmiş simulyasiya modelinin nəticələrinə əsasən, zərərçəkənlərin şəxsən ödədikləri illik ümumi xərclər 737 milyon ABŞ dollarından çox ola bilər (yəni cəmiyyətin üzərinə düşən məcmu maliyyə itkilərinin 90 faizindən çox). Bu tədqiqat çərçivəsində sorğuya cəlb olunmuş zorakılıq qurbanlarının təqribən 90 faizi bildirib ki, onlar qadınlara qarşı zorakılıq nəticəsində əhəmiyyətli dərəcədə maddi itkilərlə üzləşib; belə ki, onların qeyd etdiyi itkilərin orta məbləği 2800 ABŞ dolları həcmində hesablanıb. Zərərçəkənlərin 60 faizindən çoxu qadınlara qarşı zorakılıq nəticəsində əmək gəlirlərindən məhrum olub (orta hesabla 721 dollar). Zərərçəkənlər həmçinin zorakılığın fəsadlarını aradan qaldırmaq üçün tibbi xidmət və analizlər, dərman vasitələrinin alınması, köçmə və yeni yerdə məskunlaşma xərcləri, hüquqi məsləhət xərcləri, inzibati xidmətlərə görə ödəmələr və rüsumlar, zorakılığa məruz qalmış böyüklər və uşaqlar üçün psixoloqlarla konsultasiyalarla bağlı xərcləri özləri ödəməli olublar. Qadınların şəxsi xərcləri onların aldıqları xəsarətlər və üzləşdikləri sağlamlıq problemlərinin ağırlığından asılı olaraq fərqli olsa da, qadınlar zorakılığın nəticələrini aradan qaldırmaq və/yaxud zorakılığı törətmiş şəxslərdən ayrılandan sonra yeni həyata başlamaq üçün orta hesabla təqribən 1324 ABŞ dolları xərcləməli olublar. Bu xərclər qadınların orta əmək haqlarından yüksək olsa da, əksər hallarda zərərçəkənlərin özləri tərəfindən ödənilib. Respondentlərin təxminən 40 faizi zorakılığın fəsadlarını aradan qaldırmaq üçün digər ailə üzvləri və ya dostlarının onlara yardım etdiyinə dair məlumat verib. Tədqiqat nəticəsində həmçinin, aztəminatlı və işsiz qadınların bu baxımdan xüsusilə çətin vəziyyətdə olduğu müəyyən edilib, çünki onlar maliyyə vəsaitlərinin çatışmazlığına görə müvafiq xidmətlərdən yetərincə istifadə edə bilmirlər.

Tədqiqatın nəticələrini ümumiləşdirərkən, Azərbaycanda qadınlara qarşı zorakılıqla bağlı etibarlı məlumatların olmamasının bu zorakılığın iqtisadi yükünün hərtərəfli təhlilinə mane olan mühüm amillərdən biri olduğunu vurğulamaq vacibdir. Nəticə etibarilə, cari hesablamalar kifayət qədər təqribi xarakter daşıyır və qadınlara qarşı zorakılığın cəmiyyətə göstərdiyi bütün təsirləri tam və müfəssəl şəkildə əhatə etmir. Bu təqribi göstəricilər əsas etibarilə, sözügedən problemin miqyasının müəyyən edilməsi, təşviqat səylərinin gücləndirilməsi və zorakılığın qarşısını almaq və mövcud ictimai münasibətləri dəyişmək üçün adekvat siyasət tədbirlərinin formalaşdırılması məqsədilə ictimai diqqətin cəlb edilməsinə yönəlib. Lakin qeyd etmək lazımdır ki, qadınlara qarşı zorakılığın psixoloji təsirlər, reproduktiv sağlamlığa vurulan zərər və məcburi nikahların nəticələri də daxil olmaqla bir çox mühüm fəsadları bu qiymətləndirmədən kənarda qalıb. Qadınlara qarşı zorakılığın dolayı təsirləri və demoqrafik tendensiyalar və nəsillərarası münasibətlər baxımından sonradan üzə çıxan təsirlərinin səbəb olduğu iqtisadi yükü qiymətləndirmək üçün əlavə tədqiqatların keçirilməsi zəruridir.

| Sosial-iqtisadi vəziyyət | Respondentlərin xüsusi çəkisi, faizlə |
|---|---|
| **Yaş qrupu** | |
| 20 yaşdan aşağı | 4 |
| -29 yaşdan aşağı | 42 |
| -39 yaşdan aşağı | 36 |
| -49 yaşdan aşağı | 15 |
| 50 yaş və yuxarı | 3 |
| **Yaşadığı ərazi (zorakılığın törədildiyi vaxt)** | |
| İri şəhər, inzibati mərkəz | 48 |
| Kiçik rayon, qəsəbə | 35 |
| Kənd yeri | 17 |
| **Əmək vəziyyəti (zorakılığın törədildiyi vaxt)** | |
| İşçi | 14 |
| Özünüməşğul (fərdi sahibkar, fermer və s.) | 22 |
| İşsiz (işaxtaran) | 42 |
| Pensioner | 1 |
| Tələbə/məktəbli | 5 |
| Evdar qadın | 16 |
| **Əmək vəziyyəti (müsahibə vaxtı)** | |
| İşçi | 35 |
| Özünüməşğul (fərdi sahibkar, fermer və s.) | 45 |
| İşsiz (işaxtaran) | 11 |
| Təqaüdçü | 0,5 |
| Tələbə/məktəbli | 0,5 |
| Evdar qadın | 6 |
| Analıq məzuniyyətində | 2 |
| **Ailə vəziyyəti (zorakılığın törədildiyi vaxt)** | |
| Subay | 21 |
| Rəsmi nikah | 41 |
| Rəsmi nikahda olmadan birgə yaşama | 31 |
| Sevgilisi var, lakin birlikdə yaşamırlar | 5 |

| | |
|---|---|
| Boşanmış | 1 |
| Dul | 1 |
| **Ailə vəziyyəti (müsahibə vaxtı)** | |
| Subay | 4 |
| Rəsmi nikah | 9 |
| Rəsmi nikahda olmadan birgə yaşama | 11 |
| Sevgilisi var, lakin birlikdə yaşamırlar | 13 |
| Boşanmış | 60 |
| Dul | 3 |
| **Uşaqlar** | |
| 18 yaşdan aşağı uşağı yoxdur | 14 |
| 18 yaşdan aşağı uşağı var, onlardan: | 86 |
| Bütün uşaqlar anası ilə yaşayır | 81 |
| Uşaqların bəziləri anası ilə yaşayır | 14 |
| Uşaqların heç biri anası ilə yaşamır | 5 |
| **Ev təsərrüfatının gəlir səviyyəsi (müsahibə vaxtı)** | |
| Yüksək səviyyəli gəlir və orta səviyyədən yuxarı gəlir | 26 |
| Orta səviyyəli gəlir | 44 |
| Aşağı səviyyəli gəlir və orta səviyyədən aşağı gəlir | 30 |

## ƏLAVƏ B: 2017-Cİ İLDƏ AZƏRBAYCANDA MƏİŞƏT ZORAKILIĞI CİNAYƏTLƏRİNDƏN ZƏRƏRÇƏKƏNLƏR

| Cinayətlər | Zərərçəkənlərin sayı | onlardan qadınlar | onlardan | |
|---|---|---|---|---|
| | | | 18 yaşadək qızlar | hamilə qadınlar |
| Cəmi | 1268 | 964 | 6 | 2 |
| onlardan: | | | | |
| qəsdən adam öldürmə | 60 | 39 | 4 | - |
| adam öldürməyə cəhd | 25 | 18 | - | 1 |
| özünü öldürmə həddinə çatdırma | 1 | 1 | - | - |
| qəsdən sağlamlığa ağır zərər vurma | 44 | 26 | - | - |
| qəsdən sağlamlığa az ağır zərər vurma | 102 | 63 | - | - |
| qəsdən sağlamlığa yüngül zərər vurma | 993 | 792 | 2 | 1 |
| işgəncə vermə | 4 | 4 | - | - |
| öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə | 3 | 2 | - | - |
| digər | 36 | 19 | - | - |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (2018) Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar/Statistik məcmuə: 110; mənbə: http://www.stat.gov.az/.*

## ƏLAVƏ C: 2017-Cİ İLDƏ AZƏRBAYCANDA CİNAYƏTLƏRDƏN ZƏRƏRÇƏKƏNLƏR

| Cinayətlər | Cəmi | onlardan | |
|---|---|---|---|
| | | qadınlar | onlardan 18 yaşadək qızlar |
| Xəsarət alan şəxslərin sayı – cəmi, nəfər | 6 830 | 2 184 | 48 |
| ehtiyatsızlıqdan törədilən cinayətlər nəticəsində | 1 818 | 597 | 39 |
| qəsdən adam öldürmə nəticəsində | 9 | 3 | - |
| qəsdən sağlamlığa ağır zərər vurma nəticəsində | 394 | 42 | - |
| Ölən şəxslərin sayı – cəmi, nəfər | 1 165 | 337 | 34 |
| ehtiyatsızlıqdan törədilən cinayətlər nəticəsində | 855 | 216 | 20 |
| qəsdən adam öldürmə nəticəsində | 182 | 76 | 9 |
| qəsdən sağlamlığa ağır zərər vurma nəticəsində | 19 | | - |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (2018) Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar/Statistik məcmuə: 110; mənbə: http://www.stat.gov.az/.*

## ƏLAVƏ D: SORĞU RESPONDENTLƏRİ ARASINDA ZORAKILIĞA MƏRUZ QALMA İLƏ BAĞLI ŞƏXSİ TƏCRÜBƏLƏR

| Zorakılığın xüsusiyyətləri | Respondentlərin xüsusi çəkisi, faizlə |
|---|---|
| **Üzləşdiyi ən ağır zorakılıq halı*** | |
| Fiziki zorakılıq | 76 |
| Emosional, psixoloji zorakılıq | 35 |
| Cinsi zorakılıq | 24 |
| İqtisadi zorakılıq | 23 |
| Davranışa nəzarət | 22 |
| Məcburi nikah | 18 |
| **Zorakılıq təcrübələrinin digər formaları (ən ağır təcrübə istisna olmaqla)*** | |
| Fiziki zorakılıq: | 60 |
| Emosional, psixoloji zorakılıq | 45 |
| Cinsi zorakılıq | 36 |
| İqtisadi zorakılıq | 20 |
| Davranışa nəzarət | 24 |
| Məcburi nikah | 32 |
| Heç biri | 2 |
| **Uşaqların zorakılığa şahid olması (uşaqlı respondentlər arasında)** | |
| Anasına qarşı zorakılığa şahid olmuş uşaqlar | 86 |
| **Zorakılığı törəmiş şəxslər*** | |
| Rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs | 76 |
| Digər ailə üzvü (üzvləri) | 28 |
| Digər tanışları (ailə üzvü olmayan) | 16 |
| Tanımadıqları şəxs | 7 |
| **Zorakılıq hallarında yardım üçün müraciət etmə*** | |
| Yardım üçün müraciət etməyib | 2 |
| Tibb işçiləri | 31 |
| Polis, hüquq-mühafizə orqanları | 51 |
| Sosial xidmətlər | 14 |
| Yerli icra hakimiyyəti orqanları, bələdiyyə orqanları | 15 |
| Psixoloq | 20 |
| Qeyri-hökumət təşkilatı | 72 |

| | |
|---|---|
| Qohumlar, dostlar | 69 |
| Dini qurum (kilsə) | 7 |
| **Zorakılığın sağlamlığa təsirləri*** | |
| Ağır xəsarətlər | 13 |
| Az ağır xəsarətlər | 32 |
| Yüngül xəsarətlər | 23 |
| Digər sağlamlıq pozuntuları (xəsarətlərdən başqa) | 17 |
| Psixoloji stress pozuntuları | 34 |
| Yoxdur | 4 |

** cəmin 100%-dən çox olması bir neçə cavabın verilməsi imkanı ilə bağlıdır.*

## *İstifadə edilmiş ədəbiyyatın siyahısı:*


Bott S., Morrison A. və Ellsberg M. (2005). *“Orta və aşağı gəlirli ölkələrdə gender əsaslı zorakılığın qarşısının alınması və cavab tədbirlərinin görülməsi: Qlobal icmal və təhlil”,* Dünya Bankının Siyasətlərin Tədqiqi üzrə İşçi Sənədi 3618, İyun 2005-ci il.

Chan K. L., Cho E. Y-N. (2010). *Məişət zorakılığının iqtisadi təsirlərinin maliyyə aspektlərinə baxış, Travma, zorakılıq və istismar.*

Kelly L. (2008). *Qadınlara qarşı zorakılıqla mübarizə: Yardım xidmətlərinin minimum standartları,* Avropa Şurasının İnsan Hüquqları və Hüquqi Məsələlər Baş Direktorluğunun Gender Bərabərliyi və İnsan Alveri ilə Mübarizə Bölməsi.

Khitarishvili T. *Cənubi Qafqaz və Qərbi MDB-də gender və məşğulluq problemləri*, BMT-nin İnkişaf Proqramı.

Helweg-Larson et al (2010). *Zorakılığın doğurduğu xərclər: Danimarkada qadınlara qarşı zorakılığın iqtisadi və şəxsi aspektləri,* Milli İctimai Səhiyyə İnstitutu, Cənubi Danimarka Universiteti.

Nectoux M., Mugnier C. et al. (2010). *Fransada intim partnyor zorakılığının iqtisadi qiymətləndirilməsi*, Sante Publique, 22(4).

Stern, Fleidner et al (2013). *İntim partnyor zorakılığının doğurduğu xərclər:* İcmal, Federal Gender Bərabərliyi Ofisi, Bern.

Walby S., Olive P. (2013). *Qadınlara qarşı zorakılıqla mübarizə tədbirlərinin yaratdığı əlavə dəyərin iqtisadi aspektləri,* Brüssel: Avropa Parlamentinə hesabat.

Zhang T., Hoddenbagh J., McDonald S., Scrim K. (2012). *Kanadada Ailə Zorakılığının İqtisadi Təsirlərinin Qiymətləndirilməsi*, Kanadanın Ədliyyə Nazirliyi, Ottava.

Avropa Şurası (2017). *“Azərbaycanda qadınların ədalət mühakiməsinə çıxışı üçün maneələr, hüquqi müdafiə vasitələri və ən yaxşı təcrübələr”. “Beş Şərq Tərəfdaşlığı ölkəsində qadınların ədalət mühakiməsinə çıxışının artırılması”* (Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova və Ukrayna) adlı Proqram üzrə Əməkdaşlıq Çərçivəsi Layihəsi çərçivəsində hazırlanıb.

*“Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında” Bəyannamə Nyu-York, BMT, 23 fevral 1994.*

EİGE (2016). *Aİ-nin üzv dövlətlərində zorlama, feminisid və intim partnyor tərəfindən törədilən zorakılıqlabağlı inzibati məlumatların toplanması,* Lüksemburq: Avropa İttifaqının Nəşrlər Ofisi.

EİGE (2014). *Avropa İttifaqında gender əsaslı zorakılığın doğurduğu xərclərin qiymətləndirilməsi,* Lüksemburq: Avropa İttifaqının Nəşrlər Ofisi.

Qadınlara qarşı zorakılığın bütün formalarına dair tədqiqat, Baş Katibin hesabatı, 6 iyul 2006: https://undocs.org/en/A/RES/58/185.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (2018). *Azərbaycanda Cinayətkarlıq və Hüquqpozmalar.* Statistik Məcmuə, http://www.stat.gov.az/.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (2018). *Azərbaycanda Səhiyyə, Sosial Təminat və Mənzil Şəraiti. Statistik Məcmuə .*

Sida (2015). *Gender əsaslı zorakılığın qarşısının alınması və cavab tədbirlərinin görülməsi*: İfadələr və strategiyalar, Gender alətləri dəsti [Tematik icmal].

*Qadınlara qarşı zorakılığın iqtisadi nəticələri. BMT-nin Baş Katibinin Köməkçisi və BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətləndirilməsi Qurumunun İcraçı Direktor Müavini Lakşmi Purinin "Qadınlara qarşı zorakılığın iqtisadi nəticələri" üzrə yüksək səviyyəli müzakirələrdə çıxışı, 21 sentyabr 2016-cı il.*

UNECE və ÜST (2005). *Qadınlara qarşı zorakılıq: Statistik icmal - Məlumatların toplanması ilə bağlı çətinliklər və boşluqlar, onların aradan qaldırılması üzrə metodologiya və yanaşmalar.* Ek-spert Qrupunun İclası, Aprel 2005. Cenevrə.

UNFPA & UCSR (2017). *Ukraynada qadınlara qarşı zorakılığın iqtisadi nəticələri,* BMT-nin Əhali Fondu, Ukrayna Sosial İslahatlar Mərkəzi, Kiyev.

UNFPA (2011). *Azərbaycanda qadınlara qarşı zorakılıq üzrə milli sorğu hesabatı* - 2008.

ÜST (1946) *Ümumdünya Səhiyyə Təşkilatının Nizamnaməsi.*

ÜST (2003) *Cinsi zorakılıq qurbanları üçün tibbi-hüquqi yardımın göstərilməsi ilə bağlı rəhbər qaydalar.*

ÜST (2013). *Qadınlara qarşı zorakılığın yayılma səviyyəsi ilə bağlı təxmini qlobal və regional göstəricilər: Intim partnyor və digər şəxslər tərəfindən törədilən cinsi zorakılığın yayılma səviyyəsi və sağlamlığa təsirləri,* Cenevrə.

ÜST (2001) *Qadınlar ilk növbədə*: qadınlara qarşı zorakılıqla bağlı tədqiqatlarda etik məsələlər və təhlükəsizliklə bağlı rəhbər qaydalar, Cenevrə.